Xalqın qəzeti!

# Xalq qəzeti

№ 83 (31052) 13 may 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Zəngilan şəhərinin sakinləri 33 ildən sonra doğma ocağa qayıtdılar

## Prezident İlham Əliyevin Zəngilan rayonuna səfəri

### Zəngilan şəhərində ilk yaşayış kompleksinin açılışı



**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərində inşa olunmuş 104 mənzilli ilk yaşayış kompleksinin açılışında iştirak edib.**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev kompleksdə yaradılmış şərait barədə dövlətimizin başçısına məlumat verdi.

Qeyd edək ki, 2022-ci ildə bu kompleksin təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Dövlətimizin başçısı 2024-cü və 2025-ci illərdə yaşayış kompleksinin tikintisi ilə tanış olub.

*(ardı 2-ci səhifədə)*

## Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin 103-cü ildönümü ilə bağlı paylaşım edib




**Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə bağlı paylaşım edilib.**

**Paylaşımda deyilir:**

**"Ümummilli lider Heydər Əliyev bugünkü Azərbaycanı görsəydi, şad olardı. Əminəm ki, Onun ruhu şaddır, çünki bugünkü Azərbaycan Onun əsəridir".**

## Birinci vitse-prezident Mehriban Əliyeva: Dahi şəxsiyyətin nurlu, əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial media hesabında ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə bağlı paylaşım edib.**

**Paylaşımda qeyd olunub:**

**"Heydər Əliyev – 103. Dahi şəxsiyyətin nurlu, əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq".**

## Ulu öndər Heydər Əliyev kəndlərimizə də yüksəliş gətirmişdi



Səhifə ⇨ 8

## Təqsir santexnikadadır, yoxsa suda?



Səhifə ⇨ 10

## Azərbaycan paytaxtı WUF13-ü yüksək hazırlıqla qarşılayır




Səhifə ⇨ 9

## Azərbaycanda axtarılan cinayətkarlar harada gizləniblər?



Səhifə ⇨ 5

## Avropa ilə strateji tərəfdaşlıqdan hərbi əməkdaşlığa



Səhifə ⇨ 6

## 1994-cü ilin 12 may atəşkəsi

*26 il sonrakı Qarabağ Zəfərinin təməl daşı*



**1994-cü il 12 may tarixində Ermənistan və Azərbaycan arasında qüvvəyə minmiş atəşkəs postsovet məkanında baş vermiş ən mürəkkəb silahlı münaqişələrdən biri olan Qarabağ müharibəsinin birinci mərhələsinin dayanması baxımından tarixi dönüş nöqtəsi hesab edilir. Atəşkəs regional geosiyasi balansın formalaşması, postsovet təhlükəsizlik arxitekturasının konturlarının müəyyənləşməsi və vasitəçi dövlətlərin təsir imkanlarının sınanması baxımından mühüm əhəmiyyət daşıyırdı. Atəşkəsə gedən yol əsasən "Bişkek protokolu" kimi tanınan siyasi-diplomatik sənəd üzərindən keçdi.**

*(ardı 7-ci səhifədə)*

## Azərbaycan beynəlxalq hüquqa kəsər qazandırdı

*Prezident zəngilanlılarla görüşdə ATƏT-in Minsk qrupunu bir daha "yad etdi"*

44 günlük Vətən müharibəsi torpaqların azad edilməsi ilə bərabər, həm də illərlə beynəlxalq masalarda Azərbaycana diktə olunan "dondurulmuş münaqişə" nağıllarının və saxta diplomatik qəliblərin param-parça edilməsi idi. Otuz il boyunca işğal olunmuş əraziləri mənasız protokollarla gəzib-dolaşan, status-kvonu qorumaqdan başqa heç bir işə yaramayan ATƏT-in Minsk qrupunun (qürubunun?) "fəaliyyəti" Azərbaycanın hərbi və siyasi iradəsi qarşısında öz əhəmiyyətini itirərək tarixin tozlu rəflərinə göndərildi. Bu qələbə göstərdi ki, xalqın birliyi dövlətin siyasi qətiyyəti ilə birləşəndə onilliklərlə açıqlması mümkünsüz sayılan düyünləri bir anda qırıla bilir. Qarabağın nümunəsində Azərbaycan sübut etdi ki, artıq kiminsə məsləhətinə və ya vasitəçiliyinə sığınmır, öz taleyini öz gücü və uzaqgörən siyasəti ilə birbaşa özü yazır.

*(ardı 8-ci səhifədə)*

# Zəngilan şəhərində ilk yaşayış kompleksinin açılışı





*(əvvəli 1-ci səhifədə)*

Kompleksin ümumi ərazisi 2 hektardan artıqdır. Burada 12 bina inşa olunub. O cümlədən 4 ədəd (60 mənzilli) üçmərtəbəli, 8 ədəd (44 mənzilli) ikimərtəbəli “townhouse” tipli evlər tikilib. Kompleksdə ümumilikdə 104 mənzil var ki, onlardan da 84-ü sakinlər, 20-si isə xidməti istifadə üçündür. Mənzillər 2, 3, 4 və 5 otaqlıdır.

Bu yaşayış kompleksində sakinlərin sosial məsələlərinin həlli istiqamətində bir sıra işlər görülüb. Ərazidə uşaq və idman meydançaları, velosiped zolağı, yeraltı və yerüstü avtomobil dayanacaqları yaradılıb. Zəngilanın Baş planına əsasən yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, məktəb, körpələr evi-uşaq bağçası və parkın yaxınlığında, ortasıxlıqlı və çoxfunksiyalı zonada yerləşir.

# Prezident İlham Əliyevin Zəngilanda ailələrlə görüşü





**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib. Dövlətimizin başçısı görüşdə çıxış etdi.**

## Prezident İlham Əliyevin çıxışı

– Bu gün Zəngilan sakinləri üçün çox gözəl, əlamətdar bir gündür. Uzun fasilədən sonra siz doğma vətənə - Zəngilan şəhərinə qayıdırsınız. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Bu gün ulu öndər Heydər Əliyevin doğum günüdür və bizim görüşümüzün məhz bu gündə keçirilməsi təbii ki, rəmzi məna daşıyır. Ulu öndər Heydər Əliyevin ən böyük arzusu doğma torpaqlarımızın işğaldan azad olunması idi. Biz - onun davamçıları onun vəsiyyətini yerinə yetirdik. Bu gün Azərbaycan ərazisində hər qarış torpaq Azərbaycan xalqına məxsusdur. İşğalçıları torpaqlarımızdan qovaraq öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik.

Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində rolu danılmazdır. Onun fəaliyyəti nəticəsində Azərbaycan ağır günlərdə öz müstəqilliyini qoruya bilmişdir. Bildiyiniz kimi, yaşlı nəsil o illəri yaxşı xatırlayır - 1993-cü ildə nəinki ərazi bütövlüyümüz, müstəqilliyimiz təhlükə altında idi. O vaxt ölkəmizə rəhbərlik etmiş şəxslər ölkəmizi fəlakətə aparırdılar. Həm torpaqlarımızın işğal altına düşməsi, Şuşanın, Laçının, Kəlbəcərin erməni işğalına məruz qalması, daxili çəkişmələr, özbaşınalıq, anarxiya və ovaxtkı hakimiyyətin təxribatçı və xəyanətkar fəaliyyəti nəticəsində vətəndaş müharibəsinin başlanması – gənc müstəqil dövlətimiz olan Azərbaycan faktiki olaraq parçalanma ərəfəsində idi. O vaxt əgər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, xalqımızın, dövlətimizin taleyi çox ağır ola bilərdi. Məhz onun fəaliyyəti nəticəsində bütün mənfi meyillərə son qoyuldu, vətəndaş müharibəsinə son qoyuldu, hakimiyyətsizlik, özbaşınalıq kimi hallara son qoyuldu, ölkəmizdə sabitlik yaradıldı, inkişaf başlandı və yavaş-yavaş ordu quruculuğu da artıq getməyə başladı. Onun Azərbaycana gəlməsindən əvvəl faktiki olaraq nizami ordumuz yox idi və Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimiz məhz buna görə idi. O vaxt ordumuza rəhbərlik edən şəxslər nəinki hərbi peşə nədir, onu bilmirdilər, hətta onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdü. “Şuşa əldən gedərsə, başıma güllə çaxaram” deyən o namərd, xain bu gün də orada-burada sülənir. Amma o vaxt dərdimiz onda idi ki, onun kimi adamlar Azərbaycanın əsas vəzifələrini zəbt etmişdilər. Heç bir biliyi, bacarığı, iş təcrübəsi olmayan, küçədən keçən insanlar birinci, ikinci, üçüncü, dördüncü şəxs təyin olunmuşdular. Ordumuz faktiki olaraq quldurların əlində idi.

Bütün bu mənfi meyillərin qabağını almaq, o cümlədən o vaxt müxtəlif qanunsuz silahlı birləşmələri yerinə oturtmaq üçün güclü siyasi iradə və xalqın dəstəyi lazım idi. Hər ikisi də var idi. Ulu öndərin Azərbaycan tarixində həlledici rolu bizim yaddaşımızdan heç vaxt silinməyəcək. Onun siyasətini davam etdirərək bu gün bax, biz buradayıq, Zəngilandayıq. Düşməni torpaqlarımızdan qovduq, ərazi bütövlüyümüzü bərpa etdik. O vaxta qədər güclü iqtisadiyyat qurduq, güclü ordu qurduq, cəmiyyətdə vətənpərvərlik meyillərini gücləndirdik və faktiki olaraq, Azərbaycanı beynəlxalq təcriddən də çıxara bildik. İkinci Qarabağ müharibəsi zamanı bizə nə qədər təzyiqlər olsa da, onların heç biri nəticə vermədi. Halbuki bizi dayandırmaq istəyənlərin sayı kifayət qədər çox idi. Birincisi, o vaxt ATƏT-in Minsk qrupuna rəhbərlik edən həmsədrlər, o ölkələr. Hərəsi öz səbəbinə görə bizi dayandırmaq istəyirdi. 44 gün ərzində dəfələrlə bizə təzyiqlər göstərilirdi. O ölkələr sıradan olan ölkələr deyil - onlar nüvə dövlətləridir, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Görün, biz kimlərlə üz-üzə qalmışdıq. Hər biri bu işğalı əbədi etmək, bundan bir alət kimi istifadə etmək və nəticə etibarilə Azərbaycan xalqına rahat nəfəs almaq imkanı verməmək üçün dəridən-qabıqdan çıxırdı. Təkcə onlar deyil, başqa ölkələr də bizim qələbəmizi istəmirdilər.

Bunların qabağında güclü iradə göstərmək, bunların qabağında demək ki, biz öldü var, döndü yoxdur, yolumuzdan dönməyəcəyik, əlbəttə ki, böyük iradə tələb edirdi. Yenə də 1993-cü ildəki kimi, xalqın dəstəyi lazım idi. O dəstək var idi və bütün xalqımız bir yumruq kimi birləşmişdi. O, mənə güc verirdi. İşin sonuna qədər - Şuşanın azad olunmasına qədər biz dayanmaq fikrində deyildik.

Təbii ki, o vaxt müharibənin davam etdirilməsi məqsədəuyğun deyildi və sonrakı hadisələr bunu əyani şəkildə göstərdi. Şuşanın işğaldan azad olunması ilə faktiki olaraq Ermənistan ordusunun beli qırılmışdı. Ermənistan silahlı qüvvələri faktiki olaraq mühasirədə qalmışdı. O vaxt müharibənin dayandırılması bizə imkan verdi ki, qan tökülmədən Kəlbəcər, Laçın, Ağdam rayonlarını siyasi yollarla, faktiki olaraq ultimatum yolu ilə qaytara bilək. Ultimatum da ondan ibarət idi ki, əgər Ermənistan qısa müddət ərzində, faktiki olaraq bir ay, ondan da az müddət ərzində bu torpaqlardan çıxmasa, Qarabağda qalmış bütün erməni silahlı qüvvələri məhv ediləcək. Əmr də verilmişdi və 15 minlik erməni silahlı qüvvələrinin kontingenti məhv olunacaqdı. Məhz buna görə Ermənistan, yenə də deyirəm, bizim tələblərimizə uyğun Kəlbəcər, Laçın və Ağdam rayonlarından çıxmışdı.

Burada heç bir başqa amil yox idi, heç bir kənar qüvvə onlara təzyiq etmirdi, ancaq bizim sərt mövqeyimiz. Nəzarətdən kənarda qalan hissə də gec-tez bizə qayıtmalı idi, amma o tez oldu, nəinki gec. Yenə də güclü iradə, peşəkarlıq və 2023-cü ilin sentyabrına qədər görülmüş taktiki işlər, addımlar, hərbi əməliyyatlar - bütün bunlar zəmin hazırladı ki, antiterror əməliyyatı cəmi bir neçə saat davam etsin. Ermənistan ordusu ikinci dəfə təslim oldu, separatçılığa son qoyuldu, işğala son qoyuldu və biz suverenliyimizi tam bərpa etdik.

Bütün bu şanlı tarix bizimlə əbədi olacaq. Təbii ki, bizim nəsil bunu heç vaxt unutmayacaq, gənc nəsil isə bunu bilməlidir - məktəblərdə, ailələrdə, cəmiyyətdə. Bu parlaq tariximiz bizim qürur mənbəyimizdir, bu, əbədi belə olacaq.

Əlbəttə ki, bir daha qayıdıram Ulu öndərin siyasi mirasına. Həlledici məqam məhz 1993-cü ildə idi, oktyabr ayında Prezident vəzifəsinə seçiləndən sonra bütün o mənfi meyillərin qabağı alındı. Düzdür, o vaxt bizim imkanlarımız çox məhdud idi, çoxlu problemlər var idi, bir nömrəli problem məcburi köçkünlərin yaşayış şəraiti idi. Onu da biz tədricən həll etməyə başlamışdıq və artıq 2007-ci ildə çadır şəhərcikləri qalmamışdı, orada vaxtilə məskunlaşmış insanları biz evlərə, mənzillərə köçürdük. İşğal dövründə hər dəfə keçmiş köçkünlərlə dövlət xətti ilə yeni inşa edilmiş şəhərciklərdə görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti bir yerdir. Torpaqlar azad olunandan sonra sizin üçün daha gözəl şərait yaradılacaq. Bax, bu gün bu Zəngilan şəhərinin bu gözəl mənzərəsi o sözlərimi bir daha təsdiqləyir.

İşğalın fəsadlarını aradan qaldırmaq - bu da çox çətin bir prosesdir. Minalar, torpaqların demək olar ki, işğalçılar tərəfindən zəhərlənməsi, ekosid. Bax, bu Bəsitçay dünyaca məşhur olan bir qoruq idi. Deyilənə görə, bura dünyada ikinci ən böyük çinar ağaclarının bir yerdə olması və qədim çinar ağaclarının qoruğu idi. Demək olar ki, onun yarısını Ermənistan dövləti məhv edib. Bəzi ağacları yandırıb, bəzilərini də kəsib bazarlarda satıb. Ümumiyyətlə, bizim meşə fondunun 60 min hektarı vəhşi işğalçılar tərəfindən məhv edilmişdir. Onların əsas hissəsi Kəlbəcər, Laçın rayonlarındadır, amma Zəngilanda da var. Həm talançılıq, həm düşmənçilik, qəddarlıq, özü də heç bir əsası olmadan. Azərbaycan xalqı erməni xalqına heç bir pislik etməmişdir. Onların bizə olan nifrətinin səbəblərini yəqin ki, psixiatrlar, psixoloqlar, həkimlər araşdırmalıdırlar. Nə qədər ki, Ermənistan cəmiyyətində Azərbaycana qarşı nifrət hissi ilə yaşayan siyasi qüvvələr var, bir o qədər də biz ayıq olmalıyıq.

Bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik. Biz istəməsəydik, sülh olmayacaqdı. Biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik. Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər. Gücləri var idisə, elə 2020-ci ildə kömək edərdilər də Ermənistana. Bu gün Ermənistana gəlib özünü saxta qəhrəman kimi göstərən bəzi xarici liderlər 2020-ci ildə elə həmin liderlər idi də öz ölkələrində hakimiyyət başında, gəlib yiyə duraydılar da Ermənistana. Boşboğazlıqdan başqa heç nə yoxdur. Onların da işi-gücü boşboğazlıqdır, ona görə öz ölkələrində onların dəstək əmsalı 10-15 faizdir. İndi guya ki, Ermənistanı bizim əlimizdən onlar çıxarıb xilas ediblər. Bizim Ermənistanı məhv etmək niyyətimiz yox idi, Ermənistanın müstəqilliyini onun əlindən almaq niyyətimiz yox idi. Bu gün hələ də Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri guya ki, keşik çəkirlər. Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları parlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə. Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq.

Biz bizə məxsus olan torpaqlarımızı işğalçılardan qan tökərək azad etdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bizim bütün hərbçilərimiz, qəhrəman döyüşçülərimiz ən yüksək qiymətə layiqdir. Biz həm döyüş meydanında, həm siyasi müstəvidə həm iradə, peşəkarlıq və yüksək mənəvi keyfiyyətlər, ləyaqət göstərmişik. Məhz buna görə bu gün Azərbaycana əvvəlki dövrdə olan hörmət bəlkə də birə-on artdı.

Bu gün hər şey göz qabağındadır. Azərbaycanın beynəlxalq mövqeləri, beynəlxalq nüfuzu nə qədər yüksək səviyyədədir. Bizə olan hörmət, rəğbət, xoş münasibət getdikcə daha da genişlənir. Bütün bunların səbəbi var. Əlbəttə ki, bizim ləyaqətli siyasətimiz, sözlə əməl arasındakı birlik və təbii ki, bizim hərbi qələbəmiz. Mən bunu dəfələrlə demişəm, bunu indi hər kəs görə bilir. Təkcə bunu görmək üçün tarixçi olmaq lazım deyil. Qısa müddət ərzində bizim qədər tam, mütləq, birmənalı qələbə qazanan ikinci ölkə olmamışdır. Özü də biz bu müharibəni bütün beynəlxalq humanitar normalara uyğun aparmışıq, Ermənistandan fərqli olaraq. Onlar bizim şəhərlərimizi, kəndlərimizi “İsgəndər-M”, “Skad” və digər ballistik uzaqmənzilli raketlərlə vururdular. Mülki əhaliyə qarşı müharibə aparırdılar həm Birinci Qarabağ müharibəsində, həm İkinci Qarabağ müharibəsində. Biz isə ermənilərə mənsub olan bir dənə də mülki obyekti dağıtmamışdıq.

Onlar Xocalı soyqırımını törətdilər. Biz isə onlar Qarabağdan Ermənistana gedəndə yolda polislər düzmüşdük ki, onlara çörək, su verək. Bax, fərq budur. Mən indi daha dərinə getmək istəmirəm, hər bir xalqda yaxşı və pis nümayəndələr var. Amma bütövlükdə götürəndə budur fərq. Zəngilanı yerlə-yeksan edən təkcə Ermənistan rəhbərləri deyildi, təkcə Qarabağ separatçıları deyildi. Demək olar ki, onların bütün əhalisi kütləvi surətdə gəlib talançılıqla məşğul idi. Hətta deyirdilər ki, gedirik talana. Yəni bu, onlarda bir qayda idi, bu, normal bir davranış idi. Yəni vəhşilik normal bir davranış idi - kim nə qədər çox daş oğurladı, kim nə qədər çərçivə çıxartdı, kim nə qədər dam örtüyü çıxartdı.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyevin Zəngilanda ailələrlə görüşü




*(əvvəli 2-ci səhifədə)*

Sonra aparıb həm İran bazarlarında, həm də Ermənistan bazarlarında satırdılar. Bax, fərq budur. Biz bunu edə bilərik? Bizim insanların heç ağlına gəlməz belə.

Ona görə bilirsiniz, yenə də deyirəm, bu gün dünyada bizə olan hörmətin bir çox səbəbləri var: həm qalib xalq kimi, həm müharibəni müharibə qanunlarına uyğun aparan xalq kimi, həm humanitar qaydalara riayət edən xalq kimi və qurub-yaradan xalq kimi. Yaxşı, 30 il bu Zəngilan onların əlində idi, daşı-daş üstə qoyardılar da əgər bu, onların torpağıdırsa. Zəngilanın o dağılmış məscidini biz konservasiya etmişik, orada da kiçik bir fotosərgi təşkil etmişik ki, heç kim unutmasın nə günə salmışdılar onlar bizim dini-tarixi abidələrimizi. Bu onların idisə, tikib qurardılar da. Cəmi beş il keçib, təkcə Zəngilan yox, görün, hər yerdə quruculuq işləri aparılır - yollar, körpülər, elektrik stansiyaları, su anbarları, köçkünlər üçün evlər, məktəblər tikilir. Bax, sahiblər belə edər. Talançı, işğalçı isə gələr sökər, dağıdar. Amma nə qədər söksələr də, yenə də bizim iradəmizi qıra bilmədilər. Biz qayıtmalı idik və qayıtmışıq bu torpaqların sahibləri kimi. İndi də qurub-yaradırıq, o cümlədən Zəngilan rayonunda. Bu, şəhərdə birinci yaşayış məhəlləsidir, hələ ikinci, üçüncü olacaq. Bu layihələrin bəziləri təsdiqləndi, bəziləri indi təsdiqlənəcək, inşaat gedəcək. Zəngilanda ermənilər tərəfindən dağıdılmış dediyim o məscidin yanında gözəl, bəlkə də ölkəmizin ən gözəl məscidlərindən biri olan Zəngilan məscidini inşa etdik. Zəngilanda, əslində, birinci yaşayış məntəqəsi qurulmuşdur, Ağalı kəndində. Bu da demək olar ki, Zəngilana xüsusi münasibətin əlaməti idi. İndi onun yanında Məmmədbəyli kəndi salınıbdır. Şəhər genişlənəcək.

Zəngilanda hava limanı, konqres mərkəzi fəaliyyət göstərir. Yenə də azad edilmiş ərazilərdə birinci kənd təsərrüfatı müəssisəsi - "Dost Aqropark" məhz Zəngilanda yaradılmışdır və mənə verilən məlumata görə, artıq o, öz hədəfinə çatır. Çünki hədəfi 10 min baş cins mal-qara idi, bu hədəfə artıq yaxındır, 6 min hektara yaxın torpaqda da işlər gedir.

Zəngilan nəqliyyat dəhlizinin üzərində yerləşir. Biz Zəngilanı nəinki Azərbaycanın, bölgənin nəqliyyat mərkəzlərindən birinə çevirəcəyik.

Dəmir yolu inşa edilir. Yaxın gələcəkdə - bəlkə də bir il, ilyarım bundan sonra Bakıdan Zəngilana dəmir yolu ilə gəlmək mümkün olacaq, necə ki, bu gün Ağdama dəmir yolu ilə gedirlər. Gələn il Xankəndiyə dəmir yolu ilə gedəcəklər. Bu dəmir yolu davam edəcək, Zəngəzur dəhlizi ilə Naxçıvanı birləşdirəcək. Faktiki olaraq buradan Naxçıvana 30 dəqiqəlik bir yol olacaq. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanı bu coğrafi bağlantı ilə ölkəmizin əsas hissəsi ilə birləşdirəcəyik.



Eyni zamanda, İran sərhədində körpü demək olar ki, tikilib bizim təşəbbüsümüzlə və indi sərhəd-gömrük infrastrukturu, binalar tikilir. Yəqin ki, bir neçə aydan sonra o da açılışa hazır olacaq və bu, beynəlxalq nəqliyyat dəhlizi olacaq. Buradan keçən həm dəmir yolları, həm avtomobil yolları böyük xeyir gətirəcək. Çünki oraya xidmət edən insanlar işlə təmin olunacaqlar. Bunun Zəngilanın və bütövlükdə Azərbaycanın iqtisadiyyatına çox böyük töhfəsi olacaq.

Ermənistanla burada sərhəd açılandan, Zəngəzur dəhlizi açılandan sonra Zəngilan faktiki surətdə ölkəmizin yeganə rayonu olacaq ki, bunun iki qonşu ölkə ilə sərhəd-keçid məntəqəsi olacaq. Görün, bunun nə qədər böyük əhəmiyyəti var. Çünki bu, həm Şərq-Qərb dəhlizidir, Naxçıvandan Türkiyəyə, sonra Avropaya uzanan yoldur, həm də Şimal-Cənub dəhlizidir. Zəngilandan Ağbənd üzərindən İrana və Fars körfəzinə, buradan Naxçıvana keçməklə Culfaya, yenə də Fars körfəzinə. Bu, beynəlxalq bir mərkəz olacaq, əvəzolunmaz mərkəz olacaq. Biz bunu belə görürük və belə də olacaq. Çünki bu günə qədər bütün planlarımız gerçəkləşib.

Azad olunmuş torpaqlarda görülən işlərlə bağlı biz həm tələsirdik, həm də hər şeyi düzgün etməyə çalışırdıq. Planlı şəkildə, strategiya əsasında ki, hər şey düz-əməlli olsun - həm insanların yaşayışı üçün, məşğulluğu üçün, təhsili üçün, eyni zamanda, ölkə iqtisadiyyatı üçün. Zəngilan rayonunda görün, beş il ərzində 42 meqavatlıq su elektrik stansiyaları tikilmişdi. Sovet vaxtında bu yox idi. İndi bu, Zəngilanı belə müstəqil şəkildə tam enerji ilə təmin edə biləcək, lap burada 200 min əhali yaşasa belə. Amma biz bütövlükdə artıq sudan 300 meqavatdan çox enerji götürürük. Bir-iki il ərzində Günəşdən də götürəcəyik, ondan da çox.

Bütün bunlar ölkənin gücüdür. Yenə də deyirəm, hər şey planlı şəkildə aparılır. Biz çalışırıq ki, tezliklə keçmiş köçkünləri öz doğma vətənlərinə qaytaraq. Amma, eyni zamanda, hər şey elə qurulmalıdır ki, azad edilmiş ərazilər nəinki Azərbaycanda, dünyada nümunəvi olsun və bu da olacaq.

Sizi bir daha təbrik edirəm, sizə cansağlığı arzulayıram.

*

**Sakinlər:** Çox sağ olun.

**Sakin Murad Rəhimov:** Möhtərəm cənab Prezident, qeyd etdiyiniz kimi, bugünkü görüş əlamətdar bir günə təsadüf edir, əlamətdar bir gündə keçirilir. Xalqımızın ümummilli lideri, ulu öndərimiz Heydər Əliyevin anadan olduğu gündür. Ulu öndərimizin Azərbaycan xalqı, Azərbaycan dövləti qarşısında xidmətləri misilsizdir, əvəzolunmazdır. Onun ən böyük arzularından biri işğal olunmuş torpaqların azad edilməsi, sakinlərin öz ata-baba yurdlarına qaytarılması idi. Sizin uğurlu siyasətiniz və Ali Baş Komandanlığınız sayəsində Ulu öndərin arzuları yerinə yetirildi. Bu gün onun ruhu şaddır. Biz bu gün buraya ruh yüksəkliyi ilə, fərəhlə, sevinclə qayıdırıq. Bu sevinci bizə bəxş etdiyinizə görə Sizə minnətdarıq. Tanrıdan Sizə cansağlığı arzulayırıq. Tanrı Sizi qorusun. Allah-taala şəhidlərimizə rəhmət eləsin, məkanları cənnət olsun. Ailələrinə səbir diləyirəm. Qazilərimizə, müharibədə iştirak edən bütün oğullarımıza cansağlığı arzulayıram. Allah xalqımızı qorusun, dövlətimizi qorusun, Sizləri qorusun. Bu gün bizimlə görüşə gəldiyinizə görə bir daha minnətdarıq. Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

**Sakin Səbiyyə Balakişiyeva:** Cənab Prezident, biz də çox şadıq, Zəngilan torpağında bu gün Sizinlə görüşürük. Bu, bizim üçün bir qürur, doğrudan da çox şərəfdir. Bunu bizə yaşatdığınız üçün Sizə minnətdarıq. Uzun illərdir biz öz torpaqlarımızdan ayrı düşmüşdük. Amma arzularımıza bu gün çatmışıq. Doğrudan da xəyalımıza da belə gəlməzdi ki, biz öz torpaqlarımıza qayıdarıq. Biz buna görə Sizə minnətdarıq. Sizin qətiyyətiniz, gücünüz, iradəniz, eləcə də ordumuzun şücaəti nəticəsində biz bunlara nail olduq. Sizin bizə, xalqımıza məhəbbətiniz, sevginiz bizə güc-qüvvə verdi. Buna görə Sizə minnətdarıq. Biz hamımız, - Zəngilan əhalisi adından danışıram, - Sizi çox sevirik. Sevimli Mehriban xanıma bizim salamlarımızı çatdırın. Allah Sizə cansağlığı versin, uzun ömür və xalq naminə gördüyünüz bütün işlərdə uğurlar arzulayırıq. Allah ailənizi qorusun, çox sağ olun.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Çox sağ olun.

**Sakin Cəfər Cabbarlı:** Möhtərəm cənab Prezident, mən öz doğma torpağına qayıtmış bir Zəngilan gənciyəm. Eyni zamanda, qürurla bildirmək istəyirəm ki, mən öz müqəddəs peşə fəaliyyətini elə müqəddəs Zəngilanımızda davam etdirən müəllim ailəsinin başçısıyam. Onu da qeyd edim ki, mən öz həyat yoldaşımla birlikdə qayıdışın ilk məskəni olan Ağalı kənd tam orta məktəbində öz şərəfli, müqəddəs peşə fəaliyyətimizi birlikdə icra edirik. Zəngilan gənclərinin savadlı yetişdirilməsində, vətənpərvər yetişdirilməsində, intellektual olmasında biz öz əməyimizi səylə ortaya qoyuruq. Onu da qeyd etmək istəyirik ki, bu qüruru bizə yaşatdığınız üçün Sizə sonsuz təşəkkür edirəm. Şəhidlərimizin ruhu qarşısında baş əyirik, qazilərimizə, müharibə iştirakçılarımıza Allahdan cansağlığı diləyirik. Zəngilan gəncləri olaraq hər zaman "dəmir yumruq" kimi Sizin ətrafınızdayıq. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

*

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

*

Daha sonra dövlətimizin başçısı sakinlərlə söhbət etdi.

**Prezident İlham Əliyev:** Orada hələ xəstəxana yoxdur, moduldur, orada işləyəcəksiniz?

**Sakin:** Bəli, modul tipli xəstəxana var, orada işləyirik. Üç ildir fəaliyyət göstəririk.

**Prezident İlham Əliyev:** Orada işləyirsiniz, çox yaxşı.

**Sakin:** Olar ikimiz də şəkil çəkdirək?

**Prezident İlham Əliyev:** Siz də həkimsiniz?

**Sakin:** Müəlliməm.

**Prezident İlham Əliyev:** Oxşayırsınız, bacısınız?

**Sakin:** Xeyr.

Şəkil çəkdirilir.

**Prezident İlham Əliyev:** Uşaqlar Ağalıda necə oxuyurlar?

**Qadın sakin:** Yaxşıdır, çox yaxşıdır, şükür Allaha.

**Prezident İlham Əliyev:** Yaxşıdır. Sayı da artıb yəqin ki, uşaqların.

**Kişi sakin:** 282 nəfər şagird var.

**Prezident İlham Əliyev:** Məktəb kifayət edir, yerləşirlər?

**Qadın sakin:** Bəli. Artıq bu məktəbimiz də olacaq.

**Prezident İlham Əliyev:** Bəli, bu il.

**Qadın sakin:** İnşallah, sentyabr ayından.

**Kişi sakin:** Növbəti ildən elə mən də həyat yoldaşımla yəqin ki, bu məktəbdə tədris edəcəyik, inşallah.

**Prezident İlham Əliyev:** Harada yaşamısınız işğal dövründə?

**Kişi sakin:** İşğaldan sonra Bakıda Zəngilan şəhər icra nümayəndəsi işləmişəm.

**Prezident İlham Əliyev:** Bəs o vaxt - sovet vaxtında?

**Kişi sakin:** Hərbidə olmuşam, komandir-batalyon. Birinci Qarabağ müharibəsinin iştirakçısıyam.

**Prezident İlham Əliyev:** Buradan nə vaxt çıxmısınız?

**Kişi sakin:** 2021-ci ildən pensiyadayam. Sizin tərəfinizdən də təltif olunmuşam "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə, minnətdaram.

**Prezident İlham Əliyev:** Siz harada işləmisiniz sovet vaxtında?

**Kişi sakin:** Tikintidə işləmişəm.

**Prezident İlham Əliyev:** Tikintidə, Zəngilanda? Burada yaşamısınız? Bəs işğal dövründə, buradan çıxandan sonra harada yaşamısınız?

**Kişi sakin:** Bakı Tikiş Evinin yataqxanasında.

**Prezident İlham Əliyev:** Bu gün köçürsünüz?

**Kişi sakin:** Bəli. Çox sağ olun, bir daha minnətdarıq.

**Prezident İlham Əliyev:** Siz də burada yaşamısınız uşaqlıqdan?

**Kişi sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Şəhərdə?

**Kişi sakin:** Kənddə yaşamışam.

**Prezident İlham Əliyev:** Bəs sonra?

**Kişi sakin:** Sonra Xırdalanda yaşamışıq.

**Prezident İlham Əliyev:** 30 il Xırdalanda? Orada şərait necə idi?

**Kişi sakin:** Yaxşı idi. Hazırda 3 ildir burada çalışıram, yaşıllaşdırma idarəsində işləyirəm.

**Prezident İlham Əliyev:** Üç ildir burada çalışırsan, sağ ol.

Şəkil çəkdirilir.

**Qadın sakin:** Təşəkkür edirik, çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Bir daha təbrik edirəm sizi.

**Sakinlər:** Sağ olun, var olun.

## "Zangilan City Park Hotel"in təməlqoyma mərasimi






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Zəngilan şəhərində "Zangilan City Park Hotel"in təməlini qoyub.**

"PMD Group" MMC-nin layihə rəhbəri Kamil Əliyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, hotelin ərazisi 1,5 hektar olacaq. Burada eyni zamanda 241 nəfər qala biləcək. Hoteldə ümumi 116 nömrə olacaq. Burada restoran, çoxfunksiyalı iclas otaqları, idman zalı və açıq terras yaradılacaq. Yeni hoteldə ümumilikdə 120 nəfər işlə təmin ediləcək.

Dövlətimizin başçısı yeni hotelin təməlini qoydu.

# Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində WUF13 ilə bağlı görülən işlərlə tanış olub










**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Bakı Olimpiya Stadionunun ərazisində mayın 17-22-də keçiriləcək "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə bağlı görülən işlərlə tanış olub.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və WUF13 Azərbaycan Əməliyyat Şirkətinin icraçı direktoru Adil Məmmədov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdilər.

Qeyd edək ki, tədbir məkanı Bakı Olimpiya Stadionu və onun ətrafında formalaşdırılan ümumi əməliyyat əhatə dairəsi üzrə 53 hektar təşkil edir. Bunun 43 hektarı əsas tədbir məkanı, 10 hektarı isə əsas nəqliyyat terminalı və parklanma-transfer zonası kimi planlaşdırılıb. Qeydiyyat, sessiya, sərgi, media, nəqliyyat, texniki təminat, könüllülər və məkan xidmətləri vahid əməliyyat sistemi kimi təşkil olunub.

Yüksəksəviyyəli qonaqlar və nümayəndə heyətləri üçün xüsusi zonalar ayrılıb. Burada dövlət və hökumət nümayəndələrinin qəbulu, ikitərəfli görüşlər, istirahət sahəsi və qidalanma xidməti üçün xüsusi məkanlar nəzərdə tutulub.

Açılış və bağlanış mərasimlərinin təşkil ediləcəyi tədbir zalı 6000 nəfərə qədər iştirakçını qəbul edə biləcək. Mövcud hazırlıq səviyyəsi forumun yüksək iştirakçı axınını, çoxsaylı paralel tədbirləri və beynəlxalq nümayəndə heyətlərinin qəbullarını uyğun şəkildə planlaşdırmağa imkan verir. Forumun əsas müzakirə və paralel tədbirlərinin olacağı zona 3,55 hektar sahəni əhatə edir və iclas zalları, tematik sessiyalar, BMT tədbirləri, paralel görüşlər və ikitərəfli danışıqlar üçün nəzərdə tutulub. Burada müxtəlif formatlı rəsmi və işgüzar görüşlərin eyni vaxtda keçirilməsi üçün şərait var. Forum zamanı gündə təxminən 300-ə qədər paralel sessiya, görüş və tədbirin keçirilməsi planlaşdırılır.

Tədbirdə BMT-nin 6 rəsmi dili - ərəb, Çin, ingilis, fransız, rus və ispan dilləri ilə yanaşı, Azərbaycan və türk dillərində də sinxron tərcümə təmin ediləcək. Eyni zamanda, əlilliyi olan şəxslər üçün beynəlxalq işarət dili xidməti nəzərdə tutulub.

Bütün tədbir ərazisi üzrə 35-dən çox iaşə məntəqəsi nəzərdə tutularaq, məkanlar və açıq hava zonalarında yerləşdirilməklə iştirakçı axınının müxtəlif istiqamətlər üzrə paylanmasına və məkanda xidmət əlçatanlığının təmin olunmasına imkan verir.

İki hektar sahəni əhatə edən zonada isə "Media mərkəzi" ilə yanaşı, "Dəyirmi masa", "Xüsusi sessiya" və "Dialoq zalları" yerləşir. "Media mərkəzi"ndə iş sahəsi, canlı yayım və müsahibə otaqları, mətbuat konfransı zalı, TV studiyaları və media istirahət sahəsi mövcuddur. "Media mərkəzi"nin ümumi tutumu 600 nəfərdir. Burada eyni vaxtda isə 400 media nümayəndəsi işləyə bilər.

Ərazidə istirahət zonası da yaradılıb. Zonanın ümumi vizual və memarlıq yanaşmasında İçərişəhərdən ilhamlanan elementlərdən və Azərbaycan xalçaçılığına aid ornamentlərdən istifadə edilib.

Forum iştirakçıları üçün açıq hava formatında WUF13 Bulvarı yaradılıb. Bu sahə 2,5 hektar ərazini təşkil edir və iştirakçıların sərbəst hərəkəti, istirahəti, iaşə xidmətlərindən istifadəsi və tədbir məkanında şəhər mühiti ab-havasını hiss etməsi üçün nəzərdə tutulub. Bulvar ərazisi "Expo zonası"na keçid və açıq ictimai məkan funksiyasını daşıyır.

"Urban Expo zonası" isə 3,5 hektar sahəni əhatə edir. Ərazidə ölkə pavilyonları, beynəlxalq təşkilatlar, dövlət qurumları, yerli və regional hakimiyyət orqanları, özəl sektor, qeyri-hökumət təşkilatları, fondlar, təhsil və tədqiqat qurumları üçün sərgi sahələri yerləşir. Ümumilikdə, 121 pavilyon, o cümlədən 41 ölkə pavilyonu nəzərdə tutulub.

Forumun rəsmi mərasim komponentləri tədbir məkanının ümumi planlaşdırılmasında xüsusi nəzərə alınıb. Bayraq meydanı rəsmi mərasimlərin keçirilməsi üçün hazırlanıb və şəhər ab-havasının hiss olunması məqsədilə qala divarları motivləri ilə əhatələnib.

Nəqliyyat terminalı və parklanma-transfer funksiyalarını əhatə edən əlavə 10 hektarlıq zona ümumi əməliyyat ərazisinə inteqrasiya edilib. Burada avtobus, taksi xidmətləri, parklanma və iştirakçıların məkana yönləndirilməsi proseslərinin idarə olunması icra ediləcək. Şəhər üzrə nəqliyyat mübadilə mərkəzləri, elektrik avtobusları, taksi xidməti və hava limanı daşımaları tədbirin ümumi nəqliyyat planına inteqrasiya olunub.

Qeydiyyat prosesi üçün olan sahədə eyni anda 70 nəfərə, saatda isə 1000 nəfərə xidmət göstərmək imkanı var. Əlilliyi olan şəxslər üçün ayrıca akkreditasiya və qeydiyyat masaları nəzərdə tutulub. Qeydiyyat əməliyyatları tədbirin tələblərinə uyğun olaraq Azərbaycan tərəfinin əməliyyat komandası tərəfindən qurulub və iştirakçı axınının mərhələli idarə olunmasına uyğunlaşdırılıb.

Tədbirin fasiləsiz internet, yayım və rəqəmsal əməliyyat ehtiyaclarını təmin etmək üçün əsas və ehtiyat məlumat mərkəzləri, genişmiqyaslı fiber-optik və daxili şəbəkə infrastrukturu, simsiz şəbəkə avadanlıqları və fasiləsiz işləyəcək əməliyyat mərkəzi yaradılıb.

Diqqətə çatdıraq ki, Bakının ev sahibliyi edəcəyi BMT-nin Məskunlaşma Proqramı və Azərbaycan Hökuməti tərəfindən birgə təşkil olunan WUF13 dünyanın diqqətini yenidən ölkəmizə yönəldəcək. İndiyədək 180 ölkədən 32 min 225 nəfər qeydiyyatdan keçib ki, bu da artıq WUF tarixində rekord göstəricidir. Bu mühüm tədbirdə Azərbaycan dövləti tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misilsiz yenidənqurma və şəhərsalma modeli, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə tətbiq edilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, bu regionların yaşıl enerji zonasına çevrilməsi ilə bağlı görülmüş işlər müasir urbanizasiya və ekoloji bərpa sahəsində qabaqcıl nümunələr kimi dünya ictimaiyyətinə təqdim ediləcək. Qeyd edək ki, WUF13, həmçinin WUF tarixində ilk dəfə Liderlər Sammiti seqmentinin proqrama daxil edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

# Azərbaycan lideri bp-nin baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də bp şirkətinin baş icraçı direktoru Meq O'Nili qəbul edib.**

Dövlətimizin başçısı Meq O'Nili bp şirkətinin baş icraçı direktoru vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, onun rəhbərliyi ilə SOCAR-bp uğurlu əməkdaşlığının gələcəkdə də davam edəcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev ölkəmizlə bp arasında 30 ildən artıqdır ki, nadir tərəfdaşlıq tarixçəsinin olduğunu dedi. Dövlətimizin başçısı vurğuladı ki, bu müddətdə həyata keçirilmiş bütün layihələrdən əldə edilən gəlir əsasən Azərbaycanın sosial-iqtisadi inkişafı üçün istifadə olunub.

Ölkəmizlə bp arasında icra olunan layihələrin sayının artmaqda olduğunu deyən Azərbaycan Prezidenti bunun əməkdaşlığın hər iki tərəf üçün faydalı olduğunu nümayiş etdirdiyini vurğuladı və tərəfdaşlığımızın strateji xarakter daşıdığını diqqətə çatdırdı.

Təbriklərə görə təşəkkürünü bildirən Meq O'Nil Bakıda olmaqdan şərəf hissi keçirdiyini dedi.

bp şirkətinin baş icraçı direktoru ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə neft və qazdan əldə edilən gəlirin ölkənin inkişafına sərf olunması ilə bağlı uzaqgörən liderliklərini xüsusi vurğuladı.

Meq O'Nil bu xüsusda Bakının inkişafına, o cümlədən yollara və infrastruktura yatırılan sərmayəyə toxundu.

Dövlətimizin başçısı qeyd etdi ki, bəzi hallarda neft və qazdan əldə edilən gəlir sosial qeyri-bərabərliyə səbəb olur. Azərbaycanın timsalında isə bu, ölkənin tərəqqisinə kömək edib. Müstəqilliyimizi bərpa etdikdən bir müddət sonra "Əsrin müqaviləsi"nin imzalandığını xatırladan Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsindən sonra ölkəmizdə vəziyyətin çətin olduğunu dedi, ərazilərimizin itkisinə məruz qaldığımızı və humanitar fəlakətlə üzləşdiyimizi vurğuladı. Azərbaycan Prezidenti bildirdi ki, o zaman büdcəmiz sıfır səviyyəsində idi və bu vəziyyətdən çıxmağın yeganə yolu əsas beynəlxalq şirkətləri ölkəmizə cəlb etmək, onları investisiya yatırmağa inandırmaq idi. Prezident İlham Əliyev bu xüsusda bp-yə göstərdiyi etimada görə minnətdarlığını bildirdi.

Söhbət zamanı bp-nin ölkəmizdə icra etdiyi enerji, o cümlədən bərpaolunan enerji layihələri qeyd olundu, şirkətin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi layihənin önəminə toxunuldu.

Görüşdə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu qeyd edildi, SOCAR–bp əməkdaşlığının perspektivləri müzakirə olundu.

***AZƏRTAC***

## Azərbaycan Prezidenti ilə Pakistan Baş nazirinin telefon danışığı

**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bu barədə Azərbaycan Prezidentinin X sosial media hesabında bildirilib.

Telefon danışığı zamanı liderlər Azərbaycan ilə Pakistan arasındakı qardaşlıq və strateji münasibətləri bir daha təsdiqləyib, energetika, ticarət və xalqlararası təmaslar da daxil olmaqla, əsas sahələr üzrə əməkdaşlığın davamlı olaraq genişlənməsini məmnunluqla qeyd ediblər.

Baş nazir Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun sessiyasının əhəmiyyətini və Azərbaycanın qlobal şəhərsalma gündəliyinin irəli aparılmasında ev sahibi kimi rolunu vurğulayıb.

Prezident İlham Əliyev foruma göstərilən diqqətə görə minnətdarlığını bildirib və tədbirin şəhərsalma gündəliyi üçün aparıcı beynəlxalq platforma kimi əhəmiyyətini qeyd edib.

Baş nazir Şahbaz Şərif vacib işlərlə əlaqədar tədbirdə iştirak edə bilməyəcəyini, lakin Pakistanın sessiyada yüksək səviyyədə təmsil olunacağını deyib.

Tərəflər, həmçinin regional proseslər, xüsusilə Yaxın Şərqdəki vəziyyət barədə fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev Pakistanın fəal vasitəçilik rolunu, tərəflər arasında atəşkəsin təmin edilməsi və gərginliyin azaldılması istiqamətindəki uğurlu təşəbbüslərini yüksək qiymətləndirərək, bunun ölkə rəhbərliyinə olan güclü beynəlxalq etimadın göstəricisi olduğunu qeyd edib.

Liderlər sıx təmasda olmaq barədə razılığa gəliblər.

Baş nazir Prezident İlham Əliyevi Pakistana səfərə dəvət edib.

Dövlətimizin başçısı dəvəti məmnuniyyətlə qəbul edib.

## Baş nazirin bp heyəti ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 12-də bp şirkətinin yeni baş icraçı direktoru Meq O'Nilin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, görüş zamanı tərəflər Azərbaycan ilə bp arasında mövcud olan uzunmüddətli və səmərəli tərəfdaşlığın uğurla inkişaf etdiyini məmnunluqla vurğulayıblar.

Qarşılıqlı faydalı əməkdaşlığın M.O'Nilin fəaliyyəti dövründə daha da genişlənəcəyinə və yeni layihələrlə zənginləşəcəyinə ümidvarlıq ifadə olunub.

bp-nin Azərbaycanda həyata keçirdiyi layihələrin ölkənin enerji sektorunun inkişafında rolu vurğulanıb, əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda Ulu öndərin xatirəsini anıblar

**Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümüdür.**



Baş nazir Əli Əsədov, Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, Ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ümummilli liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

*XQ*



# DİN-də xidmətə qəbulun növbəti sıra baxışı

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 12-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 166 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*XQ*



# Britaniya səfirinin XİN-də vida görüşü



**Mayın 12-də xarici işlər naziri Ceyhun Bayramovla Birləşmiş Krallığın Azərbaycandakı səfiri Fergus Auld arasında onun ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüş keçirilib.**

Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud münasibətlərin inkişafını məmnunluqla qeyd edərək, bu istiqamətdə göstərdiyi səylərə görə səfirə təşəkkür edib.

Görüş zamanı Azərbaycanla Birləşmiş Krallıq arasında mövcud tərəfdaşlıq münasibətlərinin müxtəlif istiqamətləri üzrə əməkdaşlığın cari vəziyyəti və gələcək inkişaf perspektivləri geniş müzakirə olunub.

Tərəflər iki ölkə arasında mövcud dialoq, qarşılıqlı səfərlər və təmasların, o cümlədən siyasi məsləhətləşmələrin münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildiriblər.

Səfir Fergus Auld Azərbaycanda fəaliyyəti dövründə göstərilən dəstəyə görə minnətdarlığını ifadə edib. Nazir Ceyhun Bayramov səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.

*XQ*

# Slovakiya Milli Şurasının sədri ölkəmizə səfərə gəlib




**Mayın 12-də Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşi ölkəmizə rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı və onun rəhbərlik etdiyi nümayəndə heyətini Milli Məclisin sədr müavini Musa Qasımlı, Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar Məmmədov, Slovakiyanın Azərbaycandakı səfiri Elçin Qasımov və protokol əməkdaşları qarşılayıblar.

*XQ*

# Növbəti köç karvanı Xocavənddə

**Dünən Xocavənd şəhərinin, Qırmızı Bazar qəsəbəsinin və Xocavənd kəndinin hər birinə 6 ailə olmaqla, 68 nəfər köçüb.**

Köçürülən sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb, yollar abadlaşdırılıb, evlər və infrastruktur bərpa edilib.

Keçmiş məcburi köçkünlər onlar üçün yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, torpaqlarımızı işğaldan azad edən şəhidlərimizə rəhmət diləyib, qazilərimizə isə cansağlığı arzulayıblar.

*XQ*




**Mayın 12-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Sədr Sahibə Qafarova iclasda mühüm tarixi ildönümləri və beynəlxalq təmaslara dair çıxış etdi. Spiker çıxışında mayın 10-da ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə bağlı ümummilli liderin müasir Azərbaycan dövlətçiliyinin qurulmasındakı misilsiz xidmətlərindən bəhs etdi.**

# Azərbaycanda axtarılan cinayətkarlar haralarda gizləniblər?

## *İnsan alverinə qarşı mübarizə üzrə illik hesabatın müdhiş mənzərəsi*

Sahibə Qafarova çıxışında, həmçinin faşizm üzərində Qələbənin 81-ci ildönümünə toxunaraq, Azərbaycanın İkinci Dünya müharibəsindəki həlledici rolunu bir daha diqqətə çatdırdı. O, dövlətin müharibə veteranlarına göstərdiyi diqqəti xüsusi qeyd edərək, həyatını itirənlərin xatirəsinə ehtiramını dilə gətirdi. Parlamentin fəaliyyətinin beynəlxalq müstəvidəki uğurları barədə də məlumat verən Milli Məclis sədri mayın 6-dan 8-dək Monteneqroya işgüzar səfəri və onun nəticələrindən söz açdı.



Sonra cari məsələlər ətrafında müzakirələr aparıldı. Deputat Vüqar Bayramov bildirdi ki, Azərbaycan Zəfərdən keçən qısa müddətdə işğaldan azad olunan ərazilərə yalnız dövlət büdcəsindən 23 milyard manatdan çox vəsait ayıran və 85 minə yaxın vətəndaşımızın həmin ərazilərimizdə məskunlaşmasını, işləməsini və təhsil almasını təmin edən dövlətdir: “Bugünkü Azərbaycan son 4 ildə yalnız Avropaya 57 milyard kubmetrdən çox qaz nəql edərək 16 ölkənin enerji təhlükəsizliyin töhfə verən dövlətdir. Son 30 ildə iqtisadiyyatına 300 milyard dollardan çox xarici sərmayə cəlb edən Azərbaycanda yalnız son 6 ildə 3 milyondan çox vətəndaşı əhatə edən 5 sosial paket reallaşdırılıb”.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, deputat Nizami Səfərov son dövrlər bir sıra anti-Azərbaycan dairələrində ölkəmizlə Ermənistan arasında gedən sülh prosesinə qısqanc yanaşmadan danışdı. “Siyasi, hüquqi və diplomatik müstəvidə Azərbaycan tərəfi dəfələrlə beynəlxalq birliyə çatdırıb ki, daha “Dağlıq Qarabağ” deyilən bölgə mövcud deyil və Azərbaycanın suveren ərazisi olan Qarabağ iqtisadi rayonunun bu terminlə təsvir olunması qəbuledilməzdir”. Deputat onu da diqqətə çatdırdı ki, Azərbaycan ərazilərində yerləşən bütün tarixi və dini abidələr milli-mədəni irsimizə aiddir, mənşəyindən, dünyəvi və ya dini mənsubiyyətindən asılı olmayaraq onlar etibarlı formada qorunur və heç bir xarici qüvvə dövlətimizin suveren səlahiyyətlərinə aid məsələlərə müdaxilə edə bilməz.

Çıxışlardan sonra gündəlikdəki məsələlər müzakirə edildi. İlk olaraq, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair hesabatı təqdim olundu. Məlumatı daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov səsləndirdi. Bildirildi ki, 2025-ci ildə insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən kompleks tədbirlər nəticəsində bir sıra mühüm göstəricilər əldə olunub. Hesabat dövründə görülən işlərin statistik mənzərəsi aşağıdakı kimidir:

Məşğulluq və əmək münasibətlərinə nəzarət sahəsində 18,368 nəfər Dövlət Məşğulluq Agentliyinin peşə hazırlığı kurslarına cəlb edilmiş, tikinti obyektlərində keçirilən 39 səyyar yoxlama zamanı 1.047 işçidən rəsmi qeydiyyatı olmayan 75-i aşkarlanıb. Nəticədə 1 işəgötürən barəsində materiallar Baş Prokurorluğa göndərilib, 18-i isə 92,200 manat cərimə edilib. Eyni zamanda, reydlər zamanı nəzarətsiz qalan 936 uşaq və buna şərait yaradan 511 valideyn müəyyən olunaraq aidiyyəti orqanlara 510 material göndərilib, 32 valideyn inzibati məsuliyyətə cəlb edilərək polis nəzarətinə götürülüb.

İnsan alveri ilə mübarizə çərçivəsində 198 (-8) cinayət faktı (o cümlədən 152 (-9) insan alveri, 45 (+1) sənəd qanunsuzluğu) qeydə alınb, bunların 97 faizi açılıb və 6 nəfərdən ibarət 2 cinayətkar qrup zərərsizləşdirilib. Bu əməllər üzrə 10 (-5) cinayət işi başlanılıb, 10 şəxs (9-u qadın) təqsirləndirilən qismində cəlb edilib, 12 nəfər (11-i qadın) məhkəməyə verilib və 14 insan alverçisi (4 kişi, 10 qadın) azadlıqdan məhrum edilib. Axtarışda olan 31 (+1) nəfərdən 15-i (-1) tutulub, hazırda 10 (-1) şəxsin (7-si Türkiyə, 1-i Pakistan, 1-i Rusiya, 1-i BƏƏ) beynəlxalq axtarışı davam edir.

Qurbanların müdafiəsi və reabilitasiyası istiqamətində müəyyən edilmiş 46 (-45) nəfərin (hamısı qadın; 33-ü Türkiyə, 10-u BƏƏ, 3-ü Pakistanda istismara məruz qalanlar; 4-ü 18-25, 28-i 25-35, 14-ü 35+ yaşlı) hər birinə 700 manat birdəfəlik müavinət ödənilib, onlar sığınacaqlara yerləşdirilərək tibbi və hüquqi yardımla təmin olunub. Qurbanlardan 16-sı peşə kursuna, 9-u işə, 11-i sosial yardıma yönəldilib, 23-ü ailəsinə qaytarılıb, həmçinin 45 nəfərə müxtəlif QHT-lər tərəfindən sosial xidmətlər göstərilib. Onların uşaqlarından 11-i tədris ləvazimatı, 5-i təhsil proqramı, 11-i sənədləşmə, 8-i isə alimentlə təmin edilib.

Sonda illik hesabat səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edildi.

*

Daha sonra gündəlikdəki digər məsələ olan “Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında” qanun layihəsi müzakirəyə çıxarıldı. Layihəyə əsasən, Qubanın Vladimirovka kənd inzibati ərazi dairəsinin tərkibindəki Vladimirovka kəndi Elbir kəndi adlandırılacaq. Vladimirovka kənd inzibati ərazi dairəsi isə Elbir kənd inzibati ərazi dairəsi hesab ediləcək. Həmçinin sənəddə qeyd edilib ki, rayonun Alekseyevka kənd inzibati ərazi dairəsi tərkibindəki Alekseyevka kəndi Çinarlı kəndi, Timiryazev kəndi Bəhrəli kəndi adlandırılacaq. Alekseyevka kənd inzibati ərazi dairəsi isə Çinarlı kənd inzibati ərazi dairəsi hesab ediləcək. Bildirildi ki, Qubanın kəndlərinin adlarının dəyişdirilməsi Milli Məclisin Toponimiya komissiyasının tövsiyəsi ilə hazırlanıb. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə qoyularaq bir oxunuşda qəbul edildi.

“Yaşıllıqların mühafizəsi haqqında” qanuna təklif edilən dəyişikliklər də birinci oxunuşdan keçdi. Yeni qaydalara görə, əkin və çoxillik əkmələr altındakı kənd təsərrüfatı torpaqlarında kol, gül-çiçək və ot bitkilərinin kəsilməsinə görə artıq bərpa dəyəri ödənilməyəcək. Sənəddə ağac və kol anlayışları dəqiqləşdirilərək, kolların kəsilməsi üçün xüsusi məlumatlandırma icraatı müəyyən edildi. Bu prosedura əsasən, ərizəçi informasiya sistemi vasitəsilə müvafiq sənədləri və fotoşəkilləri təqdim etməli, dövlət qurumu tərəfindən 10 təqvim günü müddətində əsaslandırılmış irad bildirilmədikdə kəsimi həyata keçirə bilər. Qanun layihəsində həmçinin yalan və ya təhrif olunmuş məlumatların verilməsi qəti qadağan edilir.

“Diplomatik xidmət haqqında” qanuna təklif edilən yeniliklərə əsasən, müddətli hərbi xidmətə çağırılan diplomatik xidmət əməkdaşlarına orta aylıq məvaciblərinin 3 misli miqdarında müavinət ödəniləcək, hərbi xidmətdən buraxıldıqdan sonra 60 gün ərzində müraciət edənlər isə əvvəlki və ya analoji vəzifələrinə bərpa olunacaqlar. Əməkdaş vəfat etdikdə və ya məhkəmə tərəfindən itkin düşmüş və ya ölmüş elan edildikdə, onun vərəsələrinə məvacibinin 4 misli həcmində müavinət veriləcək. Həmçinin dövlət məvacibinin strukturu yenidən müəyyən edilərək vəzifə maaşı, diplomatik rütbə, təmsilçilik, əlavə iş saatları və xüsusi əmək şəraiti ilə bağlı digər əlavələrdən ibarət olacaq. Qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

Gündəlikdəki digər qanun layihələrinin də müvafiq oxunuşlarda qəbul edilməsindən sonra Milli Məclisin plenar iclası işini yekunlaşdırdı.

***Tacir SADIQOV***
***XQ***

# Avropa ilə strateji tərəfdaşlıqdan hərbi əməkdaşlığa

## *Azərbaycanın müdafiə strategiyasının coğrafiyası genişlənir*

**Azərbaycan hazırda dünyanın 40-a yaxın ölkəsi ilə ikitərəfli əsasda hərbi əməkdaşlıq etsə də, onların arasında Türkiyə, Pakistan, İsrail, Rusiya və İtaliya kimi dövlətlər xüsusi yer tutur. Bu əlaqələr birgə hərbi təlimlər, müdafiə sənayesi layihələri, silah tədarükü və peşəkar kadr hazırlığı kimi sahələri əhatə edir. Hərbi və hərbi-texniki əməkdaşlıq ölkəmizin milli təhlükəsizlik siyasətinin əsas istiqamətlərindən biri hesab olunur.**

Hərbi və hərbi-texniki sahədə əməkdaşlıq etdiyimiz ölkələrin coğrafiyasının getdikcə genişlənməsi, əlbəttə, müsbət haldır. Belə ölkələrdən biri də Slovakiya Respublikasıdır. Mayın 11-də müdafiə naziri, general-polkovnik Zakir Həsənov adıçəkilən ölkəyə rəsmi səfər edib. Səfər Slovakiya Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinakın dəvəti əsasında həyata keçirilib. Müdafiə Nazirliyinin yaydığı məlumata görə, Z.Həsənovun slovakiyalı həmkarı Robert Kalinakla görüşündə Azərbaycanla Slovakiya arasında hərbi əməkdaşlığın cari vəziyyəti barədə ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb. Tərəflər, həmçinin hərbi, hərbi-texniki əməkdaşlıqların inkişaf perspektivlərini müzakirə ediblər.



* * *

Qeyd etmək yerinə düşər ki, Slovakiya Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 24-də tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər isə bundan 22 ay sonra – 1993-cü il noyabrın 23-də qurulub. Slovakiyanın Azərbaycandakı səfirliyi 2019-cu il oktyabrın 1-dən fəaliyyət göstərir. 2023-cü il iyulun 14-də isə Azərbaycanın Slovakiyada səfirliyi təsis olunub. Slovakiyanın Baş naziri Robert Fitsonun 2024-cü il mayın 6-7-də Azərbaycana etdiyi rəsmi səfər isə Bakı–Bratislava əlaqələrində dönüş anı hesab olunur. Həmin səfər zamanı Prezident İlham Əliyev və Baş nazir Robert Fitsonun təkbətək və geniş tərkibdə görüşü keçirilmiş, 3 sənəd imzalanmış, Azərbaycan Prezidenti və Slovakiya Baş naziri mətbuata bəyanatlarla çıxış etmişdilər. İmzalanan sənədlərə gəldikdə isə bunlardan birincisi "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə" idi. Həmin sənəd iki ölkənin münasibətlərini faktiki olaraq strateji tərəfdaşlıq səviyyəsinə qaldırdı. Prezident İlham Əliyevin imzalanma mərasimindən sonra mətbuata birgə bəyanat zamanı söylədiyi bu fikirlər diqqəti cəlb edir: "Bu gün Slovakiya-Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür. Hörmətli cənab Baş nazir Azərbaycana səfər edir və səfər çərçivəsində strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu, çox ciddi siyasi sənəddir və bizim əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran sənəddir. Strateji tərəfdaşlıq Bəyannaməsində əks olunan maddələr bizim niyyətimizi əks etdirir, eyni zamanda, gələcək əməkdaşlığın perspektivlərini də müəyyən edir. Hesab edirəm ki, bu gün Slovakiya–Azərbaycan əlaqələrində yeni səhifə açılır və ümid edirəm, bizim müştərək yolumuz çox uğurlu olacaq".

Həmin gün imzalanmış ikinci sənəd "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında hərbi-texniki əməkdaşlıq sahəsində Anlaşma Memorandumu", üçüncü isə "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" idi. Sonuncu sənədlərə Azərbaycan tərəfdən müdafiə sənayesi naziri Vüqar Mustafayev, müdafiə naziri Zakir Həsənov, Slovakiya tərəfdən isə Baş nazirin müavini, müdafiə naziri Robert Kalinak dərkənar qoymuşdu.

Dövlətimizin başçısı bununla bağlı demişdir: "Bildiyiniz kimi, bu gün imzalanan sənədlər arasında, müdafiə və müdafiə sənayesi sahələrinə aid sənədlər var. Bu iki istiqamət üzrə geniş fikir mübadiləsi aparılmışdır və müdafiə sənayesi sahəsində birgə istehsal sahələrinin yaradılması haqqında da artıq konkret danışıqlara da start verilmişdir".

Baş nazir Fitso isə Azərbaycanla əməkdaşlığa, xüsusilə hərbi sahədə əməkdaşlığa böyük önəm verdiklərini, bunu yüksək qiymətləndirdiklərini vurğulamışdı. Qeyd etmişdi ki, Azərbaycanda birgə istehsal sahələrinin yaradılması fikri hər kəs üçün cəlbedici olmalıdır: "Biz bunun müəyyən detallarını artıq müzakirə etdik və bizim Baş nazirin müavini, müdafiə naziri cənab Kalinak bu sahədə də çox böyük fəallıq göstərir. O da əlindən gələni edəcək ki, bu layihələr uğurlu olsun. Söhbət Slovakiyanın xaricindəki istehsal sahələrindən gedir".

Slovakiyanın Azərbaycanla hərbi və hərbi-texniki sahədə əməkdaşlıqda maraqlı olduğunu göstərən digər fikir ölkənin Prezidenti Peter Pelleqriniyə məxsusdur. O, Prezident İlham Əliyevin 2025-ci il dekabrın 8-də Bratislavaya etdiyi rəsmi səfər zamanı mətbuata birgə bəyanatla çıxış edərkən bildirmişdir: "Biz, sadəcə olaraq, Azərbaycana silah satmaq niyyətində deyilik. Bildiyiniz kimi, bu sahə Slovakiyada çox inkişaf edib. Biz özüyeriyən artilleriya qurğuları, sursat və digər məhsullar sahəsində də böyük təcrübəyə malikik. Biz Azərbaycanla texnologiya ötürülməsi, Azərbaycanın maliyyəsindən istifadə edilməsi və birgə istehsalın üzərində işləyə və birlikdə istehsal etdiyimiz məhsulları üçüncü ölkələrə sata bilərik. Mən şadam ki, bizim Baş nazirin müavini və müdafiə naziri cənab Kalinakın səfəri zamanı da Azərbaycan tərəfi avtomatik artilleriya sistemlərinin alışı ilə maraqlanıb və artıq niyyətini bildirib".

Göründüyü kimi, müdafiə naziri Zakir Həsənovun hazırkı səfəri dövlət başçılarının əldə etdikləri razılaşmaların icrası məqsədi daşıyır. Bu baxımdan Bratislavada keçirilən görüşlər Azərbaycan–Slovakiya münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Xüsusilə müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlığın genişləndirilməsi iki ölkənin strateji tərəfdaşlıq niyyətinin praktiki nəticələrə yönəldiyini təsdiqləyir. Slovakiyanın hərbi sənaye potensialı, artilleriya sistemləri və hərbi texnologiyalar sahəsində təcrübəsi Azərbaycan üçün maraq doğurur. Bakı isə, öz növbəsində, regional təhlükəsizlikdə mühüm rol oynayan, müasir ordu quruculuğu həyata keçirən etibarlı tərəfdaş kimi çıxış edir. Tərəflər arasında birgə istehsal müəssisələrinin yaradılması perspektivi əməkdaşlığı yeni mərhələyə daşıya bilər. Bu, həm Azərbaycanın müdafiə sənayesinin inkişafına, həm də texnologiya transferinə əlavə imkanlar açır. Eyni zamanda, Slovakiya ilə əlaqələrin dərinləşdirilməsi Azərbaycanın Avropa məkanında hərbi tərəfdaşlıq coğrafiyasını daha da genişləndirir.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanovun** fikrincə, Azərbaycan–Slovakiya əməkdaşlığı təkcə silah alışı ilə məhdudlaşmır və daha geniş strateji məzmun daşıyır. Onun sözlərinə görə, Slovakiya NATO üzvü kimi müasir müdafiə sənayesi imkanlarına malikdir və bu potensialın Azərbaycanla paylaşılması qarşılıqlı maraqlara xidmət edir: "Xüsusilə birgə istehsal və texnologiya transferi məsələlərinin gündəmə gəlməsi mühüm əhəmiyyət daşıyır. Bu yanaşma Azərbaycanın yerli müdafiə sənayesinin inkişafına, yeni texnologiyaların mənimsənilməsinə və ixrac imkanlarının genişlənməsinə töhfə verə bilər".



Ş.Ramaldanov hesab edir ki, son illər Azərbaycanın müdafiə sahəsində çoxtərəfli əməkdaşlıq siyasəti ölkəmizin hərbi imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Slovakiya ilə münasibətlərin inkişafı da həmin strategiyanın tərkib hissəsidir. Bu əməkdaşlıq Avropa müdafiə sənayesi ilə inteqrasiyanı gücləndirməklə yanaşı, Azərbaycanın təhlükəsizlik sahəsində yeni tərəfdaşlar qazanmasına şərait yaradır.

***S.NAZİMOĞLU***
***XQ***

# Simonyanın siyasi etirafları

## *Parlament sədri Qarabağ avantürasını Ermənistana qurulmuş tələ adlandırdı*

**Ermənistan Milli Assambleyasının sədri Alen Simonyan "Alman dalğa"sı ("Deutsche Welle") teleradiosuna geniş müsahibə verib. Jurnalist Konstantin Eqqertin müəllif proqramına danışan Simonyan ölkəsinin xarici siyasət prioritetləri, Avropa İttifaqına (Aİ) inteqrasiya perspektivləri, Rusiya ilə münasibətləri, ölkənin inkişafında Qərbin yeni rolu, "Tramp marşrutu", Azərbaycan və Türkiyə ilə normallaşma prosesi, eləcə də regionun gələcəyi ilə bağlı diqqətçəkən açıqlamalar verib.**

İrəvanda keçirilən Aİ–Ermənistan sammiti çərçivəsində danışan Simonyan bildirib ki, Ermənistan artıq Avropa istiqamətində strateji seçim edib. Onun sözlərinə görə, ölkəsi Aİ üzvlüyünə namizəd statusu almaq üçün lazım olan əsas meyarlara görə Moldova, Ukrayna və Gürcüstan kimi ölkələrdən geri qalmır. Bununla belə, o vurğulayıb ki, Aİ-yə üzvlük uzunmüddətli prosesdir və Ermənistan bu istiqamətdə qanunvericilik, iqtisadiyyat və idarəetmə sahəsində islahatları davam etdirməlidir.

Simonyan xüsusilə iqtisadi şaxələndirmənin vacibliyini qeyd edib. O xatırladıb ki, Ermənistan hazırda Avrasiya İqtisadi İttifaqı və Gömrük İttifaqının üzvüdür. Buna görə də İrəvan həm Rusiya ilə iqtisadi əməkdaşlığı qorumağa, həm də Avropa ilə inteqrasiyanı paralel şəkildə inkişaf etdirməyə çalışır. Parlament sədri hesab edir ki, bəzi qüvvələr Ermənistan və digər postsovet ölkələrinin Avropa istiqamətində hərəkətinə mane olmaq üçün cəmiyyətdə həssas mövzulardan istifadə edir və emosiyalar üzərində oynayırlar. Rusiya ilə münasibətlərə toxunan Simonyan bildirib ki, Moskvanın bölgədə öz maraqları var və bunu gizlətmir. O qeyd edib ki, böyük dövlətlərin regionda təsir dairələri uğrunda rəqabəti təbiidir və Ermənistan da bu şəraitdə öz maraqlarını qorumağa çalışır. Onun sözlərinə görə, Ermənistan Rusiya ilə münasibətləri tamamilə pozmaq niyyətində deyil. Simonyan hesab edir ki, qaz qiymətləri və iqtisadi təzyiqlər mövzusu siyasi danışıqların bir hissəsidir və İrəvanın Moskva ilə problemlərin həlli sahəsində kifayət qədər təcrübəsi var.

Rusiya hərbi bazasının gələcəyi barədə danışan parlament sədri bildirib ki, baza mövcud müqavilənin müddəti bitənədək Ermənistanda qalacaq. O vurğulayıb ki, hazırda bazanın bağlanması məsələsi gündəmdə deyil. Simonyan NATO məsələsinə də münasibət bildirib və qeyd edib ki, Ermənistan hansısa hərbi blokun üzvü olmamalıdır. Onun fikrincə, ölkənin coğrafi mövqeyi və təhlükəsizlik reallıqları neytral siyasəti daha məqsədəuyğun edir: "Mən hesab etmirəm ki, Ermənistan hansısa hərbi blokun üzvü olmalıdır. Ölkəmizin yerləşdiyi coğrafi mövqeyi və imkanlarını nəzərə alsaq, Ermənistanın rolu neytral olmaqdır. Ermənistan kiçik ölkədir və həm bir tərəf, həm də digər tərəf üçün bazarlıq predmetinə çevrilə bilər. Mən istəmirəm ki, ölkəm nə Rusiya, nə Brüssel, nə ABŞ, nə də hər hansı başqa qüvvə üçün sövdələşmə vasitəsinə çevrilsin. Ermənistan İran, Azərbaycan, Türkiyə və Gürcüstanla qonşudur, dörd tərəfdən qapalıdır və dənizə çıxışı yoxdur. Tariximiz bizə çox şey öyrədib. Biz keçmişdə etdiyimiz səhvləri təkrarlamamalıyıq".



Jurnalistin "söhbət hansı səhvlərdən gedir" sualına cavab olaraq Simonyan deyib: "Biz keçmişlə yaşayırdıq, keçmişi geri qaytarmağa çalışırdıq və gələcək haqqında düşünmürdük. Gələcəyimizi keçmişdən gələn hekayələr, təsəvvürlər və tarix üzərində qururduq. Biz 1991-ci ildə dövlət müstəqilliyimizi bərpa etdik. Və ilk gündən xəyal edirdik ki, müstəqil Ermənistan iki dəfə böyük olmalıdır. Bu isə müasir dünyada mövcud olmaq istəyən ölkə üçün düzgün yanaşma deyildi. Belə bir düşüncə vardı ki, müstəqillik əldə etmiş Ermənistanın sərhədləri daimi deyil, bu yalnız keçid mərhələsidir və biz vaxtilə Ermənistana məxsus olmuş torpaqları geri qaytaracağıq. Və bu axtarışların içində biz az qala 1991-ci ildə müstəqillik qazanmış real Ermənistanı itirəcəkdik".

Bu kontekstdə o, Qarabağ məsələsinə də toxunub və bəyan edib ki, "Qarabağ hərəkatının səhifəsi bağlanıb". Simonyan hesab edir ki, Qarabağ məsələsi region dövlətlərini xarici güclərdən asılı vəziyyətdə saxlamaq üçün istifadə olunurdu: "Qarabağ məsələsi müstəqil Ermənistan üçün qurulmuş bir tələ idi ki, Ermənistan heç vaxt tam müstəqil ola bilməsin, eyni zamanda Azərbaycan da eyni dərəcədə asılı vəziyyətdə qalsın və bölgədə təsir rıçaqları saxlanılsın. Biz bunu artıq bəyan etmişik: Qarabağ hərəkatının səhifəsi bağlanıb və bu məsələyə bir daha qayıtmamalıyıq. Yeganə düzgün yol budur".

O bildirib ki, Ermənistan və Azərbaycan arasında münasibətlər artıq imzalanmış sənədlərdən daha irəli mərhələyə keçib və hər iki tərəf daha böyük addımlara hazırdırlar. ABŞ-ın dəstəklədiyi regional nəqliyyat layihələrindən danışan Simonyan qeyd edib ki, Ermənistan ərazisindən keçəcək yeni marşrut yalnız Azərbaycan üçün deyil, Xəzərin o tayındakı ölkələr üçün də strateji əhəmiyyət daşıyır. O bu layihəni region üçün mühüm iqtisadi və geosiyasi imkan adlandırıb.

Türkiyə ilə münasibətlərə toxunan Simonyan bildirib ki, Ermənistan artıq keçmişlə yaşamaq siyasətindən uzaqlaşmalıdır. Onun sözlərinə görə, İrəvan Ankara ilə münasibətlərin normallaşmasını və sərhədlərin açılmasını istəyir. Parlament sədri qeyd edib ki, Qarabağ məsələsinin bağlandığı elan olunduğu halda Türkiyənin sərhədi qapalı saxlaması məntiqsiz görünür. O hesab edir ki, Ermənistan–Türkiyə sərhədi yaxın gələcəkdə açıla bilər: "Biz Ermənistanla Türkiyə arasında sərhədlərin açılmasını gözləyirik. Düşünürəm ki, bu, yaxın vaxtlarda baş verəcək. Çünki artıq bütün məsələlər müzakirə olunub və sadəcə bunu reallaşdırmaq qalır. Sərhəd Qarabağ məsələsinə görə bağlanmışdı. İndi isə həm Türkiyə, həm də Azərbaycan bəyan edir ki, Qarabağ məsələsi bağlanıb. Azərbaycan Ermənistanla ticarət edir, amma Türkiyə sərhədi bağlı saxlayır. Lakin bu, uzun çəkməyəcək".

* * *

A.Simonyanın səsləndirdiyi fikirlər Ermənistan siyasi düşüncəsində son illərin ən açıq etiraflarından biri kimi qiymətləndirilə bilər. Ermənistan parlamentinin sədri faktiki olaraq illərlə ölkəsini yanlış istiqamətə aparan ideoloji xəttin iflasa uğradığını qəbul edir. Onun "tarixi torpaqların qaytarılması" ideyasını səhv yanaşma adlandırması, Qarabağ hərəkatı səhifəsinin bağlandığını bəyan etməsi və Ermənistanın keçmişlə deyil, gələcəklə yaşamalı olduğunu söyləməsi təsadüfi açıqlamalar deyil. Bu, regionda formalaşmış yeni siyasi və geosiyasi reallığın qəbul edilməsidir. Əslində, Simonyanın dedikləri 2020-ci ildə Vətən müharibəsində qazandığımız tarixi qələbənin və 2023-cü ildə suverenliyimizin tam bərpa edilməsinin yaratdığı nəticələrin siyasi etirafıdır.

Rəsmi Bakı uzun illər davam edən işğala son qoymaqla regionda yeni güc balansı formalaşdırdı. Məhz bu reallıq Ermənistanı illərlə üzərində siyasət qurduğu miflərdən və xəyali gündəmdən uzaqlaşmağa məcbur etdi. Ermənistan rəhbərliyi artıq anlayır ki, Qarabağ məsələsi ölkəni inkişafdan, regional layihələrdən və təhlükəsiz gələcəkdən uzaq salıb. Simonyanın Qarabağ məsələsini Ermənistan üçün qurulmuş tələ kimi təqdim etməsi də əslində, keçmiş siyasətin ağır nəticələrinin etirafıdır. İrəvan indi başa düşür ki, regionda davamlı sabitlik yalnız Azərbaycanın ərazi bütövlüyünün qəbul edilməsi və qonşularla normal münasibətlər qurulması fonunda mümkündür. Bu baxımdan Türkiyə ilə münasibətlərin normallaşdırılması barədə səsləndirilən fikirlər də diqqət çəkir. Ermənistan artıq anlayır ki, qapalı sərhədlər və regional təcrid siyasəti, ilk növbədə, onun öz maraqlarına zərbə vurur.

Simonyanın açıqlamalarının digər mühüm tərəfi Ermənistan daxilində revanşist qüvvələrə verilən mesajdır. Son dövrlər keçmiş hakimiyyətə bağlı siyasi dairələr yenidən fəallaşmağa, cəmiyyətdə revanşist əhval-ruhiyyəni gücləndirməyə çalışırlar. Onlar hələ də köhnə iddialar, tarixi miflər və qarşıdurma siyasəti üzərindən hakimiyyətə qayıtmağa ümid edirlər. Lakin Ermənistan rəhbərliyinin bu cür açıq bəyanatları göstərir ki, ölkədə ən azı hakim siyasi komanda səviyyəsində əvvəlki siyasətin iflasa uğradığı artıq qəbul olunur. Bu mesaj həm də Ermənistan cəmiyyətinə ünvanlanıb. Regionda yaranmış yeni reallıq dəyişməyəcək. Azərbaycan hərbi, siyasi və diplomatik müstəvidə öz məqsədlərinə nail olub və bölgədə yeni reallıq formalaşdırıb. Bu baxımdan Simonyanın açıqlamaları, sadəcə, siyasi müsahibə deyil, həm də Ermənistanın yeni mərhələyə keçid etməyə məcbur qaldığını göstərən mühüm siyasi etiraf kimi qiymətləndirilə bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Zəngilandan erməni elektoratına günün mesajları

## *Prezident İlham Əliyevin Ermənistana növbəti sülh çağırışı*

**Prezident İlham Əliyev mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə Ermənistana, daha doğrusu, bütövlükdə erməni xalqına son dərəcə vacib mesaj ünvanladı. Hesab edirik ki, bu mesaj gələn ay parlament seçkilərində səs verəcək hay elektoratı üçün müstəsna əhəmiyyət daşıyır. Dövlətimizin başçısının konkret nəyi bildirdiyinə və onun bəyanatından irəli gələn nəticələrə nəzər salacağıq. Hələlik isə...**

Prezident İlham Əliyev çıxışının Ermənistanla əlaqəli hissəsində vurğunu sülhün üzərinə qoydu və barış mühitinin müəllifinin məhz ölkəmiz olduğunu önə çəkdi. Yada salaq ki, Azərbaycan dövləti istər 2020-ci ilin 44 günlük müharibəsindən, istərsə də 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən sonra Ermənistana və erməni xalqına barış əlini uzatdı. Bu, dünyada analoqu olmayan nümunədir. Nəzərə alaq ki, beynəlxalq aləmdə güclülərin sülh təklifi hallarına az rast gəlinir. Tarixdə də bunun örnəkləri çox deyil.

Azərbaycan müharibə apardığı qonşusundan dəfələrlə güclü idi. Ölkəmiz təkcə Ermənistanı yox, onun havadarlarını da zərərsizləşdirdi, ikincilərin hay təəssübkeşliyindən qaynaqlanmış hərəkət və davranışlarını pozdu. "Əmması" isə budur: Ermənistanın havadarları, Prezident İlham Əliyevin təbirincə desək, "özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi. Hamısı cəfəngiyyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə".

Əlbəttə, Ermənistanın hazırkı iqtidarının Azərbaycanla sülh gündəliyi aydındır. Baş nazir Nikol Paşinyan ötən həftə rəsmi startı verilən seçki kampaniyasının ilk günündən barış şüarları səsləndirir və elektoratı dinclik və əmin-amanlığa dəstək göstərməyə səsləyir. Ümumən, Paşinyanın hakim komandasının seçki kampaniyasını sülh amili üzərində qurduğu, Azərbaycanla ziddiyyət tərəfdarlarına ideoloji cəbhə açdığı gün kimi aydındır. Amma Ermənistandakı revanşist və şovinist kəsimin cəmiyyətə, sadə ermənilərə təsir imkanları aktuallığını qoruyur. Məhz buna görə




Prezident İlham Əliyevin indi diqqətə çatdıracağımız mesajının əhəmiyyəti çox böyükdür: "Ancaq biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq".

Bəli, erməni iqtidarı vətəndaşların iyunun 7-də keçiriləcək parlament seçkilərində barışla savaşın, sülhlə müharibənin arasında seçim edəcəyini vurğulayır. Mövcud məqamı Paşinyan, hətta, seçkidən əvvəl də dilə gətirmiş və fikrini yetərincə əsaslandırmışdı. Hərçənd, nəyisə izah etməyə ehtiyac yoxdur. Necə deyərlər, görünən kəndə nə bələdçi?

Paşinyan hakimiyyətinə müxalif revanşist və şovinist kəsim hazırkı sülh şərtlərinin ədalətsizliyi ritorikasını qabardır, həmçinin erməni cəmiyyətini rüsvayçı kimi təqdim etdiyi şərtlərlə barışmamağa çağırır. Əks düşərgənin təmsilçiləri hətta hakimiyyətə gələcəkləri təqdirdə görəcəkləri ilk işin davam etməkdə olan barış prosesini pozmaq olduğunu deyirlər. Erməni xalqı isə məşəqqətlərdən, əzab-ziyyətdən, ümumən, müharibə dəhşətlərindən bezib. Hesab edirik ki, Prezident İlham Əliyevin bir qədər əvvəl diqqətə çatdırdığımız fikri sadə ermənilərdə motivasiya formalaşdırmalı, onlar sülhə meydan oxuyanları ölkənin siyasi səhnəsindən birdəfəlik silməlidirlər.

Güclü, sülh tərəfdarı olan Azərbaycan erməni xalqının barışa doğru şüurlu şəkildə addımlamasının tərəfdarıdır. Əlbəttə, hər bir erməni sakininin qohumunun, doğmasının və ya özünün yaşanmış iki müharibədə zərər gördüyünü deyə bilərik. Yəni yaralar hələ qaysaq bağlamayıb. Elə Azərbaycan cəmiyyəti də ermənilərlə qol-boyun olmağa həvəsli deyil. Amma nədənsə və necəsə başlamaq lazımdır. Əbədi düşmənçilik heç bir xalqa xeyir gətirməyib.

Eyni zamanda, nəzərə alınmalıdır ki, savaşı, ixtilafı başladan Azərbaycan olmamışdı. Sünikdə seçicilər qarşısındakı çıxışında vurğuladı. O, Qarabağ hərəkatının səmərə vermədiyini, əksinə, xalqı zülmə və zillətə sürükləyən avantüra mahiyyəti daşıdığını açıqladı. "1988-ci ildə Qarabağı Ermənistana birləşdirmək hərəkatına başlamaq qərarı səhv olub. Bu hərəkatla bağlı amillər Ermənistan dövlətinin inkişafını ləngitmək məqsədi ilə istifadə edilib. Etiraf etməliyik ki, Qarabağ hərəkatı bizim üçün böyük səhv idi", - deyən hökumət rəhbəri ərazilərin itirilməsi ilə bağlı hay müxalifətinin iddialarını da cavablandırıb: "Ermənistan torpaqları heç vaxt itirməyib. Çünki torpaqlar heç vaxt Ermənistana məxsus olmayıb. Biz həmişə özümüzü ağıllı xalq adlandırırıq. Amma 80-ci illərin sonlarında avantüristlərə necə inandıq? Bizdən 3 dəfə böyük olan və hər zaman bizə yaxşı münasibət göstərən qonşu ölkənin durub öz torpağını bizə verəcəyinə necə əmin ola bilərdik? Bu 38 ildə nəyə nail olduq? Biz bir qarış belə torpaq əldə etmədik. Əvəzində isə mənasız yerə bu qədər insanın həyatını itirdik. Üstəlik, iqtisadiyyatı da dağıtdıq".

Bəli, hazırda Ermənistanda hakim komandaya zidd mövqe tutanlar cəfəngiyyatı ölkə üçün prioritet sayanlardır. Onların kimin, yaxud kimlərin əli ilə hərəkətə keçdiklərini söyləmək üçün çox düşünməyə gərək yoxdur. Məlumdur ki, parlament seçkiləri yaxınlaşdıqca, Ermənistana, obrazlı desək, Şimaldan soyuq hava axını daha güclü daxil olmağa çalışacaq.

Əlqərəz, erməni xalqı iyunun 7-də ölkəyə Şimal küləklərinin əsdiyi bütün dəlmə-deşikləri möhkəm tutmalıdır. Möhkəm tutmalıdır ki, sülh "soyuqlamasın", siyasi xəstələr onu özlərinin əcayib mərəzləri ilə yoluxdurmasınlar. Güclü, barış tərəfdarı olan Azərbaycanın istəyi məhz budur. Elə Prezident İlham Əliyev də Zəngilan sakinləri ilə görüşündə mövcud məqamı vurğuladı, azərbaycanlıları düşmən obrazında görməyin anlamsızlığını diqqətə çatdırdı. Ən başlıcası isə dövlətimizin başçısı erməni elektoratını azərbaycanlıları düşmən obrazında təqdim edənlərin sərsəm təbliğatlarına uymamağa, düşünməyə çağırdı: "Onlar Xocalı soyqırımını törətdilər. Biz isə onlar Qarabağdan Ermənistana gedəndə yolda polislər düzmüşdük ki, onlara çörək, su verək. Bax, fərq budur. Mən indi daha dərinə getmək istəmirəm, hər bir xalqda yaxşı və pis nümayəndələr var. Amma bütövlükdə götürəndə budur fərq. Zəngilanı yerlə-yeksan edən təkcə Ermənistan rəhbərləri deyildi, təkcə Qarabağ separatçıları deyildi. Deməli olar ki, onların bütün əhalisi kütləvi surətdə gəlib talançılıqla məşğul idi. Hətta deyirdilər ki, gedirik talana. Yəni bu, onlarda bir qayda, normal davranış idi. Yəni vəhşilik normal bir davranış idi - kim nə qədər çox daş oğurladı, kim nə qədər çərçivə çıxartdı, kim nə qədər dam örtüyü söküb. Sonra aparıb həm İran, həm də Ermənistan bazarlarında satırdılar. Bax, fərq budur. Biz bunu edə bilərik? Bizim insanların heç ağlına gəlməz belə".

Sonda vurğuladığımız məqama söykənərək, Prezident İlham Əliyevin Zəngilan sakinləri ilə görüş zamanı Ermənistanı və erməni xalqını sivil, mərd Azərbaycan xalqı və toplumu ilə sülh və əmin-amanlıq şəraitində ömür sürməyə səslədiyini deyə bilərik. Hesab edirik ki, dövlətimizin başçısının söylədiklərinin hay elektoratına təsiri böyükdür. Fikrimizin əlavə sübuta ehtiyacı yoxdur. Sübut son 8 ildə baş verənlər və yaşananlardır. Ermənistan vətəndaşları məhz yaxın keçmişi düşünüb gələcəyə baxmalı, sülhə yeni nəfəs gətirmək yolunda qətiyyətli davranmalıdırlar. Əslində, başqa yaşam və mövcudiyyət yolu yoxdur. Reallığın şüurlu şəkildə dərki nəinki vacib, hətta həyati əhəmiyyətli, tale-yüklüdür.

**Ə.CAHANGİROĞLU**
**XQ**

---

*Replika*

# Zaman "1-ci kanal"dakı kimi göstərmir

## *Yaxud "Dağlıq Qarabağ" sancısı ilə zarıyanlar barədə elegiya*

**Rusiya mediasında Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə saymazyana münasibət motivlərinə, bir növ, öyrəncəliyik. Amma hər şey elə bundan başlayır. İnam və etimadın zədələnməsi də, səmimi münasibətlərin və əlaqələrin korlanması da. Gunahkar isə həmişəki kimi biz deyilik. İlk daş(lar) Şimaldan atılıb. Tarix boyu belə olub. Söhbət həm də işğal tarixindən gedir. O tarixin ki, "Dağlıq Qarabağ" kimi yaddaşı var.**




Daşdan söz düşmüşkən, günahkar Rusiya və ölkənin nataraz ictimai rəyidir. Ancaq bu yazıda ənənəvi stereotipləri qabartmaq istəməzdik. Onsuz da Azərbaycan Xarici İşlər Nazirliyi Rusiyanın dövlət tribunası olan "1-ci" kanalda yayımlanmış "Zaman göstərər" ("Vremya pokajet") verilişində ölkəmizin təhrif olunmuş xəritəsinin nümayişinə, mövcud olmayan qondarma "Dağlıq Qarabağ" ifadəsinin yer almasına sərt münasibətini açıqladı və durumu ciddi təxribat və qəbuledilməz siyasi manipulyasiya kimi qiymətləndirdi.

Arayış üçün onu da bildirək ki, ölkəmizin baş diplomatiya idarəsinin mətbuat katibi Ayxan Hacızadə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətin, bunun heç zaman sual altına alınmadığının bəyan edildiyi Rusiyada dövlət televiziyasının kökənlmiş, saxta və separatizmi təşviq edən narrativləri tirajlamasının Bakı-Moskva münasibətlərinin ruhuna, qarşılıqlı hörmət və mehriban qonşuluq münasibətlərinə zidd mahiyyət daşıdığını da vurğulayıb: "Dövlətə məxsus media resurslarının məsuliyyətsiz və qərəzli yanaşması yolverilməzdir və qarşı tərəfdən bu məsələyə aydın izah verilməsi, eləcə də belə halların təkrarlanmaması üçün zəruri tədbirlərin görülməsi gözlənilir".

Məsələ ilə bağlı izahat veriləcəkmi, zəruri tədbirlər görüləcəkmi? İnanmırıq. Ola bilər, həm "1-ci" kanaldakılar, həm də Rusiya Xarici İşlər Nazirliyindəkilər Azərbaycanın sərt mövqeyindən sonra bir-birilərinin üzünə baxıb, sanki nəyin baş verdiyini bilməyən görkəm alıblar. Axı "Dağlıq Qarabağ" Rusiya üçün fərqli anlam daşıyan məkandır.

İşğal faktını təsadüfən vurğulamadıq. Bəli, "Dağlıq Qarabağ" rus imperializminin Cənubi Qafqaz üçün yazdığı və uzun müddət qüvvəsini saxlayan aqibətdir. "Dağlıq Qarabağ" bu imperializmin məkr, qan-qada, acılar və üzüntülər üzərində regionda qalmaq ssenarisidir. Elə bir ssenari ki, rus ictimai düşüncə sisteminin yaddaşından silinmir, bir növ, sağalmaz xəstəlik kimi canlarına hopub.

Yəni "1-ci" kanalın nümayişə çıxardığı xəritə yox, xəstəliyin özüdür. Telekanal bu xəstəliyin rəzil və miskin mənzərəsini canlandırdı. Yada salaq ki, xəstəliyin ayrı-ayrı əlamətləri bir vaxtlar özünü Xankəndini "Stepanakert" adlandırmaqla biruzə verirdi. Xüsusən, 2023-cü ilin sentyabrından, yəni Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsindən sonra. Axı miskinlər Qarabağ avantürasının tarixin zibilliyinə atıldığını gördülər və qəzəblərini başqa cür göstərə bilmədilər. Heç şübhəsiz, durum yenə eynidir və sonra rus ictimai rəyi Azərbaycandan hörmət gözləyir. Gözləsin, albəttə, hörmət xaric göstərəcəyimiz nələrsə olacaq.

Məsələn, Azərbaycan mediasında Rusiyanın, faktiki olaraq, işğal etdiyi və bu gün böyük məmləkət kimi qərarlaşmasında müstəsna pay sahibi olan türk-müsəlman yurdlarını bir-bir sadalaya bilərik. Özü də tarixi adları ilə. Amma buna da lüzum görmürük. "1-ci" kanaldakı manqurtları və onları təlimatlandıranları belə məqamlar maraqlandırmır. Axı onlar öz xəstəliklərinin dərdindədirlər. Nə deyək, olsunlar, biz də bəlalərini məsxərə predmetinə çevirək. Hərçənd, xəstə adamlarla məzələnməyin yaxşı hal olmadığının fərqindəyik. Amma...

"Əmmalar" həddən artıq çoxdur. Rusiyanın birbaşa dəstəyi ilə yaradılmış "Dağlıq Qarabağ Respublikası" adlı separatçı qurum canını tapşırıb. "1-ci" kanaldakılar ehtiyac bilsələr, onun nəşindən bir parçanı Movzaleyə mumiyalamaq üçün təqdim edə bilərik. Amma daha böyük "əmma" var. Söhbət hazırda Ermənistan adlı dövlətin, ümumən, erməni varlığının imperializmin ona hədiyyə etdiyi "Dağlıq Qarabağ"dan uzaq durmasıdır. Ona görə də "xəstələr" yoluxdurduqları ermənilərı nankor adlandırırlar. Axı yanıb qıvrılırlar.

Bəli, Rusiya nə qədər çalışsa da, Ermənistanla, onun üçün biçdiyi avantüra ampluasını bərpa etməklə bağlı nəticə ala bilmir. Yaxşı olar ki, rus intellektual sistemi düşdüyü bu acınacaqlı durumun, uğradığı beyin qısırlığı aqibətindəki ağrılığın fərqinə varsın. Təkcə fərqinə varmasın, eyni zamanda, yaşananlardan ciddi nəticə çıxarsın, həmçinin, harada, hansı səhvə yol verdiyini anlamağa çalışsın, ən əsası isə xəstəliyin daha da güc gəlməsinə imkan verməsin. Axı hazırda zaman "1-ci kanal"dakı kimi göstərmir. Bu reallıqla barışmaq lazımdır, zarımaq yox.

**Əvəz CAHANGİROĞLU**
**XQ**

---

# 1994-cü ilin 12 may atəşkəsi

*(əvvəli 1-ci səhifədə)*

SSRİ-nin dağılması ilə yaranmış hakimiyyət boşluğu, təhlükəsizlik vakuumu və hərbi arsenalın nəzarətsiz paylaşdırılması regionda silahlı eskalasiyanı sürətləndirmişdi. 1992–1993-cü illərdə Ermənistan silahlı qüvvələri və separatçı qüvvələr Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ilə yanaşı, ətraf yeddi rayonu da işğal etmişdi. Kəlbəcərin işğalı beynəlxalq səviyyədə ciddi rezonans doğurmuş və BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin qəbuluna səbəb olmuşdu. Ardınca 853, 874 və 884 saylı qətnamələr qəbul edildi. Məhz belə bir şəraitdə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın dövlət idarəçiliyində nisbi sabitlik yaratdı və diplomatik strategiyanın formalaşdırılmasına imkan verdi.

1994-cü il atəşkəsinin siyasi mahiyyətinin arxasında Heydər Əliyevin dövlətçilik, təhlükəsizlik və geosiyasi balans üzərində qurulmuş geniş strateji baxışı dayanırdı. 1993–1994-cü illərdə Azərbaycan həm cəbhə xəttində ağır vəziyyətlə, həm də daxildə dərin siyasi və institusional böhranla üz-üzə idi. Ümummilli lider üçün əsas məsələ, ilk növbədə, dövlət institutlarının qorunması idi. Çünki müharibənin davam etməsi dövlətin funksional idarəçilik imkanlarının zəifləməsi demək idi. Atəşkəsin mühüm siyasi nəticələrindən biri ordunun yenidən təşkilinə imkan yaratması oldu.



Müharibənin ilk mərhələsində Azərbaycanda vahid komandanlıq sistemi tam formalaşmamışdı, könüllü silahlı dəstələr və müxtəlif siyasi qrupların təsiri hərbi idarəetməni zəiflədirdi. Heydər Əliyev atəşkəsi nizami və peşəkar ordu modelinə keçid üçün zəruri zaman qazanılması kimi qiymətləndirirdi. Sonrakı illərdə həyata keçirilən ordu quruculuğu siyasəti göstərdi ki, 1994-cü ildən sonra təhlükəsizlik strategiyası daha mərkəzləşdirilmiş və institusional xarakter almağa başlamışdı. Bu dövrdə Azərbaycanın xarici siyasət kursu da xüsusi diqqət çəkirdi. Rusiya ilə münasibətlərin qorunması, həm Qərb dövlətləri ilə əməkdaşlığın genişləndirilməsi, həm də regional aktorlarla balans siyasətinin qurulması əsas prioritetlərdən birinə çevrildi. Atəşkəs bu balanslaşdırılmış diplomatik xəttin formalaşması üçün zəruri beynəlxalq mühit yaratdı.

Müharibənin fəal fazasının dayanması Bakı üçün daha çevik xarici siyasət imkanları açdı və Azərbaycanı regional enerji və nəqliyyat layihələrinin potensial tərəfdaşı kimi təqdim etməyə imkan verdi. Məhz buna görə 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın qlobal enerji sisteminə inteqrasiyasını təmin etməklə yanaşı, ölkənin beynəlxalq siyasi çəkisini artırmağa xidmət edirdi.

Əslində, atəşkəs qərarı ilə "Əsrin müqaviləsi" arasında birbaşa strateji əlaqə mövcud idi. Müharibənin intensiv fazasının davam etdiyi şəraitdə iri enerji şirkətlərinin və Qərb investisiyalarının Azərbaycana cəlb olunması son dərəcə çətin olardı. 1994-cü il atəşkəsinin əldə olunması prosesində Rusiya amili həlledici geosiyasi faktor kimi çıxış edirdi. SSRİ dağılandan sonra Moskva postsovet məkanında yaranmış yeni dövlətlərin tam şəkildə Qərb siyasi və təhlükəsizlik sisteminə inteqrasiya etməsinin qarşısını almağa çalışırdı.

Qarabağ münaqişəsi isə Kremlin region üzərində təsir imkanlarını qorumaq üçün istifadə etdiyi əsas alətlərdən birinə çevrilmişdi. Rusiya bir tərəfdən vasitəçi kimi çıxış edir, digər tərəfdən isə münaqişənin tam həll olunmaması şəraitində regional dövlətlər üzərində siyasi təsir rıçaqlarını saxlayırdı. Qarabağ məsələsində Kremlin əsas məqsədi tam və yekun sülh yaratmaqdan daha çox, münaqişəni nəzarət edilə bilən səviyyədə saxlamaq idi. Çünki tam həll variantı region dövlətlərinin daha müstəqil xarici siyasət kursuna keçməsinə və Qərb institutları ilə yaxınlaşmasına şərait yarada bilərdi.

Digər mühüm məsələ NATO və Qərb təsirinin məhdudlaşdırılması idi. 1990-cı illərin əvvəllərində Şərqi Avropada və postsovet məkanında Qərb institutlarının genişlənməsi Rusiyada ciddi strateji narahatlıq yaradırdı. Kremlin siyasi elitası hesab edirdi ki, Cənubi Qafqazda həll olunmamış münaqişələrin mövcudluğu region dövlətlərinin NATO və digər Qərb təhlükəsizlik mexanizmlərinə inteqrasiyasını çətinləşdirir. Münaqişə həm regional təhlükəsizlik gündəmini Rusiyanın nəzarətində saxlayır, həm də alternativ geosiyasi layihələrin sürətini məhdudlaşdırırdı.

ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar da böyük ölçüdə bu idarəolunan status-kvonun saxlanmasına xidmət edirdi. ABŞ, Fransa və Rusiyanın həmsədr olduqları bu format formal olaraq münaqişənin həllini hədəfləsə də, praktiki nəticələr son dərəcə məhdud oldu.

12 may 1994-cü il atəşkəsi bütövlükdə Cənubi Qafqazın siyasi inkişaf trayektoriyasına, regional təhlükəsizlik sisteminə və postsovet məkanındakı geosiyasi münasibətlərə ciddi təsir göstərdi. Müharibənin aktiv fazasının dayandırılması region dövlətlərinin daxili siyasi prioritetlərini dəyişdirdi, beynəlxalq aktorların regiona yanaşmasında yeni mərhələ formalaşdırdı və uzun illər davam edən yeni status-kvonun əsasını qoydu. Ermənistan üçün isə 1994-



cü il atəşkəsi qısamüddətli hərbi üstünlüyün siyasi nəticələrinin formalaşdırılması mərhələsinə çevrildi.

Müharibədən sonra Ermənistan regionda taktiki üstünlük əldə etmiş dövlət kimi görünürdü. Lakin uzunmüddətli perspektivdə bu vəziyyət ölkənin iqtisadi və geosiyasi manevr imkanlarını məhdudlaşdırdı. Azərbaycan və Türkiyə ilə sərhədlərin bağlı qalması Ermənistanın regional kommunikasiya layihələrindən kənarda qalmasına səbəb oldu. Bu vəziyyət ölkənin iqtisadi inkişaf modelini zəiflətdi və təhlükəsizlik sistemini böyük ölçüdə Rusiya ilə hərbi-siyasi ittifaq üzərində qurmağa məcbur etdi.

Ermənistanın təhlükəsizlik strategiyası zaman keçdikcə, daha çox Moskvanın hərbi və siyasi dəstəyindən asılı vəziyyətə düşdü ki, bu da ölkənin xarici siyasət müstəqilliyi ilə bağlı müzakirələri gücləndirdi. Son olaraq qeyd edək ki, 12 may atəşkəsi Azərbaycan üçün isə yeni dövlətçilik modelinə keçid mərhələsinin başlanğıcı oldu.

Müharibənin dayandırılması Bakı üçün daxili sabitliyin bərpasına, iqtisadi sistemin yenidən qurulmasına və beynəlxalq tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsinə imkan yaratdı. Bu dövrdən etibarən Azərbaycan xarici siyasətdə daha çox çoxtərəfli əməkdaşlıq modelinə üstünlük verməyə başladı və enerji diplomatiyası dövlət strategiyasının əsas sütunlarından birinə çevrildi. Qərb strukturları ilə əlaqələrin inkişafı, beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq və regiondakı nəqliyyat layihələrinin təşviqi də məhz bu mərhələdə sürətləndi.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

*Əbədiyyət ünvanı*

# Ulu öndər Heydər Əliyev kəndlərimizə də yüksəliş gətirmişdi

**Ümummilli lider Heydər Əliyev birinci dəfə respublikaya rəhbərlik etdiyi illərdə 3 dəfə (avqust 1975, iyul 1977, sentyabr 1980) Tovuz rayonunun Düzqırıqlı kənd mədəniyyət sarayında respublika üzümçülərinin zona müşavirəsini və rayon partiya-təsərrüfat fəallarının yığıncağını keçirmişdi. Ulu öndər hər gəlişində rayonun ovaxtkı Nizami, Səməd Vurğun, Mirbəşir Qasımov, Əli Bayramov, Lenin, Engels, Kirov adına, "Qəbələ" sovxozlarında olmuşdu.**

Xalqımızın böyük oğlu, halal zəhmət adamlarına dərin hörmət bəsləyən Heydər Əliyev hər dəfə Tovuz rayon əməkçiləri ilə də səmimi görüşlər keçirmiş, onların məişət şəraiti, güzəranlarının yüksəlməsi ilə ətraflı maraqlanmış, dəyərli tövsiyələrini vermişdi. Respublika rəhbəri göstərmişdir ki, uğurları artırmaq, nöqsanları aradan qaldırmaq əhalinin rifahını yüksəltməyin, yaşayış şəraitini yaxşılaşdırmağın əsas yoludur. Ulu öndərin o zaman söylədiyi "Tovuzun gözəl təbiəti, qiymətli sərvəti vardır. Onun ən qiymətli sərvəti zəhmətkeş insanlarıdır" sözlərində isə bu bərəkətli torpağa və onun istedadlı, halal zəhmətə bağlı insanlarına verilmiş ən yüksək qiymət parlaq əksini tapıb.

**Bu fikirləri Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev Ulu öndərin doğum günü ilə bağlı XQ-nə verdiyi açıqlamada bildirdi. Ümummilli liderin Tovuz rayonuna göstərdiyi qayğı və diqqətdən söz açan professor fikirlərinə davam etdi:**

– Heydər Əliyevin səyi və tələbkarlığı nəticəsində ölkəmiz, o cümlədən də Tovuz rayonu üzümçülük diyarına çevrilmişdi. Ümummilli liderin rayonumuza hər gəlişi toy-bayrama çevrilirdi. Tovuzlular onu gül-çiçəklə, böyük coşqu, sevinc və məhəbbətlə qarşılayırdılar. Heydər Əliyevlə hər görüş unudulmaz hadisəyə çevrilirdi.

Kəndimizdə və nəslimizdə dahi şəxsiyyət Heydər Əliyevə xüsusi ehtiram və sonsuz məhəbbət vardı. Heydər Əliyev kəndimizdə "Beşilliyi üç ildə yerinə yetirmək uğrunda mübarizə aparan briqada"ların rəhbərləri Nəriman Qocayev və Nəsrəddin Məmmədov, qabaqcıl üzümçülər Aybəniz və Xurma Rzayeva, Məcid Hüseynovun sahələrində olmuş, Xəlfəqulu oğlu Abbasın sahəsində yeni üzüm sortu əkmişdir.

Ümummilli lider Abbas kişinin bol məhsullu üzüm sahəsində olarkən demişdi: "Ağsaqqal, biz Bakıdan gəlmişik, nəyə ehtiyacın var, arzun nədir?" Abbas kişi demişdi: "Qadan alım, heç nəyə ehtiyacım yoxdur. Arzum isə odur ki, gedək, qonağım ol, beş-altı toğlum var, birini kəsim. Siz gedəndən sonra qürrələnim ki, böyük bir adam qonağım olub". Heydər Əliyev ürəkdən gülərək söyləmişdi: "Bizim böyük olduğumuzu haradan bildin?" "Qadan alım, bunu bilməyə nə var ki? Yaşım 70-dən yuxarıdır, ömrümdə bir kişinin başına bu qədər adam yığışdığını görməmişəm". Ulu öndər ürəkdən gülmüş və demişdi: "İndi tələsirik. Çalışaram, gələn dəfə qonağın olum".

Heydər Əliyev Tovuz əməkçilərinə yüksək qiymət vermiş, Tovuzun torpağı, təbiəti, insanları barədə demişdir: *"Mənim və Bakıdan gələn başqa yoldaşların hamısının qəti qənaəti budur ki, doğrudan da Tovuz rayonunun özü də xoşbəxtdir, insanları da xoşbəxtdir. İqlimi də, təbiəti də gözəldir".*

Bu sözlər hər bir tovuzluda qürur doğurur. Tovuzlular o böyük şəxsiyyətin dediyi sözləri də, özünü də heç vaxt unutmayacaqlar. Ulu öndərin kəndimizdə yeni üzüm sortu əkməsi və vətənpərvərlik nümayiş etdirməsi də unudulmur. Kəndimizin mədəniyyət sarayı zövqlə inşa edilmiş gözəl tikilidir. Özülün üstündə qırmızı torf daşdan hörülmüş iki metr hündürlüyündə kürsü vardır. Qırmızı torf daş Ulu öndərin marağına səbəb olur.

– Bu daşlardan Bakıya göndərmək olarmı? – deyə soruşur.

Sovxozun sədri Firidun Bağırov deyəndə ki, onlar Ermənistandan gətirilir, Heydər Əliyev məyus olur: "Onda lazım deyil", – deyir.

**Qəzənfər Paşayev kəndin, eləcə də rayonun böyük nüfuz sahibi kişilərindən olan Firidun Bağırovdan, onun Ulu öndərlə söhbətlərindən də söz açdı:**



– 1951-ci ildən ömrünün sonuna qədər əvvəlcə kolxoz sədri, sonra sovxoz direktoru işləyən Firidun Bağırov Heydər Əliyevin hakimiyyəti dövründə kəndi sanki şəhərə döndərmişdi: Mədəniyyət sarayı, asfalt küçələr, qonaq evi, kino zalı, radio qovşağı, evlərə çəkilən radio və telefon xətti, univermaq, yüz çarpayılıq ikimərtəbəli xəstəxana, texniki-peşə, musiqi, səkkizillik və üçmərtəbəli, şəhər tipli onillik məktəblər, 2 istirahət parkı, 2 uşaq bağçası, hamam, çörək zavodu, elektrik dəyirmanı, bərbərxana, şərab zavodu, maşın-traktor parkı, dağdan – 12 kilometrlik məsafədən çəkilən içməli su xətti, kəndin işıq və qazla təmin edilməsi, ürəyi qurub-yaratmaq eşqilə döyünən Ulu öndərimizə məmnunluq gətirməyə bilməzdi.

Heydər Əliyev Firidun Bağırovun heç nəyi gizlətmədən açıq danışdığını bəyənirdi. Bir dəfə söhbət zamanı deyir: "Birmərtəbəli, palçıqdan tikilmiş evlər diqqətimi cəlb etdi. Çalışqan camaatın evləri belə olmamalıdır. Mən camaatın üzündə qayğı və sıxıntı hiss etdim. Bu, nədən ola bilər?"

– Yoldaş Əliyev, indi fəhlə də, çoban da övladlarını ali məktəbdə oxudur. Bu əlavə məsrəf tələb edir. Ailədən yeni ailə yaranır. Yəni cavanlar evlənirlər. Əvvəllər cehiz yorğan-döşəkdən ibarət olurdu. İndi gəlinə mebel alınır, zinət əşyaları alınır. Hüzr yerində əvvəllər halva verərdilər. İndi ehsan verilir. Mən şəxsən imkansızlara bir qutu yağ, bir qutu çay, bir kisə qənd göndərirəm. Əvvəllər ailələr mal-qara, qoyun-quzu saxlayırdılar. İndi sovxozdan aldıqları əməkhaqqından başqa bir gəlir yerləri yoxdur.

Heydər Əliyev xeyli fikrə gedir və əlavə edir:

– Mən fikir verdim, kəndinizin aşağısında əkilməyən torpaqlar baş alıb gedir. Oralarda suyunuz varmı?

– Bəli, var. Kəhrizimiz, bol sulu bulaqlarımız var. Artezian quyuları da qazmaq olar. Kür çayına qədər uzanıb gedən ucsuz-bucaqsız münbit torpaq sahələri var. Yeri gəlmişkən, kəndimiz buraya əsrin əvvəllərində Kürün qırağından köçüb. Orada indi də tut, nar, əncir ağacları var. Yaz gələndə camaat mal-qarasını yığıb orada binə salardı.

– Çox yaxşı, onda siz belə edin. Torpaqları zəhmətkeşlərə paylayın. Qoy əksinlər. Komissiya yaradın. Məhsul yetişən vaxt vergi müəyyən edin. Elə edin ki, vergi münasib olsun. Yoxsa əkməzlər.

Ulu öndər Firidun Bağırovun işgüzarlığını yüksək qiymətləndirirdi. Bilirdi ki, dediyi kimi də olacaq. İndi kəndimizi ağ daşdan tikilmiş ikimərtəbəli evlər bəzəyir.

Tarix elə gətirdi ki, sovet sistemi dağıldı. Müstəqilliyə qovuşduq. Aradan illər keçdi. Ulu öndərin sovetin qılıncının dalı da, qabağı da kəsdiyi bir dövrdə kəndimizdə cəsarətlə həyata keçirdiyi "islahat" ölkədə qanun halını aldı. Torpaqlar xalqa paylandı.

İbrətamiz bir məsələdən də danışmaq istərdim. Ulu öndər Moskvada yüksək vəzifədən kənarlaşandan sonra sovet sisteminin yazılmamış qanunlarına əsasən onun portretlərini hər yandan yığışdırırdılar. Kiçik qardaşım Ələsgər müəllim (Milli Məclisin mərhum deputatı Qənirə Paşayevanın atası) kəndimizdə olan iki tam orta məktəb, xəstəxana, musiqi məktəbi, kənd klubu, sovxoz idarəsi və başqa yerlərdən onun portretlərini yığıb evində bir otaqda saxlayır və özü də o otaqda yatırdı.

Ə.Vəzirov hakimiyyətə gələn kimi məni M.F.Axundov adına Pedaqoji İnstitutda xarici dillər kafedrasının müdiri vəzifəsindən, qardaşım Ələsgər müəllimi isə müxalifətə qoşulmadığına görə cəbhəçilər hakimiyyətə gələn kimi məktəb direktorluğundan kənarlaşdırdılar. Adımızı qoydular: "Əliyevçilər". Vəzifədən haqsızlıqla çıxarılmaq ağır olsa da, hər ikimiz Heydər Əliyevə olan sevgimizlə fəxr etdik. Dahi şəxsiyyət Heydər Əliyevə sevgi və ehtiramla yazdığım çoxsaylı məqalələr bu fəxarətin ifadəsidir.

***Hazırladı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Azərbaycan beynəlxalq hüquqa kəsər qazandırdı



*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyevin mayın 10-da erməni işğalından azad edildikdən sonra bərpa edilməkdə və abadlaşdırılmaqda olan Zəngilana köçən ilk sakinlərlə görüşü zamanı dilə gətirdiyi həqiqətlər, əslində, İrəvanın və haypərəst Qərbin illərlə üstünü örtməyə çalışdıqları siyasi riyakarlığın pərdəsini birdəfəlik qaldırdı. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan xalqı üçün Minsk qrupu heç vaxt ədalətli sülhün ümid ünvanı olmayıb. Əksinə, bu qurum işğalı əbədiləşdirmək və münaqişənin mümkün həllini dondurmaq üçün qurulmuş məkrli mexanizm kimi yaddaşlarda qalacaq. "Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli yoxdur" deyən həmsədrlər bu yolla işğalı sənədləşdirərək, onun "kupçasını" əldə etməyi, Ermənistanı isə hər cür sanksiyalardan sığortalamağı hədəfləyirdilər. Hətta iş o yerə çatmışdı ki, onlar beynəlxalq hüququ ayaqlar altına atıb "Şimali Qarabağ" kimi uydurma terminlərlə işğalçının yolunu daha da genişləndirir, öz ərazisini azad etmək istəyən Azərbaycanı təcavüzkar kimi qələmə verirdilər. Məscidlərimiz söküləndə, şəhər və kəndlərimiz xəritədən silinəndə, Qarabağdakı yurdlarımıza yadlar köçürüləndə susan həmsədrlərin bu soyuqqanlılığı köhnə müstəmləkəçi təfəkkürün və iyrənc ikili standartların təzahürü idi. ATƏT sədrinin Anji Kaspşik kimi "səhra komandirinin" Bakı –Xankəndi–İrəvan arasında "vasitəçilik səyahətləri", lüks həyatı bu prosesin onlar üçün turist gəzintisi olduğunu göstərirdi.

*

Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il dekabrın 12-də, İkinci Qarabağ müharibəsinin başa çatmasından dərhal sonra Bakıya gələn ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etməsi 3 onillik boyu davam edən beynəlxalq vasitəçilik imitasiyasının iflasını rəsmiləşdirən tarixi an idi. ATƏT sədrinin xüsusi nümayəndəsi Anji Kaspşikin də iştirak etdiyi görüşdə dövlət başçısı qətiyyətli mövqeyi ilə diplomatik etiketlərin pərdəarxası reallığını açıq müstəviyə çıxardı. Prezidentin vasitəçilərin üzünə "mən sizi dəvət etməmişəm, siz özünüz gəlmisiniz" deməsi Minsk qrupunun hər vəchlə qorumağa çalışdığı status-kvonun artıq tarixin arxivinə gömüldüyünün rəsmi bəyanı idi. Görüşün atmosferi Azərbaycanın münaqişənin həllində artıq kənar vasitəçilərə və mənasız vaxt itkisinə ehtiyacı olmadığını bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyev Ali Baş Komandan kimi 30 ilə yaxın kağız üzərində qalan BMT qətnamələrini Xalq–Ordu birliyi ilə icra etdi. Bu, regionda yeni reallığın başladığını, artıq "ölü" quruma çevrilmiş beynəlxalq mexanizmin rəhbərliyinin deyil, qalib tərəf kimi Azərbaycanın şərtlərinin həlledici olacağını təsdiqlədi. Beləliklə, ATƏT-in Minsk qrupunun fəaliyyəti məhz 12 dekabr görüşündə mənəvi və siyasi baxımdan ömrünü başa vurdu.

*

Bu gün regionun gələcəyi Azərbaycanın strateji iradəsi ilə müəyyənləşir. Bu yeni nizamın mərkəzi sütunu olan Qarabağ ölkəmizin dövlət suverenliyinin tam bərpası ilə milli qürur mənbəyindən regionun yeni iqtisadi mühərrikinə çevrilir və bu inkişaf xətti Şuşadan, Ağdamdan keçərək birbaşa Zəngilana uzanır. Azad edilmiş torpaqlarda qurulan yeni infrastruktur arxitekturası Azərbaycanın həm suverenliyini möhkəmləndirir, həm də qitələrarası nəqliyyat xəritəsində öz şərtlərini diktə edən qlobal qovşaq statusunu təmin edir. Prezident Zəngilan sakinləri ilə söhbətində Azərbaycanın strateji hədəflərini tam aydınlığı ilə ortaya qoydu: "Ermənistanla burada sərhəd açılandan, Zəngəzur dəhlizi açılandan sonra Zəngilan faktiki surətdə ölkəmizin yeganə rayonu olacaq ki, bunun iki qonşu ölkə ilə sərhəd-keçid məntəqəsi olacaq. Görün, bunun nə qədər böyük əhəmiyyəti var. Çünki bu, həm Şərq-Qərb dəhlizidir, Naxçıvandan Türkiyəyə, sonra Avropaya uzanan yoldur, həm də Şimal-Cənub dəhlizidir. Zəngilandan Ağbənd üzərindən İrana və Fars körfəzinə, buradan Naxçıvana keçməklə Culfaya, yenə də Fars körfəzinə. Bu, beynəlxalq bir mərkəz olacaq, əvəzolunmaz mərkəz olacaq. Biz bunu belə görürük və belə də olacaq. Çünki bu günə qədər bütün planlarımız gerçəkləşib".

Prezidentin Zəngilandan verdiyi mesajlar Azərbaycan dövlətinin ədalətin zəfərinə aparan mübarizəsi ilə gələcək hədəflərini birləşdirir. Burada Ulu öndərin dövlətçilik mirası, 2020 və 2023-cü illərin hərbi-siyasi uğurları və bugünkü bərpa-quruculuq işləri vahid xətt üzrə inkişaf edir. ATƏT-in Minsk qrupunun 30 ildə etmək istəmədiyini Azərbaycan dövləti 44 gündə hərbi, sonrakı bir neçə ildə isə diplomatik və quruculuq müstəvisində reallaşdırdı. Zəngilanda inşa edilən "ağıllı kəndlər", beynəlxalq hava limanı və qurulan enerji infrastrukturu dünyaya mesajdır: Azərbaycan kənardan diktə edilən ssenarilərin obyekti deyil, tarixin axarını dəyişən subyektdir. Bu gün Azərbaycanın gücü təkcə ordusunda deyil, həm də azad edilmiş torpaqlarda həyata keçirdiyi planlı və uzaqgörən strategiyasındadır.

***Tacir SADIQOV***
***XQ***

*Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

ATƏT-in Minsk qrupu əvvəldən Ermənistan–Azərbaycan münaqişəsinin həlli ilə deyil, onun dondurulması ilə məşğul olurdu. Onun əsas vəzifəsi münaqişənin yenidən hərbi müstəviyə keçməsinin qarşısını almaq idi. Lakin bu vəzifəsinin öhdəsindən gələ bilmədi, çünki münaqişə həm 2016-cı ildə, həm də 2020-ci ildə yenidən hərbi mərhələyə keçdi və nəhayət, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan tam və qeyd-şərtsiz qələbə qazandı.

2020-ci ildə ATƏT-in Minsk qrupunun həmsədrləri dəvət olunmadan Bakıda "peyda" oldular və Azərbaycan Prezidenti İlham Əliyev onları qəbul edərkən demişdi ki, mən Minsk qrupunu səfər etməyə dəvət etməmişdim. Amma mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, mən dedim: qoy gəlsinlər, mən etiraz etmirəm. Bəlkə mənə deyəcəkləri nəsə var.

Məlum oldu ki, onların deyəcək heç nəyi də yox imiş. Bundan sonra həmsədrlər üçlüyünü yenidən diriltmək üçün müəyyən cəhdlər edildi, lakin sonradan başlayan Rusiya–Ukrayna müharibəsinə görə birgə səylərlə nizamlanma prosesinə qoşulmaq artıq mümkün olmadı.

Rusiya müəyyən müddət bu vasitəçilik missiyasını təkbaşına icra etməyə çalışdı, sonra isə ovaxtkı Avropa Şurasının Prezidenti Şarl Mişelin timsalında Avropa İttifaqı belə bir təşəbbüs göstərdi. Lakin bütün bu cəhdlər nəticəsiz qaldı və tərəflər münasibətlərin tənzimlənməsi prosesini ikitərəfli formatda davam etdirdilər.

Sonradan ABŞ-ın, ABŞ Prezidentinin dəstəyi əldə olundu – Vaşinqtonda Birgə Bəyannamə imzalandı və sülh müqaviləsinin mətni paraflandı. Görüşün nəticələrinə əsasən Minsk qrupunun buraxılması barədə qərar qəbul olundu və bu da həyata keçirildi.

*Beynəlxalq həyat*

# Vaşinqtonda "liderlərin savaşı"

**ABŞ lideri Donald Tramp ilə sabiq prezident Barak Obama arasında siyasi qarşıdurma yenidən kəskinləşib. Ağ Evdə Filippin Prezidenti Ferdinand Markos ilə görüşündə Tramp Obama administrasiyasını "cinayətkar sui-qəsd"də günahlandırıb. O, Obamanın həbs olunmasına çağırış edərək onu 2016-cı il seçkiləri ilə bağlı ictimaiyyəti aldatmaqda ittiham edib.**

Tramp bildirib ki, seçki prosesinə müdaxilə olunub və həmin dövrdə ABŞ ictimaiyyətinə yanlış məlumat təqdim edilib: "O günahkardır. Bu, xəyanət idi. Ağlınıza gələn bütün ifadələr buna uyğundur. Onlar seçkini oğurlamağa çalışırdılar. Seçki prosesini manipulyasiya etməyə çalışırdılar. Hətta başqa ölkələrdə belə təsəvvür edilməyən işlər görüblər".

Bu açıqlamalar ABŞ siyasi gündəmində yeni mübahisələrə səbəb olub. Məsələnin mərkəzində isə yenidən "Rusiya barmağı" dayanır. 2016-cı il prezident seçkilərindən sonra ABŞ xüsusi xidmət orqanları Rusiyanın seçkilərə təsir göstərməyə çalışdığı qənaətinə gəlmişdi. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi Rusiyanın Trampın xeyrinə informasiya təsiri kampaniyası həyata keçirdiyini bildirmişdi. Obama administrasiyası buna cavab olaraq rus diplomatlarını ölkədən çıxarmış və Moskvaya qarşı sanksiyalar tətbiq etmişdi. 2017-ci ildə yayımlanan kəşfiyyat hesabatı da Rusiyanın seçki prosesinə təsir cəhdlərini təsdiqləyirdi.

Lakin ABŞ daxilində əsas mübahisə Tramp kampaniyasının bu prosesdə iştirak edib-etməməsi ilə bağlı idi. Demokratlar uzun müddət Tramp komandasının Kreml ilə əlaqədə olduğunu iddia edirdilər. Respublikaçılar isə bunu siyasi kampaniya və Trampın legitimliyinə qarşı hücum kimi qiymətləndirirdilər. 2019-cu ildə xüsusi prokuror Robert Müllerin hesabatı yayımlandı. Hesabatda Trampın seçki kampaniyasının Rusiya ilə əlbir olduğunu sübut edən kifayət qədər faktın olmadığı bildirildi. Bununla belə, Rusiyanın seçkilərə sistemli müdaxilə etdiyi vurğulanırdı. Bu səbəbdən Tramp illərdir həmin araşdırmaları "Rusiya saxtakarlığı" adlandırır. Hesab edir ki, həmin proses onun prezidentliyini zəiflətmək məqsədi daşıyırdı.



Son açıqlamalarda isə Tramp birbaşa Obamanı hədəfə almağa başlayıb. Bu mübahisədə ABŞ Federal Təhqiqatlar Bürosunun direktoru Tulsi Qabbardın açıqlamaları da xüsusi rol oynayır. Qabbard bildirib ki, Obama administrasiyası kəşfiyyat məlumatlarını siyasiləşdirib. Onun sözlərinə görə, həmin dövrdə bəzi hesabatlar məqsədli şəkildə manipulyasiya olunub. Qabbard məsələ ilə bağlı sənədlərin ABŞ Ədliyyə Nazirliyinə təqdim ediləcəyini açıqlayıb. Lakin ekspertlərin böyük qismi bu iddialara ehtiyatla yanaşır. Onlar hesab edirlər ki, Tulsi Qabbard seçki nəticələrinin birbaşa dəyişdirilməsi ilə ictimai rəyə təsir göstərməyə yönəlmiş informasiya kampaniyalarını bir-biri ilə səhv salır. Çünki əvvəlki rəsmi hesabatlarda Rusiyanın səsvermə nəticələrini texniki olaraq dəyişdirdiyi qeyd olunmurdu.

***N.BEYDİYEVA***
***XQ***

# Azərbaycan paytaxtı WUF13-ü yüksək hazırlıqla qarşılayır

**Paytaxt Bakı bir neçə gün sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) ən nüfuzlu tədbirlərindən biri – Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) ev sahibliyi edəcək. Bu isə o deməkdir ki, Odlar Yurdu Azərbaycan yenidən beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə çevriləcək.**




2001-ci ildə BMT Baş Assambleyası tərəfindən təsis edilmiş və BMT-Habitat tərəfindən çağırılan Dünya Şəhər Forumu (WUF) davamlı urbanizasiya üzrə aparıcı qlobal konfransdır. Hər iki ildən bir keçirilən bu tədbir sürətli urbanizasiyanın şəhərlərə, icmalara, iqtisadiyyatlara və iqlim dəyişikliyinə təsirlərini araşdırır. Yarandığı gündən bəri WUF dünyanın müxtəlif şəhərlərində ev sahibliyi edir və ilk sessiyası 2002-ci ildə Keniyanın Nayrobi şəhərində keçirilib.

Forum məzmunu və əhatə dairəsi baxımından BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransından (COP) sonra ikinci ən böyük və strateji əhəmiyyət daşıyan qlobal platforma hesab olunur. Azərbaycanın belə mötəbər bir tədbiri yüksək səviyyədə təşkil edəcəyinə heç bir şübhə yoxdur. 2024-cü ilin noyabrında Bakıda baş tutan COP29-un beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsi də bu fikri əsaslandırır.

WUF13 BMT-nin İnsan Məskənləri Proqramı — "UN-Habitat" və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə keçiriləcək. Tədbirin əsas mövzusu "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" olaraq müəyyənləşdirilib. WUF13 qlobal mənzil böhranına həll yollarını inkişaf etdirmək və Yeni Şəhər Gündəliyinin və Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsini sürətləndirmək üçün hökumətləri, şəhərləri, beynəlxalq təşkilatları, özəl sektoru, akademik dairələri və vətəndaş cəmiyyətini bir araya gətirəcək. WUF13 xüsusilə qlobal mənzil böhranı, dayanıqlı şəhər idarəçiliyi, iqlim dəyişikliklərinə qarşı şəhər dayanıqlılığı, əlçatan yaşayış infrastrukturu və "ağıllı şəhər" modelləri üzərində fokuslanacaq.

Qeyd olunmalıdır ki, ölkəmiz iqlim dəyişiklikləri və şəhərsalma ilə bağlı qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşdırılmasında etibarlı tərəfdaş kimi tanınır. WUF13-ün ölkəmizdə keçirilməsi ilə bağlı qərar Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunun və beynəlxalq nüfuzunun göstəricisidir. Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması isə Azərbaycanın bu foruma ev sahibliyi etdiyi dövrdə şəhərsalma siyasətinə verdiyi xüsusi önəmin və bu sahəni strateji prioritet kimi müəyyənləşdirdiyinin təzahürüdür.

Prezident İlham Əliyev mayın 12-də Bakı Olimpiya Stadionunun ərazisində mayın 17–22-də keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə bağlı hazırlıq işləri ilə tanış olub. Qeyd edək ki, forumun keçirildiyi ümumi ərazi 53 hektardır. Bunun 43 hektarı əsas tədbir zonası, 10 hektarı isə nəqliyyat, transfer və parklanma sahələridir. Bütün funksional istiqamətlər – qeydiyyat, sessiyalar, sərgi, media, könüllülər və texniki xidmətlər vahid əməliyyat sistemi üzrə təşkil olunub. Açılış və bağlanış mərasimləri üçün nəzərdə tutulan zal 6000 nəfərlikdir. Paralel tədbirlər zonasında gündə təxminən 300 sessiya və görüşün keçirilməsi planlaşdırılır. Burada BMT-nin 6 rəsmi dili ilə yanaşı, Azərbaycan və türk dillərində də sinxron tərcümə təmin ediləcək, həmçinin əlilliyi olan şəxslər üçün işarə dili xidməti olacaq.

Son məlumatlara əsasən, forum proqramı artıq ictimaiyyətə təqdim olunub. Proqram çərçivəsində yüksək səviyyəli siyasi dialoqlar, tematik panel müzakirələri, urban innovasiya sessiyaları və praktik həll platformaları təşkil ediləcək. Forumun əsas məqsədlərindən biri şəhərlərin gələcəyi ilə bağlı qlobal siyasətlərin formalaşdırılmasına töhfə verməkdir. Hazırda forum üçün qeydiyyat prosesi davam edir. Təşkilatçılar həm fiziki, həm də onlayn iştirak imkanları yaradıldığını açıqlayıblar. Forum çərçivəsində Urban Expo adlı beynəlxalq sərgi də keçiriləcək. Burada müxtəlif ölkələrin şəhərsalma layihələri, innovativ həlləri və dayanıqlı inkişaf modelləri nümayiş etdiriləcək.

WUF13 tədbirində təşkil olunacaq Biznes və İnnovasiya Mərkəzinin proqramı açıqlanıb. WUF13 mənzil təminatı sahəsində innovativ yanaşmaları təşviq etmək məqsədilə yeni bir komponent - Biznes və İnnovasiya Mərkəzini təqdim edib. Bu mərkəz öz xüsusi proqramı vasitəsilə şəhərsalma prosesinin bütün mərhələlərini (dəyər zənciri) əhatə edən praktik həlləri, icra üsullarını və tərəfdaşlıq əlaqələrini ön plana çıxaracaq. O, WUF13-ün "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu çərçivəsində qlobal mənzil böhranına cavab verən yanaşmaların inkişafına dəstək verəcək və əsas diqqəti innovasiya, investisiya və icra məsələlərinə yönəldəcək.

Qeyd edək ki, Biznes və İnnovasiya Mərkəzinin əsas məqsədləri mənzil təminatının real təcrübədə necə həyata keçirildiyini göstərmək və səmərəli əməkdaşlıq və əlaqələndirmə üçün platforma yaratmaqdır. Proqram innovativ mənzil təminatı və əsas xidmətlər üzrə həll yollarının inkişafı ilə məşğul olan özəl sektor nümayəndələrini və digər maraqlı tərəfləri bir araya gətirəcək. Biznes və İnnovasiya Mərkəzinin səhnəsində "Şəhərsalma dəyər zəncirinin praktik tətbiqi" mövzusunda 15 sessiya keçiriləcək. Həmçinin Biznes və İnnovasiya Mərkəzində yeni yaradılmış şirkətlərin və gənc sahibkarların öz innovasiyalarını nümayiş etdirmələri üçün xüsusi məkan - Startap Pavilyonu təqdim olunacaq.

Bütün dünya üzrə 10 ölkədən seçilmiş 14 startap layihəsinin iştirakı edəcəyi pavilyonun məqsədi yeni subyektlərin səsinə səs vermək və həm mənzil təminatının, həm də şəhərsalma problemlərinin həlli üçün miqyaslanan ideyaları ön plana çıxarmaqdır.

Ümumiyyətlə, qlobal miqyasda foruma qatılımın yüksək olması gözlənilir. WUF13-də 178 ölkədən 30 mindən çox iştirakçının qatılması gözlənilir. Tədbirdə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi şəhərsalma, "ağıllı şəhər" və "yaşıl enerji zonası" layihələri beynəlxalq platformada təqdim ediləcək. WUF13 tarixində ilk dəfə Liderlər Sammiti də keçiriləcək.

*Musa BAĞIRLI*
*XQ*

# Türkmənistanla birgə dəniz daşımaları

*"Gadamly" quru yük gəmisi Xəzərdə reysə çıxıb*

**Türkmənistanda inşa olunan "Gadamly" quru yük gəmisi Bakı Beynəlxalq Dəniz Limanına yan alıb. Bu münasibətlə dünən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (ADY) Bakı Beynəlxalq Dəniz Limanında yeni gəminin rəsmi qarşılanma mərasimi keçirilib.**



Mərasimdə çıxış edən ADY sədrinin müavini Arif Ağayev Orta Dəhliz boyunca regional əməkdaşlığın gücləndirilməsi, limanlararası əlaqələrin genişləndirilməsi və Xəzər hövzəsində dayanıqlı nəqliyyat-logistika ekosisteminin formalaşdırılması istiqamətində həyata keçirilən təşəbbüslərin əhəmiyyətini diqqətə çatdırıb.

Bunu əlamətdar hadisə kimi dəyərləndirən sədr müavini Türkmənistanda istehsal olunmuş quru yük daşıyıcısının Xəzər sularında üzməyə başlaması münasibətlə Azərbaycan və Türkmənistandakı həmkarlarına təbriklərini çatdıraraq deyib: "Bu təkcə bir gəminin istehsalı və suya buraxılması deyil, həmçinin bizim əlaqələrimizin daha da sıx olması üçün bir addımdır. Bildiyiniz kimi, Orta Dəhliz artıq bir ciddi alternativə çevrilməyə doğru gedir, onun əhəmiyyəti artır. Və bu dəhliz üzərində olan ölkələrin hər biri öz infrastrukturunu təkmilləşdirməli, artan yük həcminin daşıyacaq bir vəziyyətə gətirməlidir. Biz Azərbaycan Dəmir Yolları olaraq, Bakı Beynəlxalq Dəniz Limanı olaraq öz infrastrukturumuzu genişləndiririk. Əsas dəmir yolu üzərindəki yollar təkmilləşdirilir, yeni lokomotivlər, vaqonlar alınır".

Bakı Dəniz Limanının ötürücülük qabiliyyətinin 150 min TEU təşkil etdiyini bildirən A.Ağayevin sözlərinə görə, hazırda həyata keçirilən tədbirlər nəticəsində dibdərinləşdirmə işləri və yeni alınacaq avadanlıqların köməyilə bu həcm 260 min TEU-ya çatdırılacaq. ADY rəsmisi onu da deyib ki, təmsil etdiyi qurum infrastrukturu genişləndirir, xüsusilə əsas dəmir yolları təkmilləşdirilir, yeni lokomotivlər və vaqonlar alınır.

Qeyd edilib ki, hazırda Bakı və Türkmənbaşı limanları arasında müntəzəm konteyner daşımaları üçün növbəti gəmi istehsal olunur. Orta Dəhlizdə yük daşımaları həyata keçirmək üçün inşa edilən növbəti gəminin adı isə "Mənzil" olacaq: "Bu, əlamətdar hadisədir, Orta Dəhlizə, Avrasiya nəqliyyat marşrutuna artan inamın, etimadın bariz nümunəsidir. "Gadamly" gəmisinin ardınca yaxın aylarda yükqaldırma gücü 240 TEU təşkil edən daha bir gəminin suya buraxılması nəzərdə tutulur. Düşünürəm ki, bu, 2026-cı ilin payız ayının sonlarına təsadüf edəcək. Bir neçə gün öncə limanın heyəti Türkmənbaşıda səfərdə idi və biz Türkmənistan Prezidentinin bilavasitə iştirakı ilə "Gadamly" gəmisini səfərə yola saldıq və bu gün onu qarşıladıq".



Türkmənistanın Azərbaycandakı səfiri Qurbanməmmet Elyasov çıxışı zamanı "Gadamly" quru yük gəmisinin Bakı Beynəlxalq Dəniz Limanına ilk səfərini iki ölkə arasında nəqliyyat-logistika sahəsində əməkdaşlığın inkişafında mühüm hadisə kimi qiymətləndirib. Türkmənistanın Xəzər regionunda tərəfdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu vurğulayan səfir deyib: "Bu gəminin ilk səfərini Bakı Limanına etməsi təsadüfi deyil. Bu, Türkmənistanın qardaş Azərbaycanla ikitərəfli münasibətlərinin inkişafına, xüsusən də nəqliyyat və logistika sahəsində əməkdaşlığın gücləndirilməsinə xüsusi əhəmiyyət verdiyini göstərir və iki qardaş xalqın dostluğunun rəmzidir".

Yüksək səviyyəli danışıqların və görüşlərin Türkmənistan–Azərbaycan əməkdaşlığının gücləndirilməsində əsas rol oynadığını vurğulayan səfir bu baxımdan nəqliyyat da daxil olmaqla bütün sahələrdə strateji və mehriban qardaşlıq münasibətlərinin inkişafına şəxsi töhfələrini və əhəmiyyətli dəstəyini verən Prezidentlər Serdar Berdiməhəmmədova və İlham Əliyevə, eləcə də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, ADY, o cümlədən "Bakı Beynəlxalq Dəniz Limanı" MMC-nin rəhbərliklərinə minnətdarlığını çatdırıb.

"Bakı Beynəlxalq Dəniz Limanı" MMC-nin baş direktoru Eldar Salahov isə bildirib ki, bu il Bakı Limanında aşırılacaq konteynerlərin həcminin ötən illə müqayisədə 13 min TEU çox, yəni 120 min olması hədəflənir. Hazırda isə 4 aylıq aşırma göstəriciləri ilə bağlı operativ məlumatların hazırlandığını vurğulayan baş direktorun sözlərinə görə, Türkmənistan istehsalı olan gəminin istifadəyə verilməsi, 7-ci körpünün fəaliyyətə başlaması limanın konteyner əməliyyatlarının daha sürətli, daha çevik idarə olunmasına xidmət edəcək. Bununla yanaşı, İtaliya istehsalı olan 125 ton yükqaldırma imkanına malik mobil liman kranının istifadəyə verilməsi yükaşırma imkanlarının artırılmasına imkan yaradacaq.

Qeyd edək ki, yükgötürmə qabiliyyəti 6 min 100 ton olan və 240 ədəd 20 futluq konteyner daşımaq imkanına malik "Gadamly" gəmisinin istismara verilməsi Bakı Limanının illik yükaşırma göstəricilərinin artımına da müsbət təsir göstərəcək. Gəmi Bakı–Türkmənbaşı istiqamətində konteyner daşımalarının optimallaşdırılmasına xidmət etməklə yanaşı, Orta Dəhliz üzrə artan yük tələbatının qarşılanmasına əlavə imkan yaradacaq.

Yeri gəlmişkən, "Gadamly" Türkmənistanın Balkan Gəmiqayırma Zavodunda tikilmiş ilk dəniz gəmisidir. Layihənin 2024-cü ilin payızında Cənubi Koreya şirkəti ilə birgə həyata keçirilməsinə başlanılıb. Konteyner daşınması üçün nəzərdə tutulan gəmi Xəzər regionundakı marşrutlarda fəaliyyət göstərəcək. Yerli quru yük gəmisinin suya salınması milli donanmanın inkişafında, dəniz infrastrukturunun modernləşdirilməsində və ölkənin logistika əlaqələrinin genişləndirilməsində mühüm addım kimi qəbul edilir. Onun Xəzər dənizində nəqliyyat əməliyyatlarının bir hissəsinə çevriləcəyi və beynəlxalq marşrutlara daxil olmaqla yükdaşımanın effektivliyini artıracağı gözlənilir.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Cəbrayıl və Zəngilana səfərləri işğaldan azad edilmiş ərazilərimizin dirçəliş salnaməsində daha bir parlaq səhifə kimi yadda qalır. Yağı düşmən tərəfindən viran qoyulmuş yurd yerlərinin müasir şəhər və kəndlərə çevrilməsi, yolların, infrastrukturun, sosial obyektlərin bərpası, yenidən qurulması yeni perspektivlər vəd edir.**

# Böyük Qayıdışın Cəbrayıl və Zəngilan meydanları

*I rübdə azad torpaqlarda 386 milyon manatlıq layihələr gerçəkləşdirilib*








Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşdə ölkə başçısının nitqi aydın təsəvvür yaradır ki, "Böyük Qayıdış" proqramı hərtərəfli olaraq əhalinin rahat yaşamına, bölgənin öz-özünü təmininə və iqtisadiyyata əsaslı dividendlər qazandıracaq.

Şükürbəyliyə rayonun Şıxalıağalı, Dəjəl kəndlərinin və Mahmudlu qəsəbəsinin sakinləri də daxil olmaqla, ümumilikdə, 2 min 522 nəfərin (615 ailə) köçürülməsi nəzərdə tutulur.

İlkin mərhələdə 635 fərdi ev istifadəyə verilib. Kənddə sakinlərin rahat yaşaması və sosial məsələlərin həlli çərçivəsində hər biri 80 yerlik olmaqla 2 körpələr evi-uşaq bağçası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi və yerli icra strukturları üçün inzibati bina tikilib. Şükürbəyli kəndində 35/10 kV-luq elektrik yarımstansiyası da inşa edilib. Elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, həmçinin internet və "İP TV" şəbəkələri yaradılıb.

Əlbəttə, Şükürbəylidə görülən işlər də daxil olmaqla, Cəbrayılın iqtisadi siması göz qamaşdırır. Ölkə başçısının dediyi kimi, azad edilmiş ərazilərdə 2 sənayə zonası planlaşdırılıb ki, bunun 1-i Cəbrayıldadır. Burada yerləşən Araz Vadisi İqtisadi Zonası hazırda Qarabağ və Şərqi Zəngəzurun iqtisadi dirçəlişinin əsas dayaqlarından biri kimi qiymətləndirilir. İranla sərhədə və regionun əsas nəqliyyat marşrutlarına - Zəngəzur dəhlizinə yaxın yerləşməsi bu sənaye parkını gələcək beynəlxalq logistika və ticarət qovşağına çevirir. Gələcəkdə Cəbrayıl, beynəlxalq nəqliyyat dəhlizi üzərində qurulan şəhər və kəndlər bundan faydalanacaq.

Sənaye parkının vəd etdiyi əsas istiqamətlərdən biri minlərlə yeni iş yerinin yaradılmasıdır. Tikinti materialları, logistika, xidmət, kənd təsərrüfatı texnikası, emal və yüngül sənaye sahələrinin inkişafı bölgədə davamlı məşğulluq formalaşdırmağa hesablanıb. Ümumiyyətlə, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 20 rezident və 3 qeyri-rezident qeydiyyatdan keçib. Bu ilin mart ayına qədər parka 43,8 milyon manatdan çox investisiya yatırılıb və 100-ə yaxın iş yeri yaradılıb.

Cəbrayılın bir digər müsbət xüsusiyyəti bərpaolunan enerji mənbələri ilə bağlıdır. Prezidenti İlham Əliyev Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüş zamanı bildirdi ki, Cəbrayılda bizim ən böyük Günəş elektrik stansiyaları inşa edilir: "Üç stansiya, ümumi gücü 340 meqavat. Yəni bu gün 340 meqavatla bütün Qarabağı işıqlandırmaq olar. Amma nəzərə alsaq ki, biz artıq Zəngilanda, Laçında, Kəlbəcərdə 300 meqavatdan çox su elektrik stansiyaları işə salmışıq, təqribən bir-iki il ərzində bu bölgənin Günəş və su potensialı elektrik istehsalı üçün 700 meqavata yaxın olacaq".

Prezident İlham Əliyev mayın 9-da Cəbrayıl rayonunun Soltanlı kəndində "AzərEnerji" ASC-nin 330 kV-luq "Şəfəq" yarımstansiyasının açılışında oldu. Ümumiyyətlə, "Şəfəq" AİŞ, SOCAR və bp arasında imzalanan Səhmdar Sazişi ilə Cəbrayıl rayonunda yaradılmış 240 MVt gücündə Elektrik Stansiyası layihəsidir. Layihə üzrə təxminən 200 milyon dollardan çox investisiya yatırılıb. Bu layihə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ilk sənaye miqyaslı günəş enerjisi layihəsi və ən böyük xarici investisiya layihəsidir.

Qeyd edək ki, "Şəfəq" GES-in illik istehsalı təxminən 500 milyon kilovat/saat olacaq və bu, karbon emissiyasını azaldaraq, enerji qənaətinə kömək edəcək. "Şəfəq" GES, Cəbrayıl rayonunun elektrik şəbəkəsinə enerji ötürəcək, eyni zamanda, Səngəçal terminalının enerji ehtiyaclarını bərpaolunan enerjidən təmin edəcək. Layihə, Azərbaycanın "yaşıl enerji" sektorunu inkişaf etdirmək və ekoloji davamlılığı artırmaq məqsədi daşıyır. Bu stansiya, həmçinin Xəzər regionunda əməliyyat tullantılarının azaldılmasına və ətraf mühitin qorunmasına töhfə verəcək.

Cəbrayılın xoş simasına paralel olaraq Zəngilanda da əhəmiyyətli işlər görülmüşdür. Ölkə başçısının və birinci xanımın buraya səfəri əlamətdarlığı ilə seçilir. İlk olaraq, şəhərdə inşa olunan 104 mənzilli ilk yaşayış kompleksinin açılışı, Böyük Qayıdış proqramının daha bir mühüm mərhələsinin icrası baxımından önəmlidir. Vaxtilə işğalın izlərini daşıyan bu torpaqlarda indi müasir urbanizasiya modeli formalaşır, yeni həyatın ritmi qurulur. Xatırladaq ki, 2022-ci ildə kompleksin təməlqoyma mərasimində də dövlət başçısı və birinci xanım iştirak etmişdilər.

Burada həyata keçirilən ən diqqətçəkən layihələrdən biri "Dost Aqropark"-dır. Zəngilanda yerləşən sözügedən park həm də qardaşlıq simvoludur. Belə ki, buranın təməlini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci il oktyabrın 26-da qoyublar. Bu təsərrüfat layihəsi azad edilmiş ərazilərdə yaradılan ilk kənd təsərrüfatı müəssisəsi kimi çıxış edir.

"Dost Aqropark" 10 min baş cins mal-qara hədəfinə yaxınlaşır və təxminən 6 min hektara yaxın sahədə iş aparılır. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyir. Kompleksində ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulur. Aqropark burada 500 nəfərə iş imkanı yaradır.

Ümumiyyətlə, Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpası və məskunlaşdırılması istiqamətində fəaliyyətini yüksək templə davam etdirir. Cari ilin birinci rübündə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələr üzrə 386,2 milyon manat vəsait istifadə olunub. Bu məbləğ illik nəzərdə tutulan vəsaitin 11 faizinə bərabərdir və əsasən sifarişçi təşkilatların təqdim etdiyi kassa sifariş sənədləri əsasında icra edilib. Daha dəqiq yanaşsaq, "2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinə əsasən, işğaldan azad olunmuş ərazilərin bərpası üçün 3,5 milyard manat vəsait nəzərdə tutulub. Bütövlükdə isə 2020–2026-cı illər ərzində bu ərazilərin bərpasına dövlət büdcəsindən 25 milyard manatdan çox vəsait ayrılıb. Ayrılan resursların böyük hissəsi infrastrukturun qurulmasına yönəldilib ki, bu da regionun uzunmüddətli iqtisadi potensialının formalaşdırılmasına hesablanıb.

Bir məqamı da xatırldaq ki, dövlətimiz artıq növbəti mərhələ üçün də strateji planlaşdırmaya başlayıb. Prezidentin sərəncamına əsasən, 2027–2030-cu illəri əhatə edəcək "Böyük Qayıdışa dair II Dövlət Proqramı" hazırlanır. Bu proqram çərçivəsində yüz minlərlə vətəndaşın doğma torpaqlarına qayıdışı nəzərdə tutulur.

*Nurlan ABDALOV*
*XQ*

*Günün sualı*

# Təqsir santexnikadadır, yoxsa suda?

## *Deyəsən, hər ikisi əhalini ziyana salır*

**Son illər ölkədə yaşayış binalarının sayı sürətlə çoxalıb. Xüsusilə Bakı və Abşeron ərazisində çoxmərtəbəli yaşayış kompleksləri geniş miqyas alıb. Yeni mənzil almaq arzusu ilə yaşayan vətəndaşların əsas məqsədi isə hər zaman rahat, təhlükəsiz və əlverişli yaşayış şəraiti əldə etmək olub. Lakin mənzilə köçən kimi üzə çıxan problemlər nəticəsində bu gözləntilər tez bir zamanda xəyala çevrilir. Bu çətinliklər arasında ən çox üzləşilən narahatlıqlardan biri santexnika avadanlıqlarının qısa müddətdə sıradan çıxması, kranların tutulması, suyun bulanıq gəlməsi və boru xətlərində çöküntü yaranması ilə bağlıdır.**

Maraqlıdır ki, vətəndaşların şikayətləri təkcə ucuz santexnika məhsullarının keyfiyyətsizliyi ilə diqqət çəkmir. Bir çox hallarda, hətta İtaliya və Almaniya kimi ölkələrdən idxal edilən, yüksək keyfiyyətli hesab olunan bu avadanlıqlar belə gözlənilən istismar müddətini tamamlamadan sıradan çıxır. Bu isə problemi daha geniş çərçivədə araşdırmağı zəruri edir.

**Mənzil eksperti Qulu Ağalarovun** fikrincə, məsələ iki əsas çətinliyin üst-üstə düşməsi, yəni bazarda saxta santexnika məhsullarının satılması və binalara verilən suyun keyfiyyətindəki problemlərlə bağlıdır. Yeri gəlmişkən, Azərbaycanda ən keyfiyyətli santexnika məhsulları, əsasən Avropadan, xüsusilə də İtaliya və Almaniyadan idxal olunur. Bu avadanlıqlar uzunömürlüyü, texnoloji yenilikləri, estetik görünüşü və dəqiq mexanizmləri ilə seçilir. Avropa istehsalı olan kranlar, duş sistemləri, unitaz mexanizmləri, suqarışdırıcıları və digər avadanlıqlar, adətən, beynəlxalq standartlara uyğun istehsal edilir və uzun illər problemsiz istismarı nəzərdə tutulur.

Lakin qiymət amili hər zaman həlledici olur. Bu məhsulların baha satılması əhalinin müəyyən hissəsini daha ucuz alternativlərə yönəldir. Bununla da bazarda sertifikatsız, saxta və kustar üsulla hazırlanan məhsulların alıcıları getdikcə çoxalır. Mütəxəssislərin fikrincə, saxta santexnika məhsulları əsasən Çin, Türkiyə və Rusiyadan gətirilir. Bu avadanlıqlar orijinal brendlərin adını təqlid edir, bəzən qablaşdırması belə eyniliyi ilə diqqət çəkir, lakin istehsal materialı və texnologiyası standartlardan çox uzaq olur.

Saxta məhsulların metal tərkibi keyfiyyətsizliyi ilə seçilir, paslanmaya qarşı qoruyucu örtüyü zəif olur, rezin və plastik hissələri tez bir zamanda sıradan çıxır, mexanizmləri isə dəqiqlik tələb edən sistemlərə uyğun gəlmir.

Bu səbəbdən də vətəndaş quraşdırmadan qısa müddət sonra kranın sızması, suyun düzgün tənzimlənməməsi, duş başlıqlarının tutulması, unitaz mexanizmlərinin işləməməsi kimi problemlərlə qarşılaşır. Nəticədə "ucuz məhsul" sakinə daha baha başa gəlir. Lakin məsələ yalnız saxta məhsulla məhdudlaşmır. Çünki bəzi hallarda orijinal məhsul alan vətəndaşlar da eyni problemlərlə üzləşirlər. Bu zaman sual yaranır: Bəs günah yalnız bazardadırmı?

### Su kranı necə "yeyir"?

**Mənzil eksperti Həsən Hüseynov** sualın cavabı ilə bağlı bildirdi ki, santexnika avadanlıqlarının uzunömürlü olması üçün təkcə məhsulun keyfiyyəti kifayət etmir. Əsas şərtlərdən biri də mənzillərə verilən suyun standartlara uyğun gəlməsidir. Belə ki, suyun keyfiyyəti aşağı olduqda, xüsusilə də onun tərkibində qum və palçıq hissəcikləri, pas və metal qalıqları, çöküntü, 



əhənglənmə yaradan maddələr və mikroorqanizmlər nəzərə çarpdıqca, bu, santexnika sistemlərinin mexanizmini qısa müddətdə sıradan çıxara bilir.

Vətəndaşların ən çox şikayət etdiyi problemlərdən biri də məhz suyun bəzən bulanıq gəlməsi, onun içində çöküntü görünməsi və qabların dibində lil qatının əmələ gəlməsidir. Bu hal xüsusilə səhər saatlarında və ya suyun kəsilib yenidən verildiyi zaman daha çox müşahidə olunur. Aparılan analizlər nəticəsində maraqlı fakt üzə çıxır: su, ümumilikdə, şəhər şəbəkəsində və mənzil-tikinti kooperativlərinə qədər məsafədə normal olur, lakin mənzildə keyfiyyətlə bağlı kənara çıxmalar baş verir. Bu isə problemin məhz binadaxili sistemlə əlaqəli olduğunu göstərir.

Yeri gəlmişkən, Bakı şəhərində 2 mindən çox mənzil-tikinti kooperativinin fəaliyyət göstərdiyi bildirilir. Bu kooperativlər binaların idarə olunması, kommunal sistemlərin saxlanılması, su təchizatı qurğularının istismarı və texniki xidmət işlərinə cavabdehdir.

Çoxmərtəbəli binalarda, eyni zamanda, suyun təzyiqini tənzimləmək üçün su çənlərindən istifadə edilir. Bu çənlər demək olar ki, "aralıq anbar" rolunu oynayır. Lakin problem ondadır ki, çənlər vaxtında yuyulmadıqda onların dibinə çöküntü yığılır. Bu çöküntünün tərkibində isə qum, palçıq, pas qalıqları, hətta mikrobioloji çirklənmə elementləri olur.

Bütün bunlarla yanaşı, su çəni düzgün istismar olunmadıqda, xüsusilə də suyun səviyyəsi həddindən artıq aşağı salındıqda onun dibindəki çöküntü suya qarışır. Nəticədə su pompaları çirkli suyu birbaşa mənzillərə ötürür. Bu zaman vətəndaş kranı açanda su bir neçə saat və ya bir neçə dəqiqə ərzində palçıqlı, bulanıq formada gəlir. Problemin 24 saat davam etməməsi isə onun məhz çənlərdən qaynaqlandığını təsdiqləyir.

### Şəbəkənin "kor nöqtələr"i

Ekspertlərin fikrincə, suyun içindəki çöküntü yalnız bir dəfə mənzilə daxil olmaqla bitmir. Çünki bu çirkli hissəciklər binanın kommunikasiya sistemində "kor nöqtələr"də yığılıb qalır. Bu nöqtələr, adətən, boruların dönmə hissələrində, təzyiq tənzimləyici mexanizmlər və bəzi birləşmə yerlərində olur.

Zaman keçdikcə isə çöküntü yığılması boru diametrini daraldır, suyun təzyiqini azaldır, filtr sistemlərini sıradan çıxarır, kran və duş başlıqlarını tutur, santexnika mexanizmlərini cızır və aşındırır. Nəticədə sakin tez-tez usta çağırmalı olur, boruların açılması üçün əlavə xərc çəkir, bəzi hallarda isə ümumi təmirə ehtiyac yaranır.

Suyun keyfiyyətsizliyi dedikdə təkcə palçıq və çöküntü nəzərdə tutulmur. Suyun sərtliyi də yaşanan problemi dərinləşdirir. Belə ki, bu cür suyun tərkibində kalsium və maqnezium duzları yüksək olur, zamanla santexnika avadanlıqlarının daxilində əhəng qatı yaradır. Bunun nəticəsində kranların iç mexanizmi tutulur, kartuşlar sıradan çıxır, duş sistemləri zəifləyir, su qızdırıcıları və kombilər istismar müddətini daha tez başa vurur, eləcə də boruların içi daralır.

Bu isə həm mənzil sahibləri, həm də bina sakinləri üçün əlavə xərc və narahatlıq deməkdir. Sərt su xüsusilə bahalı avadanlıqlara daha tez təsir göstərir, çünki bu avadanlıqlar dəqiq mexanizmlər üzərində qurulduğundan kiçik çöküntü belə onların işləmə qabiliyyətini azaldır. Bu cür vəziyyətdə yaranan mənzərə göstərir ki, vətəndaş santexnika probleminə görə ikiqat ziyana düşür.

Əvvəla, bazarda saxta məhsullar geniş yayıldığı üçün sakinin aldığı ucuz məhsul tez sıradan çıxır. İkincisi, hətta keyfiyyətli məhsul aldıqda belə suyun çirkli olması onun istismar müddətini azaldır. Nəticədə, vətəndaş tez-tez avadanlıq dəyişir, usta xərcləri çəkir, mənzildə yenidən təmir aparır və əlavə filtr sistemləri quraşdırmağa məcbur qalır. Bu vəziyyət isə ailə büdcəsinə ciddi təsir göstərir.

Su çənlərinin təmizlənməsi məsələsinə gəldukdə isə ekspertlər bildirirlər ki, bu, dövlət standartlarında əksini tapır. Lakin bir sıra hallarda kooperativlər bu tələblərə əməl etmir. Səbəb isə bəzən laqeydlik, bəzən isə xərclərdən yayınmaqla bağlı olur. Halbuki su çənlərinin vaxtında yuyulması həm sanitar təhlükəsizlik, həm də mənzillərin avadanlıqlarının qorunması baxımından zəruri sayılır.

Bu gün suyun çirklənməsi texniki problem olmaqla bərabər, həm də ictimai sağlamlıq məsələsidir. Çünki çirkli su həm məişət avadanlıqlarını sıradan çıxarır, həm də insan sağlamlığı üçün ciddi narahatlıq yaradır. Bəs həll yolu nədir? **Ekspert Nadir Zeynalovun** qənaətincə, problemin həlli üçün bir neçə istiqamətdə tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə, kooperativlər üçün su çənlərinin mütəmadi təmizlənməsi məcburi qaydada nəzarətə götürülməli, bu proses formal yox, real icra olunmalıdır.

Bundan başqa, bazarda saxta məhsullara qarşı mübarizə gücləndirilməli, sertifikatsız santexnika məhsullarının idxalı və satışı ciddi nəzarətdə saxlanılmalı, istehlakçının aldadılmasının qarşısı alınmalıdır. Eyni zamanda, maarifləndirmə yolu ilə insanlara ucuz məhsulun qısa müddətdə daha baha başa gəldiyi və keyfiyyətli avadanlıq seçməyin uzunmüddətli iqtisadi baxımdan daha sərfəli olduğu anladılmalıdır. Nəhayət, bina girişlərində filtr sistemlərinin tətbiqi diqqət mərkəzində saxlanılmalıdır. Belə halda çöküntülərin mənzillərə daxil olması minimuma enə bilər.

Beləliklə, hazırda ölkədə santexnika avadanlıqlarının tez-tez sıradan çıxması təkcə ucuz və saxta məhsulların bazarda yayılması ilə bağlı deyil. Bu, həm də mənzillərə verilən suyun keyfiyyəti ilə əlaqədardır. Belə ki, əgər bina daxilində su çənləri vaxtında təmizlənmirsə, çöküntü yığılırsa və su pompaları həmin çöküntünü mənzillərə ötürürsə, deməli, bu, istənilən santexnika avadanlığının ömrünü də qısaldır. Nəticədə problem bir tərəfdən istehlak bazarında saxta məhsulların getdikcə artması, digər tərəfdən isə kooperativlərin məsuliyyətsiz idarəçiliyi ilə daha da dərinləşir. Vətəndaş isə nəticədə həm pulunu, həm də rahat yaşayış şəraitini itirir. Buna görə də şəhər infrastrukturunda, bina idarəçiliyində və istehlak bazarında daha sərt nəzarət mexanizmləri tətbiq edilməlidir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Dövlət qurumunun anbarlarında saxlanılan suyun keyfiyyəti ilə bağlı heç bir problem yoxdur. Mən suyun təmizlənməsi, saxlanması ilə bağlı respublikanın sutəmizləyici qurğularında monitorinq keçirərək vəziyyətin normal olduğu qənaətinə gəlmişəm. Bu fikrin təsdiqi olaraq qeyd edim ki, içməli suyun keyfiyyətinə mənbələrdən başlayaraq istifadəçiyə verilənə qədər müxtəlif mərhələlərdə ciddi nəzarət olunur.

Təhlükəsizliyə və keyfiyyətə nəzarət su mənbələrində aparılan laborator müayinələr ilə başlanır. İl ərzində toplanaraq analiz edilən monitorinq nöqtələri və bununla bağlı müvafiq göstəricilər haqqında məlumatlar dövlət standartının tələblərinə uyğun gəldiyi təsdiqlənir. Su nümunələri müxtəlif nöqtələrdən – mərkəzi və məhəllədaxili su anbarları, magistral boru xətləri və paylayıcı şəbəkələr, məktəblər, bağçalar, xəstəxanalar, ictimai iaşə və digər obyektlərdən götürülür. Mərkəzləşmiş su təchizatı sistemində epidemioloji dövlət nəzarətini Səhiyyə Nazirliyinin müvafiq qurumu yerinə yetirir.

Önəmli olan hal isə normal infrastrukturun yaradılmasıdır. Nə qədər ki, suötürücü boruların dəyişdirilməsinə başlanılmayıb, bu hadisələr yez-tez yaşanacaq. Bu vəziyyətdən istifadə edən su filtrçiləri isə guya evlərdə monitorinq keçirir və heç bir sertifikatı olmayan, saxta yollarla düzəltdikləri qurğuları sakinlərə satırlar.

Yeri gəlmişkən, hazırda Bakı şəhəri və Abşeron yarımadasında yaranan tullantı suları bioloji üsullarla Hövsan, Buzovna, Mərdəkan-Şüvəlan və mexaniki üsul ilə isə Sahil, Zığ təmizləyici qurğularında təmizləndikdən sonra Xəzər dənizinə, regionlarda isə 26 sayda bioloji və 4 sayda mexaniki üsulla təmizləyici qurğularında təmizləndikdən sonra müxtəlif su obyektlərinə axıdılır. Adıçəkilən bioloji üsullarla təmizləmə aparan qurğuların hər birində təmizləmə prosesinə nəzarət etmək üçün istehsalat laboratoriyaları fəaliyyət göstərir. Təmizlənmiş tullantı sularının tərkibində zərərli və çirkləndirici maddələrinin yolverilən qatılıq hədləri müvafiq dövlət standartına əsasən tənzimlənir.

Mənzillərə paylanılan suda problem olmasına gəldikdə isə bunun əsas səbəbi yeni çoxmərtəbəli tikililərin su anbarlarında yığılıb saxlanılan və sonradan mənzillərə paylanılan həmin suyun keyfiyyətsizliyi ilə bağlıdır. Hətta bizdə olan məlumatlara görə, bu anbarlar vaxtlı-vaxtında təmizlənmədiyindən suyun içində ölmüş həşəratlar belə nəzərə çarpır. Mən yeni binalarda yaşayan sakinlərə tövsiyə edirəm ki, vaxtaşırı həmin su anbarlarına nəzarət etsinlər və heç olmasa, ildə bir dəfə təmizlənməsinə nail olsunlar.

*76 il əvvəl bu gün*

**Formula 1 dünyanın ən möhtəşəm idman növlərindəndir. Çempionat hər il keçirilir və Qran-Pri statusu daşıyan ayrı-ayrı mərhələlərdən ibarətdir. Yarışın keçirilmə tarixinə nəzər salsaq görərik ki, əslində, Formula 1 yarışlarının kökləri XX əsrə qədər uzanır. Belə ki, Avropada 1900-cü illərin əvvəllərindən başlayaraq avtomobil yarışları keçirilib. 1930-cu və 1940-cı illərdə isə bu yarışları vahid çempionatda təşkil etmək məqsədi daşıyan bir neçə görüş keçirilsə də, İkinci Dünya müharibəsinin başlaması bu planlara mane olub. Müharibə başa çatdıqdan sonra isə Beynəlxalq Avtomobil Federasiyası (FIA) bir sıra qaydalar toplusunu standartlaşdıraraq, sürücülər üçün çempionat keçirib.**

# Formula 1 – Bakıdan dünyaya açılan pəncərə

## *Avtomobil çempionatının 1-ci yarışı 1950-ci ildə keçirilib*

Beləliklə, ilk dünya çempionatının birinci yarışı 1950-ci il mayın 13-də Böyük Britaniyanın Silverstoun şossesində baş tutub. Bununla yanaşı, bu idmanın yaranmasından bəri dünyanın hər yerindən olan sürücülər Fransa, İngiltərə və İspaniya kimi Avropa ölkələrində Qran-prilərdə yarışıblar. Çempionatda sürücülər dünya çempionu titulu, komandalar isə Mühəndislər Kuboku uğrunda mübarizə aparırlar.

1950-ci ildə keçirilən Formula1 mövsümü 113 gün davam edib və sentyabrın 3-də başa çatıb. Çempionatda 16 komanda iştirak edib, onlardan 5-i zavod və 11-i müstəqil olub. Müsabiqənin bir başqa texniki qayda üzrə keçirilməsinə baxmayaraq, Dünya kuboku çempionatına daxil olan altı Avropa Qran-Pri və bir "American Indianapolis 500" yarışından ibarət idi. Və yalnız Amerikanın komandaları, dizaynerlər, pilotlar iştirak edib.

Formula 1-də komandalar hər bir yarışa özlərinin hazırladığı şassi ilə çıxsalar da, hər bir komandanı iki sürücü təmsil edir, sürücü çempionatda iştirak etmək üçün Beynəlxalq Avtomobil Federasiyasından Super Lisenziya almalıdır.



2016-cı ildən etibarən davam edən yarışın şəhərimizə və ölkəmizə iqtisadi, sosial və mədəni əhəmiyyəti danılmazdır. Xəzər dənizinin sahilində yerləşən, Hermann Tilke tərəfindən hazırlanmış 6 kilometr uzunluğunda və 20 döngədən ibarət Bakı Şəhər Halqası həmişə yaddaqalan yarışlara ev sahibliyi etməklə populyar məkana çevrilib. Yarış treki şəhərin ən görməli yerlərindən keçirilir. Trek Bakının müasirliyini və qədimliyini, həmçinin Xəzərin əsrarəngiz gözəlliyini təqdim etmək üçün əla imkanlar açır. Bakı şəhər halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçısı UNESCO-nun ümumdünya mədəni irs siyahısına daxil olan İçərişəhəri, Qız qalasını, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görə bilirlər.

İqtisadi inkişafımız da məhz belə tədbirlərin Azərbaycanda keçirilməsinə geniş imkanlar açıb. Ölkəmizdə kifayət qədər idman yarışları da keçirilib ki, bu da dünyanın idman nəbzinin Bakıda döyünməsinə səbəb olub. Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma müşahidə olunub və bu gün də belədir. Hər zaman gözlənilməz anlarla dolu olan Formula 1-in Azərbaycan Qran-Prisi həm xarici medianın, həm də azarkeşlərin sevimlisinə çevrilib.

**Milli Məclisin deputatı Azər Allahverənov** XQ-yə mövzu ilə bağlı bildirib ki, şübhəsiz ki, Formula 1-in mühüm əhəmiyyəti



var və istənilən dövlətin "vizit kartı"na çevriləcək yarışdır. Bu, həqiqətən də ümüdünya mahiyyətli tədbirdir. Uzun illərdir ki, Bakıda keçirilir və həmin vaxt dünyanın diqqəti paytaxtımıza yönəlir. Sırf bu nöqteyi-nəzərdən yarışın ölkəmizdə keçirilməsi və bir daha tanıdılması baxımından vacibdir. 1950-ci ilin mayın 13-dən etibarən keçirilən yarışlara ev sahibliyi etmək uğrunda rəqabət bu gün də var. İqtisadi cəhətdən güclü dövlətlər də bu işdə maraqlıdırlar və çalışırlar ki, yarışlar məhz onların ölkələrində keçirilsin. Bir neçə parametrinə görə, bu yarış olduqca əhəmiyyətlidir. Şübhəsiz ki, burada ölkənin imici olduqca vacib məqamdır. Bu tip yarışlara ev sahibliyi etmək istəyən dövlətlər o qədər özlərinə əmin və təşkilatçılığı yüksək səviyyədə həyata keçirmək iqtidarında olmalıdırlar ki, belə bir əhəmiyyətli tədbiri qarşılaya bilsin. Azərbaycanın da beynəlxalq yarışları keçirmək üçün böyük təcrübəsi var. Birinci Avropa, İslam Həmrəylik Oyunları və digər beynəlxalq səviyyəli yarışların ölkəmizdə keçirilməsi Azərbaycanın təşkilatçılıq baxımından yüksək səviyyədə olmasından xəbər verir.

Yarışlar həm siyasi, həm də iqtisadi baxımdan çox əhəmiyyətlidir. Formula 1 də məhz böyük bir həcmdə gəlir gətirən yarışlardandır. İqtisadi cəhətdən deyəndə, bura çoxsaylı turist və küllü miqdarda kapital axınının Azərbaycana daxil olması həm də maliyyə bazarında dayanıqlılıq baxımından da olduqca vacibdir. Texnoloji baxımdan da yeniliklərin şahid oluruq. Bu tip yarışların keçirilməsi istər-istəməz turizm sektorunun və sənayesinin birbaşa olaraq inkişafına təsir edir. Və burada infrastrukturun qurulması, mehmanxana şəbəkəsinin təşkili, sonra bir qısa bir müddət ərzində on minlərlə turistə xidmətlərin göstərilməsi baxımından restoran şəbəkəsi və iaşə müəssisələrinin bir çevik bir mexanizm formatında işləməsini mütləqdir. Azərbaycanda ildən-ilə təkmilləşməkdə olan bu tip təşkilati işlər, xüsusilə də idman yarışlarının təşkili və digər dövlət əhəmiyyətli tədbirlərin həyata keçirilməsi olduqca vacibdir. Və bu təkmilləşmə işləri yarışlar keçirildikdən sonra verilən müsahibələrdə, şərhlərdə, bildirilən rəylərdə hər zaman yüksək səviyyədə vurğulanır. Bu da təbii ki, bütövlükdə dövlətimizin, xalqımızın əldə etdiyi çox vacib uğurlardandır.

24–26 sentyabr 2026-cı il tarixlərində keçiriləcək Azərbaycan Qran-Prisi təqvimin ən həyəcanverici şəhər treklərindən biri kimi növbəti dəfə bütün dünyanın diqqət mərkəzində olacaq. Bu möhtəşəm yarış yüksək sürət və gərgin mübarizəsi ilə seçiləcək. Şəhərin tarixi memarlığı ilə müasir infrastrukturunu birləşdirən unikal ab-havası dünyanın ən güclü pilotlarını, elit komandaları və on minlərlə beynəlxalq qonağın diqqətini cəlb edəcək. Komandalar dünya üzrə 800 milyondan çox Formula 1 azarkeşi üçün performans sərgiləyərək Bakının mərkəzində unudulmaz yarış təcrübəsi təqdim edəcəklər.

Bir faktı da qeyd edək ki, Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2026 üçün könüllü proqramına qeydiyyat mərhələsi rekord göstərici ilə yekunlaşıb. Cəmi 72 saat ərzində 49000 müraciətin daxil olması Azərbaycan Qran-Prisi tarixində qeydə alınmış ən yüksək nəticə olub. Bu rəqəm müqayisə üçün 2024-cü ildə 16000, ötən il isə 31000 təşkil edib. Ən önəmlisi isə bu yarışlar gənclərimiz üçün böyük bir örnəkdir. Azərbaycan gənci bu yarışlara baxaraq öz Vətəninin dünyada söz sahibi, hər sahədə uğur qazanmaq gücünə malik olduğuna inanır.

Formula 1 təkcə sürət və mübarizə simvolu deyil, həm də Azərbaycan dövlətinin əzmini, iradəsini və qalibiyyət ruhunu təcəssüm etdirir. Sözsüz ki, dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula 1 Avropa Qran-Prisinin paytaxtımızda keçirilməsi ölkəmizin həm də beynəlxalq idman ictimaiyyətində qazandığı uğurun və nüfuzun göstəricisidir.

***Müşfiq MİRZƏ***
***XQ***

# Çağdaş gəncliyin dünyası və dünyaya baxışı

## *BDU jurnalistika fakültəsi tələbələrinin yaradıcılıq təqdimatı*

## “Diplom”lar qapı arxasında qalmasın

**“Diplom xatirinə oxumaq” problemi, sadəcə, tələbələrin şəxsi seçimlərindən qaynaqlanan məsələ deyil. Bu, bütöv cəmiyyətin formalaşdırdığı, illərdir ki, davam edən və kökləri daha dərinə gedən bir problemdir.**



Çox vaxt gənclər universitetə öz maraqlarına və bacarıqlarına görə deyil, “hamı oxuyur, mən də oxumalıyam” düşüncəsi ilə daxil olur. Nəticədə, təhsil gəncliyin zəruri inkişaf tələbatı kimi deyil, sadəcə, həyatın formal mərhələsi olaraq qəbul edilir. Unudulur ki, hər bir gəncliyin gələcək həyatına yön verən bilik və bacarıqdır. Diplom isə bu dəyəri təsdiq edən rəsmi sənəd kimi sahibinin təhsil zamanı əldə etdiyi peşə-sənətin yararlığı ilə dəyər qazanır.

Bu problemi dərinləşdirən amillərdən biri ailənin təzyiqidir. Ata-analar övladına ali təhsil almağı mütləq bir hədəf kimi aşılayır və bunun sosial status olduğuna inanırlar. Övlad isə çox vaxt özünü bu gözləntini doğrultmağa məcbur hiss edir. Lakin marağı olmadığı ixtisasa yönəldilmiş tələbə ali məktədə bilik qazanmaq üçün deyil, imtahanlardan keçib diplom almaq üçün gedir. O nələrisə əzbərləməyə məcbur olur, sevmədiyi və seçmədiyi ixtisasla bağlı düşünmə və yaradıcı bacarıq əldə etmək isə arxa planda qalır.

Məsələnin digər tərəfi universitetlərin özündədir. Bir çox təhsil müəssisəsində dərslər hələ də nəzəriyyə üzərində qurulur, təcrübi bacarıq qazanmaq üçün imkanlar isə məhduddur. Zaman keçir, tələbə diplom alır, amma çaalışdığı sahədə çətinlik çəkir, az-çox öyrəndiklərinidən də yararlana bilmir. Bu isə onun tutduğu vəzifənin öhdəsindən gəlməməsi kimi qəbul edilir.

İşəgötürənlər artıq diplomla kifayətlənmirlər: əmək bazarında bilik, bacarıq, analitik təfəkkür və təşəbbüskarlıq tələb olunur. Bu tələbat doğruldulmayanda “diplom” dəyərdən düşür. Təbii ki, bunun acısını ən çox gənclər çəkirlər. Çünki diplom alındıqdan sonra real həyat başlayır. Müsahibədə sadə sualla qarşılaşan gənc cavab verə bilməyəndə özünə olan inamı itir. O, təhsil illərinin boş keçdiyini düşünür və psixoloji gərginlik yaşayır.

Əslində, problem onda deyil, təhsil sistemin illərdir ki, həyatın tələbindən geri qalmasındadır. Deməli, ixtisas təhsili kağız üstündə status qazanmaq üçün deyil, gənclərin özünü dərk etməsinə, bacarıqlarını üzə çıxarmasına və həyatda öz yerini tapmasına imkan yaratmasına xidmət etməlidir. İxtisas biliyi və təcrübi bacarıq olmadığı yerdə diplom kəsərsiz sənədə çevrilir və məşğulluğa qapı aça bilmir.

Bu problemin həlli üçün cəmiyyətin düşüncə tərzi dəyişməlidir. Çağdaş təhsil mütəxəssisləri göstərirlər ki, diplom deyil, bacarıq zəruri sayılmalıdır. Gənclər ixtisas seçərkən öz maraq və həvəslərinə üstünlük verməli, valideynlər övladlarının ilkin bacarıq və peşə maraqlarını nəzərə almalıdırlar. Ali məktəblər ixtisasın nəzəriyyəsi ilə yanaşı, onun təcrübədə necə gerçəyə çevrilməsini də aşılamalıdır. İşəgötürənlər isə gələcək işçilərinin təhsilinə qayğı ilə yanaşıb onların faydalı təcrübə keçmələrinə, özlərini əməli fəaliyyətə hazırlamalarına geniş imkan yaratmalıdırlar.

Çağdaş ixtisaslı kadr hazırlığı bu üçbucaqda səmərəli ola bilər. Zəruri dəyişikliklər yalnız bir hədəfə yönələndə gözlənilən nəticəni verə bilər. Təhsil, əslində, insanın özünü formalaşdırdığı ən vacib dövrdür. Tələbə seçilmiş ixtisası necə mənimsəyə bilər? İxtisası sevmək, ona bağlanmaq və bu sahədə özünü inkişaf etdirmək üçün tələbələrin müəyyən addımlar atması vacibdir. O anlamalıdır ki, heç bir ixtisas özü-özlüyündə maraqlı və ya darıxdırıcı deyil: onu maraqlı edən insanın həmin sahə ilə necə təmas qurmasıdır.

Seçilən ixtisasa az-çox bələd olmamaq qaranlıqda addım atmağa bənzəyir. Təhsil dövründə isə ixtisasın təcrübi tərəfləri inkişaf etdirilməlidir. Gələcək iş mühitini müşahidə etmək, ixtisasa uyğun tədbirlərə, vebinarlara, seminar və təcrübə proqramlarına qatılmaq tələbəni həm həvəsləndirir, həm də gələcək fəaliyyəti barədə təsəvvürləri dolğunlaşdırır.

Digər mühüm addım ixtisasla bağlı fərdi layihələr həyata keçirməkdir. Çünki insan öz əli ilə bir iş ortaya qoyduqda həmin sahəyə münasibəti köklü şəkildə dəyişir. Bir jurnalistika tələbəsi kiçik reportaj hazırlaya, psixologiya tələbəsi qısa araşdırma yaza, iqtisadiyyat tələbəsi bazar analizi edə bilər. Belə təşəbbüslər həm bilikləri möhkəmləndirir, həm də ixtisasın praktikada necə işlədiyini hiss etdirir. Gənc bu prosesdə həm uğurlarını, həm də çatışmazlıqlarını görərək inkişaf istiqamətini müəyyənləşdirir.

Problemin həlli ilə bağlı müzakirələrdə bildirilir ki, tələbə ixtisasını yalnız dərs materialı kimi deyil, geniş bir perspektivin qapısı kimi görməlidir. Bunun üçün həmin sahədə uğur qazanmış insanların həyat yolunu öyrənmək, onların şəxsi təcrübələrinə baxmaq çox ilhamverici ola bilər. Məşhur mütəxəssislərin kitablarını oxumaq, müsahibələrini izləmək, onların hansı çətinliklərdən keçərək nailiyyət əldə etdiyini görmək gəncin motivasiya mənbəyinə çevrilir.

İxtisası sevmək üçün tələbə həm də özünü bu sahənin bir parçası kimi hiss etməlidir. Bu, yalnız dərsləri dinləməklə mümkün olmur. Müəllimə suallar vermək, müzakirələrdə iştirak etmək, araşdırma aparmaq, ixtisas üzrə nüfuzlu adamların həyat yolunu və təcrübəsini izləmək və tədris prosesinə yaradıcı yanaşmaq tələbəni seçdiyi yola möhkəm bağlayır.

Hər ixtisasın geniş alt sahələri var və tələbə özünü həmin sahələrdən birində daha rahat hiss edə bilər. Faydalı maraq çox vaxt belə axtarışlarda yaranır. Tələbə nə qədər çox maraqlansa, o qədər çox məlumat öyrənir: nə qədər çox başa düşsə, o qədər çox sevir. Nəticədə o, işəgötürənlərin məmnunluğunu diplomla deyil, bundan da önəmli olan bilik-bacarıqla qazanır.

*Çinarə TARVERDİYEVA,*
*III kurs tələbəsi*

## Milli kinonun yönü hayanadır?

**Azərbaycan kinosunun zəngin tarixi və formalaşmış ənənəsi olsa da, müstəqillik dövründən sonra onun inkişafı çətinliklər və ciddi problemlərlə müşayiət olunub. Vəziyyəti dəyişmək üçün dövlət dəstəyi artır, yeni filmlər çəkilir. Lakin bu artım keyfiyyətli və davamlı kino uğuruna çevrilmir.**

Son illərdə kino istehsalında nəzərəçarpacaq canlanma müşahidə olunur. Tammetrajlı bədii filmlər, sənədli layihələr və müxtəlif janrlı ekran işləri hazırlanır. Lakin bu rəqəmlər real kino uğuru ilə eyni məna daşımır. Çünki kino yalnız istehsal deyil, həm də güclü ssenari, peşəkar rejissor işi, effektiv prodüserlik və düzgün tamaşaçı əlaqəsi tələb edən sənaye sistemidir.



Bu mənzərəni daha aydın göstərmək üçün son illərin istehsal göstəricilərinə nəzər salmaq kifayətdir. Rəsmi məlumatlara əsasən, son 10 ildə 50-dən çox tammetrajlı bədii film, eyni sayda qısametrajlı film, 200-ə yaxın sənədli ekran işi və 20-dən artıq uşaq filmi istehsal olunub. Kağız üzərində bu, kino istehsalında artım deməkdir. Lakin bu artım beynəlxalq nüfuz və davamlı uğurla paralel şəkildə inkişaf etmir.

Azərbaycan kinosu zaman-zaman beynəlxalq festivallarda təmsil olunsa da, bu uğurlar sistemli xarakter daşımır. Müxtəlif illərdə “Özgə vaxt”, “Sarı gəlin”, “Ovsunçu”, “Buta”, “Axınla aşağı”, “Nabat” kimi filmlər mükafatlar qazanıb. Sonrakı dövrdə isə “Daxildəki ada”, “Xurmalar yetişən vaxt”, “Biləsuvar” və “Çılpaq” kimi ekran işləri Sarayevo, Moskva Premyera və İstanbul kimi festivallarda müəyyən uğurlar əldə edib.

Bununla belə, Azərbaycan kinosunun dünya miqyasında, xüsusilə də “Academy Awards” səviyyəsində davamlı uğur qazana bilməməsi diqqətçəkən məqamlardandır. 2024-cü ildə çəkilən “Tağıyev: Neft” filmi isə “Oscar” namizədi kimi beynəlxalq aləmə təqdim edilib. Belə filmlərin müxtəlif festivalların seçmə mərhələlərində yer alması müsbət göstərici olsa da, bu tendensiya, hələ ki, davamlı kino nüfuzuna çevrilə bilmir.

Ən ciddi problem ssenarilər ilə bağlıdır. Kino mühitini izləyən mütəxəssislərin ümumi qənaətinə görə, Azərbaycan kinosunda mövzu və ideya çatışmazlığı yoxdur. Lakin onların dramaturji baxımdan işlənməsi zəifdir. Bu baxımdan alman jurnalist Günter Vallrafın məşhur fikri diqqət çəkir: “Əgər mən Türkiyədə yaşasaydım, orada bir gündə baş verən hadisələrlə 1 illik qəzet çıxarardım”. Bu fikir Azərbaycan üçün də keçərlidir. Sadəcə, bu mövzuları görmək və sənət gerçəyinə çevirmək lazımdır.

Rejissor yanaşması ilə bağlı vəziyyət də oxşardır. Bir çox filmlərdə müəllif baxışı aydın formalaşmır, vizual həll və dramatik quruluş bir-birini tamamlamır. Bu isə həm beynəlxalq festivallarda, həm də yerli auditoriya qarşısında filmin təsir gücünü azaldır.

Digər mühüm məsələ tamaşaçı ilə kino arasındakı əlaqənin zəifləməsidir. Filmlər çox vaxt ya rəsmi istehsal prosesinin tələblərinə uyğun hazırlanır, ya da festivalyönümlü düşüncə ilə çəkilir. Lakin geniş tamaşaçı kütləsinin zövqü və gözləntiləri çox zaman ikinci plana keçir. Nəticədə kino istehsalı ilə real izləyici arasında məsafə yaranır.

Prodüserlik və marketinq sistemi isə bu zəncirin ən zəif halqalarından biri kimi görünür. Film hazırlandıqdan sonra onun tanıdılması, yayımı və bazara çıxışı sistemli şəkildə qurulmur. Bir çox layihələr yalnız çəkiliş mərhələsində qalır, ekran həyatı isə qısa və təsirsiz olur.

Kino sənayesinin iqtisadi modeli də dayanıqlı deyil. Mövcud vəziyyətdə istehsal daha çox dövlət dəstəyi və layihə əsaslı maliyyələşmə ilə həyata keçirilir. Lakin bu model uzunmüddətli perspektivdə sənayenin özünü maliyyələşdirməsi üçün kifayət etmir. Dünya kino bazarında “Netflix”, “Peacock” kimi platformaların formalaşdırdığı sabit gəlir mexanizmi olduğu halda, yerli bazarda tamaşaçıların filmə ödənişli marağı zəifdir. Bu isə kino sənayesinin iqtisadi dayanıqlılığını sual altına alır.

Bütün bunlar göstərir ki, problem təkcə istehsalın artıb-azalması ilə ölçülmür. Kino bir sistemdir və bu sistemin bütün halqaları eyni vaxtda işləməlidir: ssenari, rejissor, prodüser, marketinq və tamaşaçı mədəniyyəti.

Nəticə isə aydındır: kino var, istehsal var, hətta maliyyə dəstəyi də mövcuddur. Lakin bu resurslar, hələ ki, davamlı kino uğuruna çevrilə bilmir. Bu isə onu göstərir ki, əsas məsələ kəmiyyət yox, keyfiyyətdir.

Azərbaycan kinosunun inkişafı üçün, ilk növbədə, ssenari yaradıcılığı gücləndirilməlidir. Bunun üçün mütəmadi ssenari müsabiqələri və peşəkar ssenari inkişaf laboratoriyalarının yaradılması vacibdir. Eyni zamanda kino istehsalının yalnız dövlət dəstəyindən asılılığını azaltmaq üçün milli prodüserlik sistemi formalaşdırılmalı, müstəqil prodüserlər üçün iqtisadi stimullar tətbiq edilməlidir.

Digər mühüm məsələ janr müxtəlifliyidir. Kino yalnız festivalyönümlü yox, həm də tamaşaçı marağına uyğun — komediya, detektiv və tarixi janrlarda inkişaf etməlidir.

Nəhayət, filmlərin yayımı və tanıdılması üçün rəqəmsal platformalar və marketinq sistemi gücləndirilməlidir. Çünki kino yalnız çəkilməklə yox, izlənilməklə də dəyər qazanır.

*İlhamə NURƏHMƏDOVA,*
*III kurs tələbəsi*

## Mötəbər mövqe, yoxsa ötəri məşhurluq?



**Bir vaxtlar uğur deyəndə ağla ilk gələn sabit l iş, aylıq maaş və illərlə pillə-pillə yüksələn karyera idi. Valideynlər övladlarına “daimi iş tap”, “dövlət qulluğuna get” kimi tövsiylər verirdilər. Lakin müasir dövrdə bu yanaşma əvvəlki kimi birmənalı qəbul edilmir.**

Bu gün gənclərin böyük bir hissəsi üçün uğur anlayışı təkcə diplom və ofis işi ilə ölçülmür. Sosial media platformaları – xüsusilə TikTok, Instagram və YouTube – gənclərə daha sürətli tanınmaq və özünü ifadə etmək imkanı yaradır. Qısa müddətdə geniş auditoriyaya çıxmaq, təsir gücü qazanmaq və maddi gəlir əldə etmək artıq üstün dəyərlər kimi görünür.

**Psixoloq Aytən Qasımova qeyd etdi ki, uğur təsadüfi deyil, daha çox düzgün seçimlərin nəticəsidir:**

– Uğur qazanmaq düzgün ixtisas seçimi və gerçək karyera planından asılıdır. Sosial media və rəqəmsal mühit gənclərin düşüncə tərzinə ciddi təsir göstərib. Sosial media və sosial şəbəkələrin həyatımızda mühüm rolu var. Bu da gənclərin gələcək karyera fikirlərinin formalaşmasına güclü təsir edir.

**Mütəxəssis ənənəvi və müasir uğur modelləri arasındakı fərqi belə izah etdi:**

– Ənənəvi karyera üçün illərlə oxumaq, təcrübə toplamaq çox vacib idi və bilirdik ki, bunun sonunda böyük uğur hissi bizi gözləyir. Amma sürətlə dəyişən dünyada uğur anlayışı və bu uğura münasibət daha çox fərdi xarakter daşıyır. Sosial müqayisələri də gənclərin düşüncəsinə təsir edir. Valideynlərin övladlarını başqaları ilə müqayisə etməsi ilk baxışda təsirsiz görünsə də, bu, xüsusilə yeniyetməlik və gənclik dövründə verilən mühüm qərarlara təsir edir.

Bu müqayisələr gəncdə iki formada özünü göstərə bilər – ya rəqabət hissi yaradır, ya da qısqanclıq. Bu gün uğur artıq hamı üçün eyni məna daşımır. Bəziləri üçün bu, stabil həyat və peşəkarlıqdırsa, digərləri üçün azadlıq, yaradıcılıq və sürətli tanınmaqdır. Sosial psixologiya baxımından isə bu dəyişiklik sosial təsir və sosial təsdiq ehtiyacı ilə bağlıdır. İnsanlar uğuru yalnız daxili meyarlarla deyil, cəmiyyətin reaksiyası – “bəyənmə”lər, izləyici sayı və diqqət ilə də ölçməyə başlayıblar. Bununla belə, sürətli populyarlığın davamlı olub-olmaması sual altındadır.

**Müsahibimiz sonda qeyd etdi ki, qısa müddətli uğur tez əldə olunsa da, onu qoruyub saxlamaq daha çətin olur:**



– Sabit karyera daha uzun yol tələb etsə də, dayanıqlı nəticələr və təminat vəd edir. Nəticə etibarilə, gənclərin uğur anlayışının dəyişməsi bir problemdən çox, yeni reallığın göstəricisidir. Seçimlərin çoxalması fərdiləşməni artırır. Əsas məsələ isə hansı yolu seçmək deyil, bunun nə qədər məqsədyönlü və davamlı olmasıdır. Çünki uğur yalnız sürətlə əldə edilən nəticə deyil, həm də itirilməyən dəyərdir.

*Fatimə MƏMMƏDLİ,*
*III kurs tələbəsi*

## “Evdən iş”in üstünlüyü və gələcəyi

**Son illərdə dünyada sərbəst saatlı işlər və uzaqdan iş modelləri əmək bazarının nəzərəçarpan hissəsinə çevrilib. Azərbaycanda da bu istiqamətə maraq və ehtiyac artsa da, onun inkişafı hələ tam formalaşmayıb. Bunun əsas səbəbi həm hüquqi, həm də iqtisadi mühitin tam uyğunlaşmamasıdır.**

**Mövzu ilə bağlı Hüquqi və Demokratik İslahatlar Mərkəzinin sədr müavini, sosioloq Elçin Bayramlı bildirdi:**

– Hər ölkənin öz iqtisadi modeli var. Azərbaycan iqtisadi münasibətlər sistemi də əsasən bütöv işlər – tam iş günü üzərində qurulub. Təbii ki, Azərbaycanda da müqavilə əsaslı, müəyyən müddətli, mövsümi, saat hesabı işləyənlər var. Əsasən bu, ticarət və xidmət sahələrində olur. Amma bu işəgötürənlərə çox da sərf etmir. Çünki işçini rəsmiləşdirdikdə onun vergisini, sosial sığorta ödənişlərini, tibbi sığorta ödənişlərini və s. ödəməli olur və bu da iş saatını nəzərə aldıqda sərbəst saatlı işlərdə işəgötürənə problem yaradır.

İşçini qanuni işçi kimi rəsmiləşdirməyəndə isə artıq bu hal işçilərə sərf etmir. Həmin şəxslərin gələcəkdə pensiya hüququ olmur, tibbi sığortadan istifadə edə bilmirlər. Ona görə də, bəzi yerlərdə xidmət müqaviləsi əsasında işlər olur. Bunlar da müddətli olur, adətən 3 ay, 6 ay, 1 il ərzində davam edir. Bu işlər konkret bir layihə, hər hansı bir proqram üzrə olur.

Amma daimi fəaliyyət göstərən müəssisələr daimi işçilərin olmasında daha maraqlıdırlar. Çünki bir işçi öz sahəsində davamlı işləməlidir ki, təcrübə qazansın. Və bütün il boyu bu sahəni idarə edə bilsin. Ümumiyyətlə, sərbəst saatlı işlər iş yerlərinin, işçilərin sayının çox olduğu ölkələrdə daha çox rast gəlinir. Bizdə hələ ki, işsizlərin sayı iş yerlərindən çoxdur. Ona görə çox da tələbat yoxdur”.

**Müsahibimiz daha sonra qeyd etdi ki, məsafədən iş həm işəgötürənlər, həm də işçi üşün sərfəli və faydalı olmalıdır:**



– Belə olmayanda “qanunsuz iş” məsələsi gündəmə gəlir. Bu halda da işçilərin əmək hüquqları pozulur. Ümumiyyətlə, bu sahənin inkişafı üçün əmək qanunvericiliyində ciddi dəyişikliklər olmalı, vergilərdə, sosial sığortada sərfəli şərtlər yaradılmalıdır ki, işəgötürənlər işçini rəsmiləşdirməkdə maraqlı olsunlar. Azərbaycanda son dövrlərə milyonlarla insan faktiki əmək fəaliyyəti göstərib, amma adına sosial sığorta keçirilməyib – yəni qeyri-rəsmi işləyib.

Belə işlərin ölkəmizdə inkişaf etməsi üçün mütəxəssislər təkliflər verməli, dünyada sınaqdan keçmiş təcrübələrdən istifadə edilməlidir.

*Fatimə ASLANOVA,*
*III kurs tələbəsi*

# I Ümumittifaq Türkoloji Qurultay milli mətbuatda

*(əvvəli qəzetin 11, 15, 21 aprel və 2 may 2026-cı il tarixli saylarında)*

## "Yeni yol" qəzeti, 4 mart səhər iclası

## Əlifba haqqında məruzə üzərinə mübahisə

**Kosijev yoldaşın çıxışı**

Kalmık cümhuriyyəti mümənssili Kosijev yoldaş qurultayı kalmık xalqı tərəfindən təbrik edib dedi ki, kalmıklar mükəmməl yeni əlifba axtarırkən, yuxarıdan aşağı, yazmaq prinsipindən rus yazısına keçdilər. Fəqət indi ümumtürk-tatar xalqları üçün vahid əlifbaya keçmək lüzumundan irəli gələrək onlar digər qardaş xalqların qəbul edəcəkləri əlifbaya keçməyə razıdırlar.

Natiqin zənninə görə ən hazır və mükəmməl əlifba latın əlifbasıdır.

Qaraçaylılar mümənssili İslam Qaraçaylı və çuvaşlar mümənssili Sabaşkin və İvanov latın əlifbası faydasına çıxışda bulundular.

* * *

**Kalmık nümayəndəsi Kosijev:** Kalmık xalqının əvvəlcə rus yazısına keçdiyini, amma indi türk-tatar xalqları üçün vahid əlifbanın zəruriliyi səbəbindən digər qardaş xalqların qəbul edəcəyi latın əlifbasına keçməyə razı olduqlarını vurğulayır. O hesab edir ki, latın əlifbası ən hazır və mükəmməl seçimdir. Qaraçaylı və çuvaş nümayəndələr: İslam Qaraçaylı (qaraçaylılar), Sabaşkin və İvanov (Çuvaşlar) latın əlifbasının üstünlüklərini müdafiə edərək, onun faydalı olduğunu bildirirlər.

**Korkmazov yoldaşın çıxışı**

Sonra latın əlifbasını müdafiə üzrə Korkmazov yoldaş atəşin bir nitq söyləyərək dedi: "Əlifba məsələsi texnika və mədəniyyət məsələsidir. İslahçılar yeni əlifbadan öz məqsədləri üçün bir texniki alət kimi istifadə etmək istəyirlər. Bizim istəyimiz nədir?

Biz texnikaya malik olmaq və zəhmətkeş kütlə üçün məsələnin həll edilməsini arzu edəriz.

Biz bu aləti bizi istismar edən düşmənlərimiz olan imperializm və kapitalizmin əlindən almaq istəyiriz. Bundan istifadə etməklə biz texnikamızın yüksəlməsi və bizi bu və ya digər şərtlər daxilində olaraq qecmələrə çakdırmağa və bəşəriyyətlə bərabər addım atmaqla bəşəri olmağımız arzusundayız.

* * *

Korkmazovun çıxışı əlifba məsələsini sırf qrafik və ya dilçilik problemi kimi deyil, texnika, mədəniyyət və siyasi mübarizə kontekstində izah edir. O, islahçıların əlifbaya instrumental yanaşmasını tənqid edərək, latın əlifbasını zəhmətkeş kütlənin maariflənməsi və texniki inkişafın demokratikləşdirilməsi vasitəsi kimi təqdim edir. Nitqdə texnologiyanın imperializm və kapitalizmin inhisarından çıxarılması ideyası ön plana çəkilir; yeni əlifba bu mənada, mədəni müstəqillik və sosial bərabərlik aləti kimi şərh olunur.

Beləliklə, bu çıxış göstərir ki, qurultayda latın əlifbasının müdafiəsi təkcə praktik səmərəlilik arqumentlərinə deyil, həm də sosialist ideologiyasına uyğun olaraq "ümumbəşəri tərəqqiyə qoşulma" ideyasına əsaslanır. Əlifba seçimi burada milli mədəniyyəti qorumaqla yanaşı, onu dünya mədəni və texniki inkişafı ilə eyni ritmdə hərəkət etdirən strateji qərar kimi dəyərləndirilir.

**Ağamalıoğlunun çıxışı**

Sonra Ağamalıoğlu çıxışda bulunaraq latın əlifbası əleyhinə olanlara və xüsusən kazaklara etiraz etdi. "Yeni əlifbanın qəbulu ilə 500 illik ədəbiyyatı itirəriz" deyən kazaklar bilməlidirlər ki, digər qonşu cümhuriyyətlər, o cümlədən Azərbaycanın da özünəməxsus keçmişdən ədəbiyyatı vardır. Qardaş rus xalqı da yeni əlifba qəbul edərkən keçmişdən ayrılmaq fikrində öz ədəbiyyatına zərər vermədi.

Əksinə olaraq ümumi savadlılıq yolu ilə ədədbiyyatı canlandırmaq və onu xalq malı etmək mümkündür. Bunu isə savadın yayılışı işini yüngülləşdirən əlifba dəyişməsi işi ilə yapmak mümkündür.

Ağamalıoğlu yoldaş ərəb əlifbasının yarımçıq islahının yararlı olmadığını sübut üçün Azərbaycanda teatro sahəsində görülən tədbiri məlum etdi. O da qadın yoxluğunda səhnədə qadın yerinə erkəyin oynaması idi ki, erkəklərin qadın rolunda çıxmasını qadağan etməklə, inqilabçılıqla onu bərtərəf etdik.

İndi ərəb əlifbasının da başında bu facianə komediya vardır. Kazanlı yoldaşlarımız ərəb əlifbasının dəyişməsilə bir tərəfdən əskilik ilə əlaqə saxlamaq, digər tərəfdən müasir ehtiyacı təmin etmək arzu edirlər. Onlar mümkün olmayan şey yapırlar.

Ağamalıoğlu ərəb əlifbasının elmi surətdə yaramazlığını sübut edərək ərəbçilərin tarixdən və millətdən ayrılma deyə sübutlarına keçir. Bu prinsip doğrudur. Fəqət bu prinsipi daha kölgədə bırakan proletariya inqilabi yaradıcılığının böyük dövrüdür.

Bu dövrün tələbi zəhmətkeş kütləsinin mənafeyi, bəşəriyyətin bərabərliyi və köləliyin məhvidir.

Bununla Türkoloji Qurultayın on üçüncü iclası qapanır.

* * *

Bu parça qurultaydakı latın əlifbası müdafiəsinin ideoloji və praktik əsaslarını açıq şəkildə göstərir. Ağamalıoğlu çıxışında iki əsas məqamı vurğulayır:

**1.** Keçmişə bağlılıq arqumenti – Kazakların "500 illik ədəbiyyatı itirərik" iddiası əsaslı deyil. O göstərir ki, digər türk-tatar cümhuriyyətləri və hətta rus xalqı da keçmiş ədəbiyyatını qoruyaraq yeni əlifbaya keçmişdir. Burada mesaj budur: tarixi mirasın qorunması əlifba dəyişməsinə mane olmamalıdır,; əksinə, ədəbiyyatı daha geniş kütləyə açmaq və onu xalq malı etmək üçün vasitədir.

**2.** Ərəb əlifbasının praktik və elmi yararsızlığını Ağamalıoğlu teatr nümunəsi ilə vurğulayır, teatrda qadın rolunu kişilərin oynaması kimi absurd məhdudiyyətlər, ərəb əlifbasının yarımçıq islahı ilə müqayisə edilir. Ərəb əlifbasını dəyişdirməyə çalışmaq həm keçmişlə əlaqə saxlamaq, həm də müasir ehtiyacı ödəmək istəyi ilə qeyri-mümkün bir işdir.

Çıxışın ideoloji tərəfi isə proletar inqilabının sosial və bəşəri tələbləri ilə bağlıdır: əlifba dəyişikliyi yalnız texniki və mədəni addım deyil, həm də zəhmətkeş kütlənin maraqlarını, bərabərliyi və köləliyin ləğvini təmin edən inqilabi tədbirdir.

Ağamalıoğlu çıxışı ilə göstərir ki, latın əlifbası həm elmi-mədəni, həm sosial-siyasi, həm də inqilabi məqsədlərə xidmət edən optimal vasitədir, ərəb əlifbasına sadiqlik isə həm praktik, həm də ideoloji cəhətdən köhnəlmişdir.

## Mübahisə

İclas Cəbiyevin sədrliyi ilə açılır. Mübahisələr davam edir.

İclas Tatarıstan cümhuriyyətinin mümənssili Alimcan Şərəfin çıxışı ilə açılır. Alimcan Şərəf latın əlifbası tərəfdarlarının bəzi sübutlarını yalana çıxarır. Natiqlərin göstərdikləri rəqəmlərin doğru olmadığını irəli sürərək professor Jirkov, Yakovlev və nəhayət, azərbaycanlılar əleyhinə çıxır.

Azərbaycanın əldə etdiyi təcrübə təhkikə jayandır. Hərgah başqa cümhuriyyətlərdə digər istiqamət, cərəyan vardırsa, o, məzgur yol ilə getməlidir.

**Ömər Əliyev yoldaşın çıxışı**

Ömər Əliyev yoldaş uzun sürən nitqində Şərəf yoldaşın sübutlarını yalana çıxarır. Onun 40 tələbə ilə təyin etdiyi elmi prinsiplər latın hərfləri üçün çoxdan təyin edilmişdir. Yazısı latınlaşdırıldıqda qəbul etdiyimiz əsas prinsiplər bunlardır:

**1.** Dildəki hər bir səs üçün bir işarə təyin etmək.

**2.** Bu işarələr ya latın və ya bəzi xətlərlə qayrılmış olmalıdır.

**3.** Siyasi təsəvvüratla rus hərfləri kullanmamalı.

**4.** Məzgur dilə daxil olan xarici sözlər üçün işarə təyininə yol verməməli.

**5.** İşarələr arasında eyniyyət (bənzətmək) olmamalıdır.

**6.** Xətt altında və ya üstündə işarə qoymaqdan qaçmalı.

**7.** Bir səs üçün iki və ya üç hərfdən qaçmalı.

**8.** Hər latın işarələrinə mümkün olduqca onun əsl əhəmiyyətini göstərməli.

**9.** Səssiz hərfləri göstərmək üçün xüsusi hərf təyin etməli və bütün mədəni dillərdə olduğu kimi, o hərf 2 dəfə təkrar olunmalıdır.

**10.** Sözün əvvəlində və axırında gələn səssiz hərflərin sabitliyi üçün xüsusi işarələr qoymamalı.

**11.** Bənzər və yaxın səsləri ayırmaqdan ötrü xəttin altında və üstündə işarələr az olmalı və olacağı təqdirdə onun şəklinin asan olmasına fikir verilməlidir.

Natiq sonra latın əlifbasının xüsusiyyətindən danışaraq göstərir ki, bu, internasionaldır. Bütün Qərbi Avropa, Amerika, Avstraliya və əqrəba xalqlardan yakutlar, macarlar, albanlar, türk çərkəzlər, osetinlər və Türkiyənin mədəni xalqları, Hindistan, Misir, Mərakeş bu əlifbadan istifadə edir. İkinci olaraq, bu əlifba müasir pedaqoji və orfoqrafiya elmlərinin tələbinə cavab verir.

Nəhayət, üçüncü, nəşriyyat işinin iqtisadi və ucuzlaşmasıdır.

* * *

Ömər Əliyev çıxışında göstərir ki, hər səsə bir işarə təyin etmək latın əlifbasının fonetik dəqiqliyini təmin edir. Bu, müasir fonologiyanın prinsiplərinə uyğun yanaşmadır, çünki hər səsin tək bir simvolla ifadəsi yazının öyrənilməsini sürətləndirir və səhv oxuma riskini minimuma endirir. Əlavə olaraq: xarici sözlər üçün xüsusi işarələrin qadağan olunması dilin morfoloji və fonetik bütövlüyünü qoruyur; hərflərin alt və üstündə işarələrin azaldılması və bənzər səslərin vizual olaraq ayırd edilməsi oxuma sürətini və vizual tanınma asanlığını artırır.

Bu prinsiplər, lingvistik normalar və pedaqoji metodika baxımından əlifbanın müasir təlim-tədris üçün optimallaşdırıldığını göstərir:

*– Latın əlifbası nəşriyyat texnikası üçün uyğundur. Bu, tipoqrafiya və çap texnologiyası ilə əlaqədar real bir elmi-texniki arqumentdir. Ərəb əlifbasının mürəkkəb bağlanmaları və nöqtələri çap prosesini çətinləşdirir, xərcləri artırır, latın sistemi isə texniki baxımdan sadə və universal bir alətdir.*

*– Latın əlifbasının beynəlmiləl xarakteri vurğulanır. Bu, mədəni və qlobal inteqrasiya arqumentidir: dil yalnız kommunikasiya vasitəsi deyil, həm də elm və mədəniyyətin paylaşılması üçün bir vasitədir.*

*– Latın əlifbasının tətbiqi savadlanma müddətini qısaldır (ərəb əlifbası ilə müqayisədə). Bu, təhsil səmərəliliyinin artırılması və əhalinin ümumi savadlılıq səviyyəsinin yüksəldilməsi baxımından əhəmiyyətlidir.*

*– Sosial arqument – əlifba inqilabı yalnız yazı sisteminin dəyişməsi deyil, həm də zəhmətkeş kütlənin mədəni və ictimai inkişafı üçün bir vasitədir. Bu, sovet ideologiyasının dil siyasəti ilə uyğunlaşır, yeni əlifba milli mədəniyyətin qorunması ilə bərabər, həm də sosialist transformasiyanı gücləndirir.*



***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

Ömər Əliyevin çıxışı ərəb əlifbasının fonetik və texniki çatışmazlıqlarını vurğulayır, lakin burada tarixi və mədəni-mənəvi itkilər məsələsi bir qədər arxa plana çəkilib. Yəni qədim ədəbiyyatın qorunması və keçmişin mədəni irsinin əlifba dəyişikliklərindən nə dərəcədə təsirlənəcəyi tam elmi təhlil olunmayıb. Latın əlifbasının "universallığı" arqumenti qismən ideoloji rəng daşıyır – Avropa və Qərb xalqları ilə əlaqə vurğulanır, lakin bu yanaşma dil siyasəti və mədəni müstəqillik arasında tarazlığın akademik baxımdan daha dərindən analizini tələb edir.

Ömər Əliyevin çıxışı linqvistik, pedaqoji və texniki arqumentləri sistemləşdirir, latın əlifbasının tətbiqinin elmi əsaslarını göstərir. Bu çıxış həm fonetik uyğunluq, həm tədris səmərəliliyi, həm də texniki və qlobal inteqrasiya baxımından müasir əlifba islahatlarının legitimliyini təsdiq edir. Elmi-akademik baxımdan mətn dilçilik, təhsil və texnologiya perspektivlərini birləşdirir, lakin tarixi-mədəni riskləri və keçmiş ədəbiyyatın qorunmasını daha dərindən analizetmə ehtiyacı qalır.

**Professor Jirkovun çıxışı**

Əlifba məsələsi ərəb əlifbasının çıxarılması və latın əlifbasına keçirilməsi məsələsi deyildir. Ərəb əlifbası yaşayır və uzun zaman da yaşayacaqdır. Latın əlifbası da həyata keçir və yaşayacaqdır. Bunun üçün məsələyə varlığı ilə baxmalı və onun nöqsan və həyatiliyi bulunmalıdır.

Şərəf yoldaş ərəb əlifbasının yaxşı tərəflərini irəli sürdüsə də, məruzəsi yenə sübutlu çıxmadı. Bu, Şərəfin təqsiri deyildir, ərəb əlifbası özü yararlıqdan az-çox məhrumdur.

Kazanlılar üçün gətirilən sübutlar azərbaycanlılar üçün sübut olmaz. Azərbaycanda təcrübə görülür. Bu təcrübə yalnız bu yığıncaq üçün deyil, Yaponiya və Çin üçün də maraqlıdır. Bunu nəhayətə qədər təcrübələrin nəticəsi meydana çıxana qədər aparmaq lazımdır. İnsanlıq nöqteyi-nəzərindən bu təcrübəyə yardım etmək lazımdır.

Bəlkə, yanılıram, fəqət bunun müvəffəq olmasına sübutlar vardır. Bu təcrübələr yalana çıxarılacağı zaman mənim dediyimi də yalana çıxarmaq mümkündür.

* * *

Mətn vurğulayır ki, ərəb əlifbası və latın əlifbası bir-birinin əleyhinə deyil, hər ikisi yaşayır və yaşamalıdır. Burada əsas arqument "varlıq və funksionallıq prinsipi"dir: əlifbanın qiymətləndirilməsi onun məcburi əvəzlənməsi ilə deyil, praktik yararlılığı və çatışmazlıqları əsasında aparılmalıdır. Bu, akademik baxışda əlifba siyasətinə daha obyektiv yanaşma sayılır: təkcə ideoloji və ya tarixi arqumentlərlə deyil, dilin fonetik, texniki və pedaqoji ehtiyacları ilə ölçülür.

Qeyd edilir ki, Şərəf yoldaş ərəb əlifbasının üstün tərəflərini irəli sürsə də, sübutlu nəticə əldə edilmədi. Burada əsas akademik fikir budur ki, ərəb əlifbasının yararlılığı məhduddur, xüsusilə fonetik uyğunluq və tədris, geniş kütləyə öyrədilməsi baxımından. Bu, əslində, eksperimental və müqayisəli dilçilik metodologiyasına uyğun yanaşmadır: bir əlifbanın müsbət cəhətləri olsa da, tətbiqi təcrübələr nəticəsində effektivliyi ölçülməlidir.

Mətn göstərir ki, müxtəlif regionlarda fərqli nəticələr əldə olunur. Bu arqumentlər Azərbaycanda keçərli olmaya bilər. Deməli, dil və mədəniyyət spesifikliyi nəzərə alınmalıdır. Əlifba islahatının uğuru regional praktikaya və xalqın savad səviyyəsinə bağlıdır. Yanaşma lokal təcrübə metodologiyası kimi dəyərlidir və qlobal nəticələr çıxarmazdan əvvəl yerli sınaqların aparılmasını tələb edir.

Vurğulanır ki, təcrübə yalnız bu yığıncaq üçün deyil, Yaponiya və Çin kimi digər mədəniyyətlər üçün də maraqlıdır. Buradan iki dəyər alınır:

*– Eksperimental nəticələrin paylaşılması qlobal elm prinsiplərinə uyğundur.*

*– İnsanlıq və təhsil perspektivi: əlifba islahı yalnız texniki yox, həm də sosial və humanist məqsəd üçün aparılmalıdır.*

Bu, lingvistik inqilabın yalnız milli yox, beynəlxalq faydaları olduğunu göstərir.

**Professor Yakovlevin çıxışı**

Şərəfin sübutlarını təhlil edərək Yakovlev göstərir ki, sübut olmadığı halda sübut etmək adətdir. Şərəf deyir ki, professor Yakovlev və Jirkovun qəlbində ruslaşdırma sirri vardır. Şərəfin dedikləri yanlışdır, burada Şərq xalqlarının irəli gəlmiş işçiləri də vardır ki, latın əlifbası fikrini müdafiə edirlər. Yalnız mənim nəşr olunan əsərlərim deyil, Şimali Qafqaziyada fəaliyyətim də bunu göstərir. Biz orada təcavüz zamanı daxil olan və xalqın milli ruhuna müvafiq olmayan rus əlifbasını atdıq. O zamandan bəri latın əlifbası nöqteyi-nəzərində duraraq bu fikri irəli sürəcəyiz.

Burada maraqlı bir şey göstərmək istəyirəm. Başqırdlar latın əsaslı hərflərə keçməyi qərara almışlar; tarixə baxarsaq, başqırdlar Kazan türklərinin ədəbiyyatının təsiri altında olmuşlar. Bu göstərir ki, Kazan kimi mədəniyyət mərkəzi tərəfindən keçirilən ərəb əlifbası mədəni nüfuzu altında olan başqırdların torpağına keçmədi.

Milli yazıların inkişafı tarixi məsələsində professor göstərir ki, bu yaxın zamana qədər türk-tatar xalqları torpağında ərəb, rus və latın əsaslı hərflərlə məşğul olan adamlar bulunacaqdır. Rus əlifbası müsəlman olmayanlar arasında intisar tapacaqdır; müsəlman dünyasında isə latın əsasları tətbiq olunacaqdır. O, nisbətən əvəz edilmişdir. Bu yaxında latın əlifbası mühüm yer tutacağı Qırğızıstan, Başqırdıstan, Türkmənistandır. Təbii ki, əlifba məsələsini bu gün həll edib, yarın həyata keçirmək mümkün deyil.

Nəticədə, professor göstərmişdir ki, əlifbanın tərəqqisi türk xalqlarının öz əllərinə alıb, hazırlaşacaqları zatən mümkündür. Bu yolun əsası qurulmuşdur. Moskovda Şərq xalqlarının dilini və mədəniyyətini öyrənən Komitə təşkil olunmuşdur. Burada türk şöbəsi də vardır. Elmi işçiləri hazırlamaqdan ötrü komitəyə stependiya verilmişdir. Komitə bu stependiyaları millətlərin özündən gələn namizədlərə verilməsini qərara almışdır. Vəqt müsaidəsindən irəli gələrək hələlik 20 nəfər qəbul edilmişdir.

Gələn payızdan isə adi hala keçəcəkdir. Bunun sizin üçün böyük əhəmiyyəti vardır. Siz öz aranızdan güc qüvvələri ayırmalısınız. İştə bu zamandan etibarən aranızda canlı və səmərəli əlaqə ola bilər.

Bununla mübahisə bitir.

* * *

Qurultayda əlifba məsələsi, sadəcə, ərəb əlifbasından latın əlifbasına keçmək deyil, tarixi, mədəni və texniki zərurət baxımından qiymətləndirilmişdir. Şərəf ərəb əlifbasının üstünlüklərini vurğulasa da, onun türk dillərinin fonetik tələblərinə cavab vermədiyi göstərildi. Yakovlev və digər tənqidçilər sübutların kifayət etmədiyini qeyd etdilər. Latın əlifbasının üstünlüyü səs-hərf uyğunluğu, sadə yazı sistemi, pedaqoji uyğunluq və nəşriyyatın asanlaşdırılması ilə əsaslandırıldı. Regional təcrübələr (Azərbaycan, Başqırdistan, Şimali Qafqaz) göstərdi ki, latın əlifbası geniş türk xalqları üçün həm praktik, həm də mədəni baxımdan effektivdir. Əlifba islahatı yalnız texniki alət kimi deyil, xalqın savadlılıq və mədəni inkişaf yolu kimi nəzərdən keçirilməlidir və bunun üçün mərkəzləşdirilmiş elmi dəstək və yerli ekspertlərin iştirakı vacibdir.

Mətn göstərir ki, Şərəfin sübutları kifayət qədər əsaslı deyildi və Yakovlev bunu "sübut olmadığı halda sübut etməyə çalışmaq" adəti kimi qiymətləndirir. Bu, akademik baxışda həqiqi elmi arqumentlərin vacibliyini vurğulayır: hipotez və iddialar empirik və ya tarixə əsaslanmalıdır. Şərəf isə ideoloji motivasiya və ruslaşdırma təsirini əsas gətirir. Burada qeyd edilir ki, təkcə ideoloji arqumentlər deyil, həm də praktik regional təcrübələr (məsələn, Şimali Qafqazdakı fəaliyyət) latın əlifbasının faydalılığını sübut edə bilər. Bu, siyasi və elmi arqumentlərin toqquşması məsələsini ortaya qoyur və akademik baxımdan maraqlı nümunədir: elmi diskussiya ilə ideoloji mövqelər bir-birinə qarışır. Latın əlifbasının tətbiqi yalnız texniki yox, həm də sosial və mədəni əsaslarla dəstəklənməlidir. Aydın olur ki, əlifba məsələsi təkcə bir günə həll edilə bilməz. Bu, dil və təhsil islahatlarının uzunmüddətli və mərhələli xarakterini vurğulayır. Latın əlifbasının tərəqqisi türk xalqlarının öz təşəbbüsü ilə aparılması zəruridir, amma bunun üçün mərkəzləşdirilmiş dəstək vacibdir – dil siyasətində planlı, elmi və sosial yanaşmanın önəmini göstərir.

Mətn vurğulayır ki, əlifbanın tərəqqisi artıq başlanmışdır və türk xalqlarının öz təşəbbüsü ilə davam etdirilməsi mümkündür.

**Korkmazov yoldaşın çıxışı**

Korkmazov yoldaş Azərbaycan nümayəndələri və Zaqafqaziya, Özbəkistan, Qırğızıstan, Dağıstan, Türkmənistan, Yakutstan cümhuriyyəti və Şimali Qafkaziya muxtar vilayətləri olan Qaraçay, Balkar, Kabardin, Çeçen, Adıgey-Çərkəz adından aşağıdakı təklifi irəli sürmüşdür:

**1.** Yeni türk əlifbasının ərəb və islah edilmiş ərəb əlifbasından yaxşılığı, texniki üstünlüyü və ərəb əlifbasına nisbətən böyük mədəni-tarixi tərəqqi üçün əhəmiyyətini nəzərə alan qurultay əlifbanı ayrı-ayrı türk-tatar cümhuriyyət və vilayətlərində hər bir cümhuriyyət və xalqın öz qaydası arzusu ilə olaraq keçilməsini lazım bilir.

**2.** Bununla əlaqədar olaraq, qurultay Azərbaycanda və Şuralar İttifaqının başqa cümhuriyyətlərində (Yakutiya, Qaraçay, Çərkəz, Kabardin və s.) yeni türk əlifbasına keçirilməsinə müsbət əhəmiyyəti görmək idi. Şuralar İttifaqının yuxarıda göstərilən cümhuriyyətlərdəki işi qeyd etməklə təbrik edir.

Qurultay türk-tatar xalqlarını öz aralarında da bunu keçirməkdən ötrü Azərbaycan, başqa cümhuriyyət və vilayətlərin təcrübə və metodlarını öyrənməsini lazım bilir.

Şərəf yoldaş da aşağıdakı qətnamə prosesini təqdim edir:

**1.** Hər iki – ərəb və latın əlifba sisteminin türk dillərinə xidmət edə biləcəyini.

**2.** Azərbaycanda latın sisteminin türk dillərinə tətbiqi sahəsində və Tatarıstanda da əski ərəb əlifbasının islahı yolunda görülən böyük işləri etiraf etməklə bu və ya digər sistemin türk dilləri üçün lüzumu məsələsinin həllini açıq burakmalı.

**3.** Heç olmasa, bu vaxta qədər ərəb sistemindən istifadə edən bütün türk dilləri üçün vahid hərf sistemi tətbiq edilməlidir ki, bu da İkinci Türkoloji Qurultay tərəfindən həll olunmalıdır.

**4.** İstər ərəb, istər latın sistemli bütün türk dilləri üçün bir əlifba düzəltməkdən ötrü biri islahçılardan, digəri latınçılardan olmaq üzrə iki komision təşkil olunmalıdır.

Ərəb xəttində isə islahın qəti prinsipləri seçilməsi və nisanlar arasında uyuşma olmalıdır.

Bundan sonra sədr elan edir ki, Korkmazov yoldaşın oxuduğu qətnaməyə başqırd nümayəndələri də ilhaq olunurlar.

Bu bəyanat alqışlara bais oldu.

Qətnamələr səsə qoyuldu.

Yeni əlifba əleyhinə olan qətnamə 101 səs aldı. Şərəfov yoldaşın qətnaməsi 7 səs aldı. 9 nəfər bitərəf qalmışdır.

Qətnamələri redaktə etməkdən ötrü 25 nəfərdən ibarət bir komisionun təşkil təklifi qəbul olunur. Bu komisiona Korkmazov, Cəbiyev, professor Yakovlev, professor Jirkov, Berdiyev, Məmmədzadə, Rəhmanov, Tyuryakulov, Tınıstanov, Baytursın, Şərəf, İbrahimov, Pavlov, İnaqamov, professor Çobanzadə, Sabaşkin, Sabirov, Əliyev, Maqsudov, Baraxov yoldaşlar seçilirlər.

Qurultay nümayəndələri məşhur türk şairi Nəvainin türk dövlət bürosunda 500 illik şənliyinə dəvət olundular.

Qurultay iclası bununla qapanır.

* * *

Bu mətn qurultayın əlifba məsələsində normativ qərar mərhələsini əks etdirir və müzakirələrin artıq ideoloji polemikadan hüquqi nəticəyə keçdiyini göstərir. Korkmazovun təklifi latın əsaslı yeni türk əlifbasının texniki üstünlüyünü və mədəni-tarixi tərəqqi baxımından effektivliyini əsas götürərək onu mərkəzdən məcburi deyil, respublikaların öz iradəsi və təcrübəsi əsasında tətbiqini tövsiyə edir. Bu yanaşma sovet milli siyasətinin "formaca milli, məzmunca müasir" prinsipinə uyğundur. Şərəfin alternativ qətnaməsi isə kompromisçi və prosesi təxirə salan xarakter daşıyır: ərəb və latın sistemlərinin paralel mümkünlüyü, vahid sistemin gələcək qurultaya ötürülməsi və ikili komissiya modeli təklif edilir. Səsvermənin nəticələri qurultayda latın əlifbasının üstün mövqe qazandığını, islahçı ərəb əlifbası xəttinin isə marginal qaldığını elmi-statistik şəkildə təsdiqləyir.

Komissiyanın yaradılması əlifba keçidinin elmi əsaslarla, kollektiv ekspertiza yolu ilə həyata keçiriləcəyini göstərir. Mətn, bütövlükdə, əlifba məsələsinin artıq elmi, pedaqoji və texniki konsensus müstəvisinə keçdiyini və Türkoloji Qurultayın bu sahədə tarixi qərarverici institut rolunu oynadığını nümayiş etdirir.

Bu mətn 1926-cı il Bakı Türkoloji Qurultayı çərçivəsində yeni türk əlifbası məsələsi ətrafında aparılan müzakirələrin ideoloji, elmi və siyasi mahiyyətini əks etdirir. Korkmazovun irəli sürdüyü təkliflər Sovet hakimiyyətinin türk-tatar xalqları arasında əlifba islahatı vasitəsilə mədəni modernləşmə və inzibati vahidləşmə siyasətini açıq şəkildə nümayiş etdirir. Yeni türk (latın əsaslı) əlifbasının ərəb əlifbasına nisbətən texniki və mədəni üstünlüklərinin vurğulanması, əlifba məsələsinin təkcə dilçilik problemi deyil, eyni zamanda mədəni-tarixi tərəqqi aləti kimi dərk edildiyini göstərir. Bu yazı, eyni zamanda, Sovet məkanında türk xalqlarının dil siyasətində vahidlik və mərkəzləşmə meylini ortaya qoyur. Ayrı-ayrı respublika və muxtar vilayətlərin təcrübəsinin qarşılıqlı şəkildə öyrənilməsinin tövsiyə olunması, əlifba islahatının regional təşəbbüslərdən çıxarılaraq, ümumittifaq miqyasına daşınmasına xidmət etmişdir. Bu kontekstdə, Azərbaycan nümunəsinin xüsusi qeyd olunması Bakının latınlaşma prosesində pilot mərkəz rolunu oynadığını təsdiqləyir.

Alimcan Şərəfin təqdim etdiyi alternativ qətnamə isə qurultay daxilində əlifba məsələsinə daha ehtiyatlı və plüralist yanaşmanın mövcudluğunu göstərir. Həm ərəb, həm də latın əlifbalarının türk dillərinə xidmət edə bilməsi fikri, elmi kompromis axtarışının ifadəsidir. Lakin səsvermənin nəticələri bu mövqenin siyasi və ideoloji baxımdan zəif dəstək qazandığını ortaya qoyur və latınyönlü xəttin faktiki olaraq üstünlük təşkil etdiyini sübuta yetirir. Nəticə etibarilə, mətn Türkoloji Qurultayın yalnız dilçilik toplantısı olmadığını, eyni zamanda, Sovet milli siyasətinin mühüm ideoloji platformalarından biri kimi fəaliyyət göstərdiyini nümayiş etdirir. Əlifba məsələsi burada türk xalqlarının gələcək mədəni istiqamətini müəyyənləşdirən strateji qərar mexanizmi kimi çıxış edir.

***(ardı var)***

# Şuşaya bayraq sancan qəhrəman

**Vətən müharibəsində Böyük Zəfərimiz şərəfli olduğu qədər, Şuşanın alınması bu epopeyanın ən parlaq səhifəsi sayılır. Xalqımıza məhz Şuşada Qələbə sevincini yaşadan qəhrəmanlardan biri də Yaşar Hüseynovdur. O 26 ildir ki, Azərbaycan Ordusunda xidmət edir. Sinəsində "Vətən Müharibəsi Qəhrəmanı" medalını qürurla gəzdirir.**



Yaşar Hüseynov 1981-ci ildə Ağdam rayonunun Abdal kəndində dünyaya gəlib, ailənin sonbeşiyidir. Gözünü açandan evlərində döyüşçü görüb, elə döyüşçü kimi də böyüyüb. Üç qardaşı Birinci Qarabağ müharibəsində iştirak edib. Onlardan Füzuli Hüseynov 1994-cü il aprelin 16-da rayonun Yusifcanlı kəndində şəhid olub, qazi Fərman və Sadiq isə müharibə veteranlarıdır.

Yeni əsrin ilk ilində müddətli həqiqi hərbi xidmətə çağırılan Yaşar Xüsusi Təyinatlı Qüvvələrin nəzdində olan "Gizir Hazırlığı Kursu"na qatılıb və 2001-ci ilin martından böyük cəsarət, hünər tələb edən həmin qurumun hərbi hissələrindən birində qulluq etməyə başlayıb. 2014-cü il Gülüstan əməliyyatı, 2016-cı il Aprel döyüşlərində igidliyi ilə seçilib. I, II və III dərəcəli "Qüsursuz xidmətə görə", II və III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "Şücaətə görə" medallarına və bir sıra yubiley təltiflərinə layiq görülüb.

Vətən müharibəsinin ilk döyüşlərində Yaşar komandanlığın tapşırığını icra edərkən ağır yaralanıb. Füzuli və Mingəçevir xəstəxanalarında bir neçə gün müalicə alıb, amma yarı canı elə səngərlərdə olan baş gizir "Adım Yaşardırsa, mənə heç nə olmaz!" deyərək, tam sağalmamış cənub istiqamətindəki qaynar nöqtələrə qayıdıb və Şuşanın ən uca zirvəsinə qədər gedib.

Yaşar Hüseynov Şuşada son nöqtəsi qoyulan 44 günlük Zəfər dastanının kulminasiyasında qərar tutub. O, düşmənin Şuşa şəhərində Duma binasının üzərinə sancdığı bayrağı çıxararaq Azərbaycanın Dövlət Bayrağını ən uca yerdən asıb. Ardınca da düz 28 ildən sonra azan oxuyub. Azərbaycan Ordusunun yenilməzliyindən qəlbi ehtizaza gətirən o kadrları necə böyük sevinc və göz yaşları ilə izlədiyimizi ömrümüz boyu xatırlayacağıq.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında" 2020-ci il 9 dekabr tarixli sərəncamına əsasən baş gizir Yaşar Hüseynov da həmin şərəfə layiq görülüb. O, həmçinin, Cəbrayılın və Füzulinin azad olunmasına görə medalları ilə təltif olunub. 2021-ci ilin may, iyun və iyul aylarında Kəlbəcər rayonu ərazisində, Basarkeçər istiqamətində sərhədlərin delimitasiyasında, o cümlədən 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı çərçivəsində Xankəndi və ətraf kəndlərin azad olunmasında yaxından iştirak edib.

Yaşar Hüseynov öz döyüş yolu haqqında danışmağı elə də sevmir. Bu barədə verilən suallarıqısaca cavablandırır. Məsələn, Bakı Xoreoqrafiya Akademiyasında keçirilən görüşdə yalnız bu sözlərlə kifayətlənib: "Şuşanın azad edilməsi uğrunda döyüşə qatıldığımız zaman, təbii ki, canlı itkilərimiz oldu. Amma əldə etdiyimiz qələbə ilə şəhidlərimizin qanını yerdə qoymadıq. Vətən bizə əcdadlarımızdan mirasdır. Onu göz bəbəyimiz kimi qorumağa, lazım gələrsə, yolunda canımızdan keçməyə hər zaman hazırıq".

Bəli, Yaşar Hüseynov kimi mərd, igid oğullarımız ordumuzun qələbə əzmini dünyaya nümayiş etdirərək, adlarını tarixə qızıl hərflərlə yazıblar. Müzəffər Ali Baş Komandanımızın böyük sərkərdəlik məharəti və Silahlı Qüvvələrimizin misilsiz şücaəti sayəsində 44 günlük Vətən savaşı Azərbaycan xalqının mübarizlik və əyilməzlik rəmzinə çevrilib.

# 18 yaşlı şəhid

**Yardımlının Şəhidlər xiyabanı şəhərin mərkəzində salınıb. Burada I və II Qarabağ müharibələrində canından keçmiş 100-ə qədər igidin adı əbədiləşdirilib. Onlardan biri də Əli Rzalıdır.**

Rayonun Bilnə kəndində ildə 2 dəfə – anadan olduğu aprel və şahadətə ucaldığı oktyabr aylarında camaatın yığışaraq ölməz xatirəsini yad etdiyi igid Vətən oğlu Əli Rzalı cəmi 19 il yaşasa da, qanı ilə tarix yazıb.

Ailənin qayğılarını göz önünə alaraq, diplomlu mütəxəssis olmağı sonraya saxlayan Əli erkən yaşlarından qollarını çırmalayaraq zəhmətə qatlaşıb. Gecə-gündüz deməndən çalışıb. Anası ona deyərmiş: "Sənin yoldaşların ali məktəbdə oxuyub, böyük adam olacaqlar. Sən də get, oxu". Əli isə təmkinlə cavab verərmiş: "Ana, kimin böyük adam olacağını zaman göstərər, sən narahat olma. Mən həmişə sənin başını uca edəcəyəm".

Xüsusi Təyinatlı Qoşunların əsgəri olan Əli Rzalı 2020-ci il sentyabrın 27-də erməni faşizminə qarşı döyüşlərə qatılıb, cəmi 5 gün Kəlbəcər istiqamətində, Murovdağ yüksəkliyində, "Koroğlu" postunda vuruşub və qəhrəmancasına şəhid olub. Onun döyüş yolunu, igidlik nümunəsini dövlətimiz yüksək qiymətləndirib. Prezidentin sərəncamları ilə şəhid soydaşımız III dərəcəli "Rəşadət" ordeni, "İgidliyə görə", "Cəsur döyüşçü", "Şücaətə görə", "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Onun ilk anım mərasimi rayonda çoxlarının yaddaşına yazılıb. Rayon icra başçısı Ayaz Əsgərov, deputat Musa Qasımlı və başqaları mərasimdə Vətən müharibəsində əsgərlərimizin qəhrəmanlığından danışıblar. Əlinin dayısı – tanınmış jurnalist Elşad Paşasoy qəhrəmanın uğrunda can verdiyi Murovdağdan gətirdiyi müqəddəs torpağı onun məzarı üstünə səpərək, xalqımızın hər bir şəhidlə fəxr etdiyini bildirib. Din xadimi Kərbəlayi Firidunun Qurani-Kərimdən rəhmət ayələri ilə bərabər, şair Sakit İlkinin Əliyə həsr etdiyi şeiri səsləndirməsi də hamını təsirləndirib.

*And yerimsən, ocağımsan, pirimsən,*
*Nur üzlümsən, bir dənəmsən, birimsən,*
*Bundan belə dil-dil ötən dilimsən,*
*Sən - Tanrımın göndərdiyi pay, Əli,*
*Şəhadətin mübarəkdir, ay Əli!*

Qeyd edək ki, həmin gün Bilnə kənd sakinlərinin təşəbbüsü, maddi dəstəyi və zəhməti ilə tikilmiş Əli bulağının da açılışı olub. Artıq 6 ildir ki, həmin bulağın suları şəhid ruhuna əbədiyyət nəğməsi oxuyur.

**Elşad Paşasoyun dedikləri:**

– Bacım oğlu Əli Rzalı da, xalam nəvəsi Şahin Tahirli də Vətən yolunda ölümə gedənlərdəndir. Əli orduya yollananda rayon səfərbərlik və hərbi xidmətə çağırış idarəsinin girişində "Qəhrəman olmurlar, qəhrəman doğulurlar" yazılmış lövhənin



altında dayanıb, qardaşım Xaqani Pşayevdən şəklini yadigar olaraq çəkməyi xahiş edib. Sanki ömrünün tezliklə sona yetəcəyini duymuşdu. O, XTQ-də xidmətə başladı, Füzuli, Cəbrayıl və Kəlbəcər rayonlarının işğaldan azad olunmasında fəal iştirak etdi və oktyabrın 2-də əbədiyyətə qovuşdu.

Kəndimizdəki Oşmonu bulağının yaxınlığında bir Xan çinar əkmişəm. Sən demə, Əli 2015-ci ildən onun gövdəsinə adını və altından da hər yeni təqvim ilini yazırmış. Diqqətlə baxanda görünür ki, 2020-ci ilin rəqəmlərini yarımçıq yazıb: 20... ardı yoxdur, əvəzində nida və sual işarələri həkk olunub. Bəlkə də həmin il şəhid olacağına görə Xan çinarın köksünə qıymayıb. Tarixi öz sinəsinə yazıb şəhid qanı ilə...

Vətən müharibəsi başlananda Əli ön cəbhədə olduğunu yalnız bacısı Səbinəyə deyib və tapşırıbmış ki, evdəkilər bilməsinlər, narahat olalar. Bacısı da bu sirri Əli şəhid olan günə kimi saxlayıb.

# Vətən qurbanına el ehtiramı

**Ölkəmizin hər yerində olduğu kimi, Masallıda da şəhid ruhlarına sonsuz ehtiram bəslənilir. Bu günlərdə rayon rəhbərliyi Birinci Qarabağ müharibəsi şəhidi Rüstəm Qənimət oğlu Qasımovun məzarının təmiri, yenidən qurulması və ətrafının səliqəyə salınması üzrə görülən işlərlə tanış olub.**

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov bundan əvvəl də eyni missiya ilə Ərkivan, Həsənli, Təzə



Alvadı, Boradigah, Türkoba, Sərçuvar, Öncəqala, Təzəkənd, Göyəçöl, Çaxırlı, Qızılavar, Şərəfə, Güllütəpə, Bədələn və başqa kəndlərdə olub, Vətən uğrunda canından keçmiş igidlərin məzarlarını ziyarət edib, şəhid ailələrinin sosial qayğıları ilə maraqlanıb. Rayon rəhbərliyinin şəhər xəstəxanasında müalicə alan şəhid atası Aqil Nağıyevlə və Hişkədərə kəndində səhhətində problem yaranmış şəhid atası Həzrətqulu Lələyevlə görüşləri də xəstələrə mənəvi dəstək olub. Viləş kəndində şəhid qardaşlar – Nurlan və İntiqam Əsgərlilərin ev-muzeyi ziyarət edilib, Aprel döyüşlərinin qəhrəmanı olan Nurlanın anım mərasimi keçirilib.

İgid vətən oğlu Rüstəm Qasımovun dəfn olunduğu Xırmandalı kənd qəbiristanlığında şəhid ruhlarına əbədi ehtiram duyğuları ifadə edilib. Rüstəmin məzarının üstünün abadlaşdırılması ilə bağlı həyata keçirilən tədbirlərin başa çatdığı bildirilib. Eyni zamanda, şəhidin qardaşı üçün fərdi yaşayış evinin inşa edildiyi vurğulanıb.

Ziyarət zamanı rayon icra hakimiyyətinin başçısı orada uyuyan digər şəhidlərin də məzarlarının vəziyyəti ilə maraqlanıb. O, şəhidlərin xatirəsinin əziz tutulmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu vurğulayıb və bu sahədə görülən işlərin davamlı xarakter daşıdığını qeyd edib.

Həmin gün ziyarətçilər Yeyənkənd ərazisinin Xəlfələr kəndindəki qəbiristanlığa da baş çəkərək, şəhidlərin məzarüstü abidələri önünə tər gül dəstələri düzüblər. Şəhidlərin valideynləri, din xadimləri, ziyalılar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və rayon rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

**Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü Fəridə Ləmanın yeni kitabı "Şuşa fatehi – Yunis Kazımov" adlanır. O, Qarabağ savaşı başlanan gündən qələmini süngü edən şairlərdəndir. Dəfələrlə cəbhə bölgələrində olub, vətən üçün can verən əsgərlərimiz haqqında dəyərli əsərlər ortaya qoyub.**

Şair-publisistin yeni poeması şəhid baş leytenant, "Azərbaycan Bayrağı" və 3-cü dərəcəli "Rəşadət" ordenli igid Yunis Kazımov haqqındadır. Ötən günlərdə Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin təşkilatçılığı ilə Gəncliyə Yardım Fondunda, eləcə də Qazaxda kitabın təqdimat mərasimi keçirilib.

*Mərd atadan mərd oğul,*
*Yada düşmən, mərdə qul.*
*Qorxaq töhmət gətirər,*
*Baş ucaldar mərd oğul.*

Şair əsərdə Yunisin uşaqlığını, orta və ali məktəbdə oxuduğu illəri ustalıqla yazıb, dilimizin gözəlliklərindən baca-

# Baş ucaldan mərd oğul




Mərasimlərdə poema qəhrəman Vətən oğlunun örnək ömrünə işıq saçan bədii mənbə kimi dəyərləndirilib. İlk səhifələrdən oxucunu əsl vətənpərvərlik duyğularının sardığı vurğulanıb.

Yunis dünyaya gələndə nankor ermənilər onun ata yurdunu işğal etmişdilər.

*İşğal üstündən işğal,*
*Qaçqın, köçkün harayı.*
*Uçmuşdu ömrümüzün,*
*Tale adlı sarayı.*

Yunis böyüdükcə hərbi geyimli əsgərlərə həsrətlə baxır, "mən də belə bir əsgər olacağam", - deyə düşünürdü. Nəhayət, hərbi qulluq dönəmi gəldi. Arzusu Xüsusi Təyinatlı Qoşunlarda əsgər olmaq, ömrümüzün tale sarayını yenidən ucaltmaq idi. İstəyinə yetincə onun sevinci aşıb-daşdı. Yunis ilk gündən özünü bacarıqlı zabit, əsgər kimi tanıtdı. Müdafiə Nazirliyi tərəfindən III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olundu.

Kitabın redaktoru – Türkiyənin Muş şəhərindəki Alparslan Universitetinin kafedra müdiri, professor Tamella Abbasxanlı–Əliyeva əsər haqqında düşüncələrini böyük sevgi ilə qələmə alıb. O yazır ki, Fəridə xanım onlarla şəhid haqqında dəyərli əsərlər yaradıb. Bu poema da o sıradandır. Poemanı oxuyan hər kəs, sanki, Yunisə qoşularaq savaşa gedir və Qarabağ uğrunda döyüşlərə qatılır. Ön sözün müəllifi şəhid ruhlarını sevindirən belə əsərlərin daha da çox olmasını arzulayır.

Vətən müharibəsi başlananda Yunisin sorağı Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd, Qırmızı Bazardan gəldi. Güllələr yağış kimi əsgərlərin üzərinə yağırdı. Baş leytenant tabeliyində olan döyüşçüləri qoruyurdu, az qala onlardan ötrü canını qurban verməyə hazır idi. O günlərdə Yunisin I Qarabağ müharibəsi veteranı olan cəsur polis atası Qasım Kazımov onun igidliyi haqqında xəbərlər alır, Allaha dua edir ki, balası sağ-salamat qayıtsın. Fəridə Ləmanın bədii təsvirində atanın həyəcanları oxucunun göz yaşına səbəb olur.

Həmin qoşunların ruhladırıcı tərzdə... 

rıqla istifadə edib. Fəridə Ləman Yunisin cəbhədə keçirdiyi günləri həyəcanla təsvir edib. Yunis bəyaz saçlı anasını, gecələr uyumayan atasını, sübhədək səksəkədə olan ömür-gün dostu Zöhrəni, yeganə oğlunu düşünüb kövrəlsə də, hissiyyata qapılması tez ötür, o, "Öncə Vətən!" deyərək, bir aslan kimi irəli atılır.

Yunis dəstəsi ilə Kəlbəcərə yollanır. 3000 metr yüksəklikdəki mövqeləri düşmənlərdən təmizləmək üçün əsgərlərini ruhlandırır, "su uyuyar, düşmən uyumaz" – deyərək ayıq-sayıq olmağa çağırır. Onlar təpərişi uğurla yerinə yetirirlər.

Bu da Şuşa! Cənab Prezidentə zəfər haqqında məruzə edən dəstədə qurur hissi keçirən Yunis də vardı. Haqqədaləti hər şeydən üstün tutan Ali Baş Komandan iğid Yunis Kazımovu Cəbrayıl, Qubadlı, Xocavənd və Şuşanın azad olunmasına görə medallarla təltif etdi. Daha sonra "Azərbaycan Bayrağı" və III dərəcəli "Rəşadət" ordenləri, "Vətən Uğrunda" medalı gəldi.

…2022-ci il sentyabrın 13-də məğlub düşmənin silahlı tör-töküntüləri yenidən Kəlbəcər dağlarında təxribat yaradır. Yunis tabeliyində olan əsgərlərlə savaşa girir. Və o savaşda iğid komandir snayper atəşinə tuş gələrək şəhid olur. Bütün bunlar poemada ustalıqla qələmə alınıb.

Fəridə Ləman Yunisin 2021-ci ildə ailə həyatı qurduğu Zöhrə xanımla son söhbətini də təsirli boyalarla təqdim edib. O söhbət yarımçıq qalsa da, şair özünün bədii təxəyyülü ilə dialoqu tamamlayır: Yunis son sözündə Zöhrəsinə deyir ki, balamız Əlini qoruyun. O da mənim kimi qəhrəman olsun.

Zöhrə tez-tez Əlini də doğma Qazax rayonunun Kəmərli kənd məzarlığında uyuyan Yunisin ziyarətinə aparır. Hər dəfə Əli anasından soruşur ki, atam nə zaman evə gələcək? Zöhrə üzündəki solğun təbəssümlə: - Sən də onun kimi komandir olanda atan evə qayıdacaq, - deyir. Bu yalana oğlu Əli də, o özü də inanır…

# Xatirə kitabının zəfər səhifələri

**Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyasının qiymətli nəşrlərindən sayılan "44 gün – Tarixi zəfər" çoxcildliyinin 4-cü nəşri Azərbaycan və ingilis dillərində işıq üzü görüb.**




Kitabın baş redaktoru Nəzakət Məmmədova XQ-yə açıqlamasında bildirib ki, redaksiya ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb və ensiklopedik tarixi salnamə baxımından əvəzsizdir. Respublika Xatirə Kitabında, əsasən, İkinci Dünya müharibəsi, Əfqanıstan döyüşləri, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, milli qəhrəmanlarımız haqqında əhatəli materiallar cildlərə salınır. Yaddaşımızın abidəsi adlandırılan bu kitabda tarixin səs-sədası, milli kimliyimiz örnək nüanslar kimi səciyyələnir.

Ensiklopediyanın növbəti cildində Sumqayıt şəhəri və Abşeron rayonundan olan şəhidlər haqqında əlifba sırası ilə məlumatlar yer alıb.

*Səhifəni hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

*Sənətin əbədiyyəti*

# Bəstəkarlarımızın Üzeyir Hacıbəylinin xatirəsinə töhfələri

**Dahi bəstəkar Üzeyir Hacıbəyli Azərbaycan professional bəstəkarlıq məktəbinin formalaşmasında müstəsna rol oynamışdır. Onun musiqi-estetik prinsipləri, xüsusilə Şərq və Qərb musiqi sistemlərinin sintezi ideyası, sonrakı nəsil bəstəkarlar üçün mühüm yaradıcılıq istiqaməti olmuşdur.**



Dünyaşöhrətli bəstəkarın təkcə musiqiçi kimi deyil, pedaqoq, publisist, ictimai xadim kimi də musiqi mədəniyyətimizin inkişafında və peşəkarcasına formalaşmasında xidmətləri əvəzsizdir. Bu səbəbdən XX – XXI əsr Azərbaycan bəstəkarlarının bir çoxu sevgi və ehtiramın təcəssümü kimi öz simfonik əsərlərində Üzeyir bəyin irsinə müraciət etmiş, ona ithaflar yaratmış, onun musiqi dilindən ilhamlanmışlar.

Görkəmli bəstəkar Fikrət Əmirov "Bəstəkarın xatirəsinə", Süleyman Ələsgərov "Üzeyir Hacıbəyova ithaf", Rauf Hacıyev "Kamera orkestri üçün poema" və "İthaf" əsərini, Əşrəf Abbasov "Poema", Qalib Məmmədov "Üzeyir dastanı", Məmməd Quliyev "Üç portret" vokal silsiləsini, Sərdar Fərəcov Səməd Vurğunun sözlərinə bəstələdiyi "Diptix" adlı xor konsertini, amerikalı bəstəkar Can Haynes Üzeyir Hacıbəylinin melodiyaları əsasında klavikord üçün "Variasiyalar" kimi dəyərli əsərlər yazmışlar.

Əsərlər olduqca çoxdur bu səbəbdən məqalədə Üzeyir bəyə həsr olunmuş müasir əsərlər haqqında qısa xarakteristik məlumatları, nəzəri təhlili diqqətinizə çatdırırıq:

Əsərlər sırasında başda Fikrət Əmirovun "Bəstəkarın xatirəsinə" əsərini qeyd etməliyik. Əsər uzun, dolğun, xrommatik notlarla başlayır. Pillə-pillə gərginləşən melodiya bizi Çahargah məqamına kökləyir. Əsər həzin və lirik xarakterli olmasına baxmayaraq, dinamik işarələrin dramaturji xətti üzrə qalxması nəticəsində daxili gərginlik duyulur. Olduqca düşündürücü təsirə malik əsər sanki gözümüz qarşısında böyük şəxsiyyətin monumental portretini canlandırır. Melodiyanın ciddiyyəti və ağırlığından müəllifin dahi bəstəkara olan ehtiram və hörməti aydın hiss edilir. Əsər 6-7 dəqiqlik müddətdə səslənsə də, bəstəkar bu zaman kəsiyində dərin emosiyalarını, mənəvi atasına olan rəğbətini, həmçinin sevimli bəstəkarının yaradıcılığı ilə bağlı fəlsəfi fikirlərini dinləyicilərə ötürməyə nail olur.

Bəstəkarın ölməz xatirəsinə əsər ithaf etmiş digər bəstəkarımız canlı korifey Tofiq Bakıxanovdur. O, dahi Üzeyir bəyi görmüş, onunla ünsiyyətdə olmuş son magikanlarımızdandır. O, 2005-ci ildə 8 saylı "Azərbaycan" simfoniyasını bəstələmişdir. Tar ilə simfonik orkestr üçün yazılmış üçhissəli simfoniya Üzeyir bəyin milli musiqi ideyalarının davamı kimi çıxış edir. Əsərdə tar alətinin aparıcı rolu xüsusi diqqət çəkir və bu, birbaşa olaraq Üzeyir bəyin xalq çalğı alətlərinə verdiyi əhəmiyyətlə səsləşir. Əsər əsasən Allegro tempində kəskin xarakterlidir və tar ifaçısının virtuoz imkanlarının açılması istiqamətində mühüm əhəmiyyət kəsb edir. Əsərin orta bölməsində səslənən məlahətli rəqsvari melodiya tarın həzin, lirik xüsusiyyətini açmağa imkan yaradır. Həmçinin bu mövzu Üzeyir bəyin axıcı melodik üslubunu da ehtiva edir. Simfoniyanın musiqi dili muğam intonasiyalarına əsaslanaraq milli ruhu simfonik inkişaf prinsipləri ilə birləşdirir.

Digər nümunələrdən biri isə Qara Qarayev məktəbinin layiqli davamçılarından olmuş, bəstəkar Musa Mirzəyevin "Dahi sənətkar Ü.Hacıbəyliyə ithaf" əsəridir. Ümumiyyətlə, Musa Mirzəyevin simfonik və kamera musiqisi janrlarında yazılmış əsərləri musiqi dünyamızın parlaq səhifələrindəndir. 1998-ci ildə yazdığı bu əsəri isə yaradıclığının dəyərli incilərindən hesab etmək olar. Simfonik poema janrında olan əsərdə Üzeyir bəyin obrazı musiqi vasitəsilə ümumiləşdirilmiş şəkildə təqdim olunur. Bu əsər xalq melodiyasından istifadə etməklə polifonikləşdirilmiş inkişafa əsaslanan kompozisiyalardandır. Burada daxili qəhrəmanlıq hissi və lirizm vəhdətdədir. Tematik inkişafda dramatik kulminasiyalar vasitəsilə sanki bəstəkarın həyat yolu və yaradıcılıq mübarizəsi təsvir olunur. Mükəmməl orkestr yazı üslubu ilə Musa Mizəyev Üzeyir Hacıbəyli yaradıcılığının koloritli, rəngarəng dünyasını diqqətə çatdırır.

Firəngiz Əlizadə "Çarpazlaşma II" əsərini 1992-ci ildə bəstələmişdir. Adından da məlum olduğu kimi, burada zidd materiallar bir-biri ilə çarpazlaşır. İki ayrı ritmik və tonal sfera arasında dialoq yaradaraq musiqi strukturunda "kəsişmə" prinsipləri təqdim olunur.

Müxtəlif tembr xüsusiyyətləri daşıyan alətlər əsərdə birləşir. Əsər Üzeyir bəyin əsasını qoyduğu Şərq-Qərb sintezinin müasir interpretasiyası kimi qiymətləndirilə bilər. Burada avanqard texnikalar, qeyri-ənənəvi səslənmələr və milli intonasiyaların yeni kontekstdə təqdimatı diqqət çəkir. Fərqli səs təbəqələrinin (klarnet, arfa, vibrafon/celesta, yaylılar, valtorna və s. alətlər) eyni zamanda, lakin fərqli temp və ritmlərlə işlənməsi əsərə mürəkkəb polifonik quruluş verir. Əsərin sonlarına doğru eşidilən rəqsvari melodiyalar, muğam intonasiyalar Ü.Hacıbəyli ənənələrinin ehtiramla yaşadıldığını və dünya arenalarında təbliğ olunduğunu göstərir. Bu əsər dəfələrlə beynəlxalq səhnələrdə uğurla müxtəlif orkestrlər tərəfindən səsəndirilmiş, İsveçrədə kompakt diskə yazılmışdır. Təəssüf ki, bu cür fəxr olunası əsər Bakıda yalnız 1 dəfə səslənmişdir.

"Crossing II" əsəri həm ifaçılar, həm də musiqişünaslar üçün mürəkkəb texniki və estetik məsələləri araşdırmaq imkanı yaradır. Bu əsər Firəngiz Əlizadənin müasir musiqi dilini formalaşdıran əhəmiyyətli nümunələrdəndir və ansamblların musiqi repertuarında eksperimental yanaşmaların nümayişinə imkan verir. Bəstəkarın seçdiyi yenilikçi istiqamət bu əsərin timsalında bizə Ü. Hacıbəyli novatorluğunu bir daha xatırladır.

Azər Dadaşovun "Üzeyir Kapriççiosu" böyük simfonik orkestr üçün yazılmış yeni əsərdir. Üzeyir bəyin 140 illik yubileyi münasibətilə yazılmış əsər milli-mənəvi yaddaşın simfonik ifadəsidir. Əsər I hissəlidir, "Üvertüra"sında təqdim olunan 3 rəqsvari melodiya əsər boyu ziddiyyətli inkişaf edərək kodada bir-biri ilə birləşir və ümumi vəhdət yaradır. Əsərdə "O olmasın, bu olsun" musiqili komediyasından "hamam rəqsi" melodiyası duyulur. Minora təsadüf edən melodiyanı Azər Dadaşov öz əsərində majorda bir qədər fərqli variantda səsləndirir.

Elnarə Dadaşova 2015-ci ildə yazdığı 7 dəqiqəlik "Skertso" əsərində dahi bəstəkarın milli köklərə bağlılıq, ənənələrə sadiqlik ideyalarına əsaslanmışdır. Dinamik və oynaq xarakteri ilə seçilən əsərdə Skertso janrına uyğun olaraq yumoristik və ritmik elementlər üstünlük təşkil edir. Üzeyir bəyin operetta janrındakı yüngül və zarafatcıl üslubuna müəyyən paralellər aparmaq mümkündür. Təəssüf ki, əsər hələ də səslənməyib.

Rauf Əliyev "Ü.Hacıbəyliyə ithaf" əsərini həyatının son dövrlərində ustad bəstəkarın yaradıcılığına hörmət əlaməti kimi yazmışdır. Təəssüf ki, əsərini səhnədə dinləmədən bəstəkar həyatdan köçmüşdür. Əldə olunan məlumatlara əsasən musiqidə lirizm və monumental səslənmə növbələşmişdir. Bu da Üzeyir bəyin çoxşaxəli yaradıcılığını əks etdirir. Bəstəkar əsərdə yüksək orkestrləşdirmə bacarığı ilə Üzeyir bəyin musiqi ənənələrini, onun obrazını mükəmməl şəkildə canlandırmışdır.

Rüfət Ramazanovun 2005-ci ildə simli orkestr üçün yazdığı "Konsert pyesi" daha çox kamera xarakteri daşıyır. Burada melodik xətt aydınlığı ilə seçilir və milli intonasiyalar diqqət mərkəzindədir. Bəstəkarın özünün də vurğuladığı kimi, Üzeyir bəyə həsr olunmuş konsert pyesi sadə quruluşda olmasına baxmayaraq, səslənmə və orkestr işlənməsində mürəkkəbliyə xüsusi önəm verilmişdir. Əsər XXI əsr bəstəkarının Üzeyir Hacıbəyli dünyasına yeni ampuladan müasir baxışı və təfsiridir.

İlham Azmanlının "Alqış" əsərində xor və simfonik orkestrin birliyi ilə bayram əhval-ruhiyyəsi yaradılır. 1987-ci ildə yazılmasına baxmayaraq, çox təəssüf ki, hələ də səslənməmişdir. "Qədim Turanın yeni 44 günü" simfonik dastanı isə Şuşa fatehlərinə, Üzeyir Hacıbəyli və yoldaşı Məleykə xanımın timsalında Azərbaycan və Tatarıstan dostluq və qardaşlığına, 15 yaşlı şəhid Ərən Bülbülün timsalında bütün şəhidlərə və Qarabağ bülbüllərinə həsr olunmuşdur. Burada Üzeyir bəyin melodiyalarından ani sitatlar istifadə olunub.

Məmməd Cəfərovun Üzeyir Hacibəylinin "Arşın mal alan" musiqili komediyasının movzusu əsasında fortepiano və simfonik orkestr üçün konsert pyesi ilk dəfə 1987-ci ildə pianoda Ədilə Əliyeva və dirijor Ramiz Melikaslanov ifasında səslənib. Üzeyir Hacıbəylinin "Arşin mal alan"ından müqəddimə movzusu kollaj xarakteri ilə istifadə edilib. Müxtəlif ladlar bir-birini əvəz edir. Müqəddimə Şurda olmasına baxmayaraq, bəstəkar birdən-birə Çahargaha ani keçidlər edir. Lad kontrastlılığı kəskin səslənmələr yaradır. Burada hətta "Mənsuriyyə" ritmik muğamını da bəstəkarın interpretasiyasında duymaq mümkündür. Bəstəkar istinad pərdələrini ani dəyişməklə musiqisini müxtəlif ladlara keçirməklə Üzeyir Hacıbəylinin xalq musiqisinin əsasları kitabındakı ənənələrini davam etdirməyə çalışmışdır.

İlahə Qismətin "Qavalla rəqs"i 2018-ci ildə yazılmış "Dədə Qorqud" baletində səslənir. Əsərin əsasında Üzeyir bəyin "Koroğlu" operasının II pərdəsindən "Qızların rəqsi" əsərinə münasibət dayanır. Əsərdə Üzeyir bəyin ruhu, nəsihətləri duyulur. Burada qavalın simvolik rolu milli musiqi köklərinə bağlılığı göstərir.

Sadaladığımız müxtəlif, rəngarəng əsərlər Üzeyir bəyə ehtiramın və sonsuz sevginin nəticəsidir. Hər bir peşəkar Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin dahiyanə fikirlərini, öyüd - nəsihətlərini öz yaradıcılığında təcəssüm etdirməyə çalışır.

Üzeyir Hacıbəylinin irsi Azərbaycan simfonik musiqisində yalnız tarixi mərhələ deyil, həm də daim inkişaf edən yaradıcılıq mənbəyidir. Müasir bəstəkarlar onun ideyalarını həyata keçirərək milli musiqinin yeni ifadə vasitələrini formalaşdırırlar. Bu əsərlər göstərir ki, Üzeyir bəyin yaratdığı məktəb, ənənələr bu gün də aktualdır və Azərbaycan musiqisinin inkişafında aparıcı rol oynamaqda davam edir.

***İlahə ABDULLA,***
***Azərbaycan Bəstəkarlar İttifaqının katibi***

---

*Məhsəti Gəncəvi – 930*

**Məhsəti Gəncəvi Azərbaycanın ilk qadın şairələrindən, dövrünün savadlı ziyalı qadınlarından hesab olunur. Şərq və müsəlman intibahı tarixində xüsusi yeri olan şairə kövrək duyğuları, sevgini, azad düşüncəni və həyatın gözəlliklərini poetik dillə ifadə edib.**

# Azərbaycan intibah ədəbiyyatının rübai şairi

## *Azad qadın ruhunun poetik tərcümanı*

O, 1096-cı ildə Yaxın Şərqin elm, mədəniyyət və sənət mərkəzlərindən sayılan Gəncə şəhərində anadan olub. Uşaqlıq və gənclik illəri bu zəngin mədəni mühitdə keçib. Gəncənin məşhur Xarabat məhəlləsində yaşayan şairə kiçik yaşlarından elmə, incəsənətə böyük maraq göstərib, musiqi, şeir və şahmat sahəsində dərin biliklər əldə edib.



Məhsəti Gəncəvinin həyatı haqqında məlumatlar əsasən qədim əlyazmalardan və XIII əsrə aid "Əmir Əhməd və Məhsəti" dastanından götürülmüşdür. Nüsxələri Bakı, İstanbul və London şəhərlərində qorunub saxlanılan dastanda şairənin həyat və yaradıcılığı, saray mühiti ilə əlaqələri barədə maraqlı məlumatlar əks olunub. Bildirilir ki, Bəlx şəhərində yaşayan ilahiyyat aliminin qızı dünyaya gəlir, uşağın gələcəyini öyrənmək istəyən atası münəccimlərə müraciət edir. Onlar qızın gələcəkdə böyük şöhrət qazanacağını, xalq tərəfindən seviləcəyini, lakin taleyinin xərabatla, yəni meyxana və şair məclisləri ilə bağlı olacağını deyirlər.

Tədqiqatçılar qeyd edirlər ki, Məhsəti yaxşı təhsil alıb, elm və poeziyaya böyük maraq göstərib. Gəncə xətibinin oğlu Əmir Əhməd ilə bir-birlərinə aşiq olublar və şahın təzyiqindən uzaqlaşmaq üçün Bəlxə gedib orada yaşayıblar. Dastanın sonunda onlar Gəncəyə qayıdır və 2 övladları olur. Atasından sonra Gəncənin xətibi olan Əmir Əhmədin vəfatı Məhsətiyə ağır təsir edib. Şairə o qədər göz yaşı töküb ki, görmə qabiliyyətini itirib və iki il sonra dünyasını dəyişib.

Əsərdə maraqlı məqamlardan biri də Məhsəti Gəncəvinin Nizami Gəncəvinin yanında dəfn olunması ilə bağlıdır. Rəvayətə görə, 1923-cü ildə Nizaminin məzarı köçürülərkən onun yanında bir qadın cəsədi də aşkarlanmışdır. Bu fakt uzun illərdir ki, tədqiqatçılar tərəfindən Məhsəti Gəncəvi ilə əlaqələndirilir və şairənin həyatı ilə bağlı sirli məqamları daha da maraqlı edir.

Araşdırmalara görə, əsl adı Mənicə, "Məhsəti" isə ədəbi təxəllüsü olub. Rəvayətə əsasən, Sultan Səncər bir gün onu saraya dəvət edir, Məhsəti sarayda özünü hamıdan kiçik və görünməz hesab etdiyini bildirir. Sultan isə ona fars dilində "To meh-həsti", yəni "sən hamıdan böyüksən" deyir. Zamanla bu ifadə dəyişərək "Məhsəti" şəklini alır və şairənin təxəllüsünə çevrilir.

Məhsəti Gəncəvinin rübailərinin əsas mövzusu insan sevgisi, həyatın faniliyi, qadın azadlığı, gözəllik, müdriklik, sevgi, məhəbbətdir.

***Eşqinlə yanan qəlbimə saldın odlar,***
***Baxdın suda öz hüsnünə təkrar-təkrar.***
***Gördün saçını, bəxtiməmi oxşatdın,***
***Atdın o qara zülfü yerə, ey dildar.***

Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin görkəmli simalarından olan Məhsəti Gəncəvi teatr və səhnə sənətində də maraqlı, zəngin obraz kimi təqdim olunur. Onun həyat yolu, azad düşüncəsi, yüksək intellekti və sənətkar ruhu dramaturqları, bəstəkarların diqqətini daim çəkib, Məhsəti obrazı Azərbaycan teatrında özünəməxsus yer qazanıb. Məhsəti Gəncəvi haqqında ilk böyük səhnə əsərinin Ərtoğrul Cavidin "Məhsəti" operası olduğu ehtimal edilir. Professor Rafael Hüseynovun araşdırmalarına əsasən, Nigar Rəfibəylinin şairəyə həsr etdiyi poema əsasında Ərtoğrul Cavid opera yazmağa başlayıb. Lakin bəstəkarın gənc yaşda vəfat etməsi bu layihənin tamamlanmayıb.

Məhsəti Gəncəvi obrazı milli teatr səhnəsində ilk dəfə 1942-ci ildə nümayiş etdirilib. Həmin il Mehdi Hüseynin qələmə aldığı "Nizami" pyesi tamaşaya qoyulub və burada Məhsəti obrazı diqqətçəkən qəhrəmanlardan olub. Əsər, əsasən dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr edilsə da, Məhsətinin adı və şəxsiyyəti əsərin əvvəlindən sonuna qədər ön planda olub. Pyesin birinci pərdəsində Nizami Gəncəvinin Məhsəti Gəncəvini "Gəncənin zinəti, şeirimizin anası" adlandırması xüsusi vurğulanıb.

Şairəyə həsr olunmuş ikinci və hələlik sonuncu dram əsəriu isə Məmmədhüseyn Təhmasibin 1967-ci ildə yazdığı "Rübailər aləmində" pyesidir. Əsərdə dramaturq şairənin həyat və yaradıcılığına daha geniş şəkildə yanaşıb, onun azad ruhlu, cəsarətli və düşünən qadın olduğunu yazıb.

Şairənin obrazı hər zaman Azərbaycan teatr sənətində qadın zəkasının, poetik düşüncənin və mənəvi azadlığın rəmzi olub. Onun haqqında yazılmış səhnə əsərləri milli dramaturgiyamızda mühüm yer tutur və Azərbaycan mədəniyyətində qadın sənətkar obrazının formalaşmasına böyük töhfə verir.

***Ləman TƏHMƏZ***
***XQ***

---

# "Yüksəliş" müsabiqəsinin iştirakçıları ilə görüş




**Yazıçılar Birliyinin Şüvəlandakı Yaradıcılıq Evində "Yüksəliş" müsabiqəsinin iştirakçıları və qalibləri ilə görüş keçirilib.**

3 saat davam edən mərasimdə gəncləri maraqlandıran suallar ətrafında fikir mübadilələri aparılıb.

Görüşdə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov gənc və perspektivli peşəkarların ölkənin inkişafında mühüm rol oynadığını vurğulayıb. Bildirib ki, müasir dövrdə təşəbbüskar, innovativ düşüncəyə malik və yüksək məsuliyyət hissi daşıyan kadrların formalaşdırılması strateji prioritetdir.

***XQ***

---

# IX "ANİMAFİLM" Festivalı

**Bu gün 9-cu "ANİMAFİLM" Beynəlxalq Animasiya Festivalına start verilir.**

Festival Azərbaycan Animasiya Assosiasiyasının və "ANİMAFİLM" MMC-nin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) və "Yaradıcı Mərkəz"in dəstəyi ilə keçirilir.

"ANİMAFİLM" bu dəfə iştirakçıları "Dəniz" səyahətinə dəvət edir. Festival çərçivəsində tədbirlər Nizami Kino Mərkəzi, dünyada ilk muzey olan "Suraxanı" gəmi-muzeyi və "Fluxus Space" qalereyasında təşkil olunacaq.

Festival zamanı tamaşaçılar zəngin müsabiqə və müsabiqədənkənar proqramları izləyəcək, xarici animasiya müəllifləri ilə görüşəcək, "İsi və Piti" uşaq animasiya serialının, "Yulaf dönərgə" qısametrajlı animasiya filminin premyeralarının şahidi olacaqlar. Festivalda həmçinin qonaqlara "ANİMAFİLM School: Stop-motion" ustad dərsi, yerli və xarici animasiya layihələrinin 2-ci ANİMAFİLM Beynəlxalq Pitçinq Müsabiqəsi, "ANİMAFİLM" jurnalı, "OSCAR" və "BAFTA" mükafatlarına layiq görülmüş animasiya filmləri təqdim olunacaq.




***XQ***

# Azərbaycan dövlətinin mədəni irs siyasəti qlobal dəyər qazanıb

**Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Böyük Britaniyanın nüfuzlu nəşri "Global brand magazine"nin təşkil etdiyi beynəlxalq müsabiqədə "İrsin qorunmasında ən yaxşı dövlət innovasiyası" nominasiyası üzrə qalib elan olunub.**

Dövlət Xidmətinə mükafatın təqdim edilməsində əsas meyarlar kimi "Vahid mədəniyyət reyestri" informasiya sisteminin yaradılması, 3 mindən çox daşınmaz mədəni irs nümunəsi üzrə məlumatların vahid rəqəmsal platformaya inteqrasiyası istiqamətində fəaliyyətlər, Qarabağ və Şərqi Zəngəzurda tarix və mədəniyyət abidələri üzrə genişmiqyaslı inventarlaşdırma və qiymətləndirmə işlərinin aparılması mühüm əhəmiyyət kəsb etmişdir.

Bu çərçivədə Coğrafi İnformasiya Sistemi, dron və peyk texnologiyalarının tətbiqi, "Mənim mədəniyyətim" vahid şəxsi kabinet sistemi üzərindən rəqəmsal müraciət imkanları, eləcə də şəffaflıq, operativlik və vətəndaşyönümlü dövlət xidməti modelinin formalaşdırılması üzrə davam edən fəaliyyətlərin əhəmiyyəti xüsusi qeyd olunub.




Qeyd edək ki, "Global brand magazine" beynəlxalq səviyyədə dövlət idarəçiliyi, innovasiya, korporativ transformasiya və institusional inkişaf sahələrində fəaliyyət göstərən qurumların qiymətləndirilməsi üzrə ən nüfuzlu beynəlxalq platformalardan biri hesab olunur.

*XQ*

# "Qaynana" filmi Bursada





**Türkiyədə Azərbaycan Kino Günləri çərçivəsində Bursa şəhərinin Uludağ Universitetində "Qaynana" bədii filmi xalq artisti Nəsibə Zeynalovanın anadan olmasının 110 illiyi münasibətlə yubiley mərasimində nümayiş etdirilib.**

Uludağ Universitetinin, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Türkiyənin Bursa şəhəri Mədəniyyət və Turizm İdarəsinin təmsilçilərinin, ali təhsil müəssisəsinin müəllim-tələbə heyətinin iştirak etdiyi məclisdə çıxış edənlər Nəsibə Zeynalovanın yaratdığı obrazların tamaşaçıları güldürməklə yanaşı, həm də dərindən düşündürüb islah etdiyini bildiriblər. Sənətkarın Azərbaycan teatr məktəbinin seçkin nümayəndələrindən biri kimi milli səhnə sənətimizin inkişafına verdiyi töhfələrdən də bəhs edilib.

Ekran əsərinin izləyiciləri, xüsusən filmi ilk dəfə seyr edənlər maraqla qarşılayıblar.

Xatırladaq ki, "Qaynana" filmini rejissor Hüseyn Seyidzadə 1978-ci ildə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ekranlaşdırıb.

*XQ*


**bp, Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ yatağının işlənməsi üzrə risk xidməti sazişinin əsasında fəaliyyət göstərən əməliyyat şirkəti kimi elan edir ki, iş proqramı çərçivəsində boru dəstlərinin istehsalı obyektinin tikintisinə aid Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihə variantını müzakirə etmək üçün ictimaiyyətlə onlayn görüş keçirəcək.**

bp bütün maraqlı tərəfləri 15 may 2026-cı il tarixində saat 13:00-dan 15:00-dək "Microsoft Teams" vasitəsilə keçiriləcək bu görüşdə iştirak etməyə dəvət edir.

ƏMSSTQ sənədinin layihə variantı və rəy formaları 1 may 2026-cı il tarixindən bp-nin veb-səhifəsinə yerləşdirilmişdir və onları aşağıdakı linklər vasitəsilə yükləmək mümkündür:

Azərbaycan dilində:
https://go.bp.com/bqD5u

İngilis dilində:
https://go.bp.com/K4B06

Görüşdə proqram və sənəd haqqında təqdimatlar olacaq, auditoriyanın sualları cavablandırılacaq, irəli sürülən fikirlər və rəylər ətrafında müzakirə keçiriləcək. Rəy və təklifləri həmçinin esiafeedback@bp.com elektron ünvanına göndərməklə də təqdim etmək olar.

**Görüşə aşağıdakı keçid və ya QR kodu vasitəsilə qoşulmaq olar:**
https://go.bp.com/AEhxo

**Qoşulma təlimatı**

**Kompüterdən qoşulma**

"Microsoft Teams" vasitəsilə görüşə qoşulmaq üçün təqdim edilmiş keçiddən istifadə edin. Bu keçidin açacağı səhifədə siz görüşə veb vasitəsilə və ya kompüter proqramını yükləməklə qoşula bilərsiniz. Əgər sizdə Teams proqramı artıq mövcuddursa, görüşə avtomatik şəkildə giriş edəcəksiniz.

Əgər sizin Teams hesabınız yoxdursa və görüş təşkilatçısı bu funksiyaya icazə veribsə, siz adınızı daxil etməklə, görüşə "qonaq" qismində qoşula bilərsiniz.

Əgər sizin Teams hesabınız mövcuddursa, o zaman Sign in bölməsinə daxil olaraq (onun yazışma (chat) və əlavə funksiyalarına giriş imkanı əldə etməklə) görüşə qoşula bilərsiniz.

**Mobil telefondan qoşulma**

Audio, video və məzmun bölüşmə funksiyaları da daxil olmaqla, mobil telefonda Teams proqramından ən yaxşı şəkildə istifadə edə bilmək üçün Teams proqramının mobil versiyasını yükləmək lazımdır.

Əgər bu proqram sizdə mövcuddursa, proqramı açıb görüşə qoşulmaq üçün "Join Microsoft Teams Meeting" keçidindən istifadə edin. Əgər bu proqram telefonunuzda yoxdursa, qeyd edilmiş keçid sizi "app store" platformasına yönləndirəcək və siz oradan həmin proqramı yükləyə bilərsiniz.

Əgər Teams hesabınız yoxdursa, "qonaq"qismində görüşə qoşulmaq üçün "Join as a guest" bölməsini seçin və adınızı daxil edin.

Əgər Teams hesabınız varsa, o zaman görüşə qoşulmaq (proqramın yazışma (chat) və əlavə funksiyalarına giriş imkanı əldə etməklə) üçün "Sign in and join" bölməsini seçin.

**Qeyd:** proqramı görüş başlamamışdan öncə yükləməyə çalışın. Proqramın yüklənməsi internet bağlantınızdan asılı olaraq 1-2 dəqiqə vaxt apara bilər.


## "Ağstafasutikinti"ASC səhmdarlarının nəzərinə!

3 iyul 2026-cı il saat 11.00-da "Ağstafasutikinti" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncaq Agstafa şəhəri, C.Cabbarlı küçəsi 4 nömrəli ünvanda, cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** "Ağstafasutikinti" ASC-nin 2025-ci il üçün illik hesabatının təsdiqi.

**2.** "Ağstafasutikinti" ASC-nin yeni idarə heyətinin sədrinin seçilməsi.

**3.** Yaranmış vergi, sosial və digər öhdəliklərin ödənilməsi barədə.

***"Ağstafasutikinti"ASC-nin müşahidə şurası***

## "Şüşəplastmas" ASC səhmdarlarının nəzərinə!

"Şüşəplastmas" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 9.00-da "Şüşəplastmas" ASC-də Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Qəsəbə küçəsi 24 nömrəli ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2025-ci ilin yekunlarının müzakirəsi və mühasibat balansının təsdiqi.

**2.** İdarə heyəti sədrinin seçilməsi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (051) 478-74-73 nömrəli telefonla əlaqə saxlamaqla, yaxud cəmiyyətdə tanış olmaq mümkündür.

***Müşahidə şurası***

## "Nəsimi Məişət Malları"ASC səhmdarlarının nəzərinə!

"Nəsimi Məişət Malları" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 10.00-da "Şüşəplastmas" ASC-nin yerləşdiyi ünvanda Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Qəsəbə küçəsi 24 nömrəli ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2025-ci ilin yekunlarının müzakirəsi və mühasibat balansının təsdiqi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (051) 478-74-73 nömrəli telefonla əlaqə saxlamaqla, yaxud cəmiyyətdə tanış olmaq mümkündür.

***Müşahidə şurası***

## "Gəncə Yol Tikini-2" ASC səhmdarlarının nəzərinə!

"Gəncə Yol Tikini-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 16.00-da Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

Ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək, Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda qanunvericiliyə müvafiq qaydada müraciət etməklə tanış olmaq mümkündür.

Ümumi yığıncaq iştirakçılarının qeydiyyatı yığıncağın başlanmasına 2 (iki) saat qalmış göstərilən ünvanda aparılacaqdır. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi, yaxud şəxsiyyəti təsdiqləyən digər sənəd təqdim olunmalıdır. Səhmdarların illik ümumi yığıncağında səhmdar özü, yaxud notarius tərəfindən təsdiqlənmiş etibarnamə əsasında səlahiyyətli nümayəndə iştirak edə bilər.

***"Gəncə Yol Tikini-2" ASC-nin idarə heyəti***

## "Gəncə Körpü Tikini-2" ASC səhmdarlarının nəzərinə!

"Gəncə Körpü Tikini-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 29 iyun 2026-cı il saat 16.00-da Gəncə şəhəri, Əziz Nəzərov küçəsi, 5 nömrəli ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin idarə heyətinin hesabatı.

**2.** Maliyyə-təftiş komissiyasının hesabatı.

**3.** 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və illik hesabatın təsdiq olunması.

**4.** 2025-ci maliyyə ili üzrə dividendlərin bölüşdürülməsinin müzakirə olunması.

Ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək , Gəncə şəhəri, Əziz Nəzərov küçəsi 5 nömrəli ünvanda, qanunvericiliyə müvafiq qaydada müraciət etməklə tanış olmaq mümkündür.

Ümumi yığıncaq iştirakçılarının qeydiyyatı yığıncağın başlanmasına 2 (iki) saat qalmış göstərilən ünvanda aparılacaqdır. Qeydiyyat üçün şəxsiyyət vəsiqəsi, yaxud şəxsiyyəti təsdiqləyən digər sənəd təqdim olunmalıdır. Səhmdarların illik ümumi yığıncağında səhmdar özü, yaxud notarius tərəfindən təsdiqlənmiş etibarnamə əsasında səlahiyyətli nümayəndə iştirak edə bilər.

***"Gəncə Körpü Tikini-2" ASC-nin idarə heyəti***

## "Bakı Beynəlxalq Dəniz Limanı" Məhdud Məsliyyətli Cəmiyyəti

*"Elektrik malları"nın satın alınması üçün AZCON-un idarəetməsinə verilmiş dövlət müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri və publik hüquqi şəxslər tərəfindən məhsulların (mal, iş, xidmətlərin) vahid satın alınması qaydalarına əsasən*

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Təkliflərin təqdim edilməsi üçün son tarix 26.05.2026-cı il saat 18.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan təkliflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** +(994 12) 599 00 03 (daxili 1803).

**Ünvan:** AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

## "Şirvan Sənaye" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 10.00-da "Şirvan Sənaye "ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** "Şirvan Sənaye "ASC-nin 2025-ci il üzrə maliyyə-təsərrüfat barədə yekun hesabatı.

**2.** Təşkilatı məsələlər.

**3.** Digər məsələlər.

***ASC-nin idarə heyətinin sədri***
***İ.Həsənova***

## "Quba konserv-1" ASC səhmdarlarının nəzərinə!

2025-ci ilin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar səhmdarların növbəti ümumi yığıncağı 30 iyun 2026-cı il saat 14.00-da Quba şəhəri, Vaqif küçəsi 30 nömrəli ünvanda "Quba konserv-1" ASC-də keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin illik hesabatının, balansının, mənfəət və zərər hesabatlarının təsdiqi.

**2.** Digər cari məsələlər.

Səhmdarlar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özləri və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş qaydada etibarnaməyə malik olmalıdır.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiq edən sənədin əslini (nümayəndə olduqda etibarnaməsinin notarial təsdiqlənmiş surətini) təqdim etməlidir.

***Direktor: T.Bayramov***

## "ALMET" ASC səhmdarlarının nəzərinə!

"ALMET" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 9.30-da "Şüşəplastmas" ASC-nin yerləşdiyi ünvanda Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəsəbəsi, Qəsəbə küçəsi 24 nömrəli ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Bakı Şəhər İcra Hakimyyətinin rəhbərliyi ilə, Xətai Rayon İcra Hakimiyyəti tərəfindən "ALMET" ASC-nin yerləşdiyi ərazidə parkın salınması məqsədilə cəmiyyətə məxsus olan bina və qurğuların (balansındakı daşınmaz əmlakın) tamamilə sükülməsi barədə məsələ.

**2.** Cəmiyyətə məxsus olan bina və qurğuların (balansındakı daşınmaz əmlakın) tamamilə sökülməsi qarşılığında bu günə qədər təzminatın verilməməsi barədə.

**3.** Cəmiyyətin 2025-ci ilin yekunlarının və mühasibat balansının təsdiqi.

**4.** Cəmiyyətin fəaliyyətinin dayandırılması barədə.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (051) 478-74-73 nömrəli telefonla əlaqə saxlamaqla, yaxud cəmiyyətdə tanış olmaq mümkündür.

***Müşahidə şurası***

## "Naftalan–Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11.00-da "Naftalan–Avtonəqliyyat" ASC səhmdarlarının növbəti illik iclası keçiriləcəkdir.

**Gündəliyə aşağıdakı məsələlər daxildir:**

**1.** "Naftalan–Avtonəqliyyat" ASC-nin 2025-ci ilin yekunlarının müzakirəsi və maliyyə balansının təsdiqi.

**Ünvan:** Naftalan şəhəri, İ.Nəsimi küçəsi 10.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 83 (31052) 13 may 2026-cı il, çərşənbə

## İDMAN

## Bakı–Xankəndi velosiped marafonunda 3-cü gün



**Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı Bakı–Xankəndi Azərbaycan Velosiped Yarışında 3-cü mərhələ başa çatıb. Bu yarış günündə velosipedçilər Qəbələdən Mingəçevir şəhərinədək 162,9 kilometr məsafə qət ediblər. Mərhələ daha çox sprint təsnifatı ilə seçilib və ən sürətli velosipedçilər arasında liderin dəyişməsi ilə yadda qalıb.**

Üçüncü yarış gününün qalibi Qazaxıstanın "XDS Astana" Dünya Turu komandasının velosipedçisi Qleb Siritsa olub. O, 3 saat, 26 dəqiqə, 43 saniyə göstərici ilə finiş xəttini birinci keçib. Xatırladaq ki, 2-ci mərhələnin qalibi "XDS Astana"nın digər velosipedçisi Yevgeni Fyodorov olmuşdu.

Belçikanın "Tarleltto-Izorex" kontinental komandasının üzvü Timoti Düpon bu mərhələdə 2-ci, Tailandın "Roojai Insurance Winspace" kontinental klubunun təmsilçisi David Kristian Pita isə 3-cü nəticə göstərib.

Bu gün keçiriləcək 4-cü mərhələdə velosipedçilər Gəncə – Göygöl – Goranboy – Ağdərə (Suqovuşan və Talış kəndləri) – Naftalan marşrutu üzrə hərəkət edərək 152,8 kilometr məsafə qət edəcəklər.

## Gimnastlarımızın 3 medalı



**Azərbaycan bədii gimnastları Portuqaliyanın Portimao şəhərində keçirilmiş beynəlxalq turnirdə 3 medal qazanıblar.**

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, gənclər arasında mübarizədə Azadə Atakişiyeva və Nuray Muradlı komanda hesabında 94.000 xalla ABŞ və İtaliyanı geridə qoyaraq qızıl medalın sahibi olublar.

Fərdi proqramda top ilə Azadə Atakişiyeva 25.500 xalla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bu növdə Gövhər İbrahimova 25.900 xalla gümüş medal əldə edib.

## Bölgə futbol hakimləri üçün təlim



**Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının Komplayns və Danışılmış oyunlara qarşı mübarizə şöbəsi bölgə hakimləri üçün maarifləndirici sessiya təşkil edib.**

AFFA-dan verilən məlumata görə, sessiya zamanı Komplayns və Danışılmış oyunlara qarşı mübarizə şöbəsinin rəisi, eyni zamanda, UEFA-nın oyunların toxunulmazlığı üzrə məsul nümayəndəsi Naib Əsədov və şöbənin aparıcı mütəxəssisi Murad Məmmədli hakimlərə danışılmış oyun anlayışı, oyun zamanı verilən adi hakim qərarları ilə qəsdən manipulyasiya edilmiş qərarlar arasındakı fərqlər, eləcə də bu cür halların futbolun toxunulmazlığına və nüfuzuna vurduğu ciddi zərər barədə ətraflı məlumat verib.

Sessiya çərçivəsində hakimlərin yalnız oyunu idarə edən tərəf deyil, eyni zamanda, futbolun ədalət və dürüstlük prinsiplərinin əsas təminatçısı olduğu vurğulanıb. Danışılmış oyunların əsas motivləri, manipulyasiya hallarının daha çox hansı oyunlarda baş verdiyi, idman mərclərinin bu prosesdə rolu və hakimlərə mümkün təsir üsulları təqdimat vasitəsilə izah olunub.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Təqvim yada salır*

# Kür üzərində tarixi abidə – köhnə Salyan körpüsü

*Mərkəzdən cənub bölgəsinə açılan qapının 80 yaşı tamam olur*

**Vaxtilə Kür çayının Salyandan keçən hissəsində salınaraq Cənub bölgəsinə rahat yol açan, adına şeirlər, nəğmələr qoşulan, o baş-bu başında şir heykəlləri olan məşhur körpünün yaranmasından 80 il ötür.**

İkinci Dünya müharibəsindən 1 il sonra tikilərək istifadəyə verilmiş dəmir-beton konstruksiyalı Salyan körpüsü Azərbaycanın yol infrastrukturu tarixində Kür çayı üzərində ucaldılan ilk mühəndislik abidəsi kimi xüsusi yer tutur. Körpü bu gün nəqliyyat üçün istifadə olunmasa da (indi o ərazidə yol eyniadlı daha geniş və müasir körpüdən keçir), Salyanın əsas simvollarından biri sayılır.


КОММУНИСТ
САЛЯН КӨРПУСҮНҮН ТӘНТӘНӘЛИ АЧЫЛЫШЫ

şairi Səməd Vurğunun çıxış etdiyi də söylənilir. Amma şairin çıxışını heç bir mənbə təsdiqləmir. Həmin dövrdə Salyan Rayon Partiya Komitəsinin orqanı olmuş "Sosializm yolu" qəzetinin də nömrələri saxlanılmayıb.

Əvəzində biz Axundov adına Milli Kitabxanada "Kommunist"in (indiki "Xalq qəzeti") 14 may 1946-cı il tarixli 96-cı nömrəsində respublika əhəmiyyətli bu tədbirdən verilmiş bir səhifəlik reportajla tanış ola bildik. Orada yazılıb: "Kür qırağında başqa aləm var idi. May ayının 12-də yaxın kəndlərdən, rayon mərkəzi Salyan şəhərindən adamlar axın-axın bura yığışırdı. Qırlı yolla şütüyən avtomobillər Bakının adlı-sanlı adamlarını, partiya-hökümət nümayəndələrini, qabaqcıl neftçiləri, şairləri, yazıçıları artistləri, xanəndələri, rəqqasələri, məzhəkəçiləri, mətbuat nümayəndələrini bura daşıyırdı...







Azərbaycanın ən böyük su arteriyası olan Kür çayı tarix boyu ölkənin iqtisadi, sosial və coğrafi həyatında mühüm rol oynayıb. Bu çay uzun illər ərzində yalnız həyat mənbəyi deyil, eyni zamanda, bölgələr arasında təbii maneə olub. Körpünü keçəndən az sonra Kürün sahilində, qədimdən mühüm ticarət yollarının üzərində yerləşən Salyan şəhəri boy göstərir.

Ta XX əsrin ortalarına qədər Salyan ərazisində Kürü keçmək üçün sallardan, panton-bərələrdən istifadə edilib. Taxta körpüləri isə sel-su yuyub aparıb. Salyanda müxtəlif vəzifələrdə işləmiş, indi haqq dünyasında olan Nağı dayı son dəfə taxta körpüdən keçənlərdən olub. O, öz xatirələrində qeyd edir ki, dəmir körpünün acılışı ərəfəsində zəruri mal-materialların gətirilməsi üçün Bakıya ezam olunub və qayıdanda uçuq-salxaq taxt körpüyə "əlvida" deyib. O vaxtın yeni körpüsünə aid kinoxronikada axırıncı taxta körpü də görüntülənir.

İnternet resurslarında az-çox rast gəlinən tarixi mənbələrə istinadla demək olar ki, inşasında alman əsirlərindən işçi qüvvəsi kimi istifadə olunan körpü onların soydaşı olan mühəndis Alfred Riskopun layihəsi üzrə tikilib. Başqa bir mənbəyə görə, Salyan körpüsünün 80 illik tarixinin ilk səhifələrini mayor Florovun rəhbərlik etdiyi və azərbaycanlılıların da çalışdığı Uzaq Şərq Körpü Tikinti İdarəsinin kollektivi yazıb. İşlər 1945-ci ilin əvvəlində başlanıb və 15-16 ay sonra 9 May Qələbə Gününə kimi tamamlanıb.

Tarixi Salyan körpüsünün uzunluğu 360, eni isə 7,1 metrdir. 6 beton özülü var və dəmir konstruksiyalarla üzlənib. Bəzi mənbələrə görə, açılış lentini Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, daxili işlər naziri T.Yaqubov kəsib, mərasimdə Xalq

Açılışın rəsmi qonaqları – Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini, daxili işlər naziri T.Yaqubov, Salyan Rayon Partiya Komitəsinin 1-ci katibi Bağırov, RİK-in sədri Qədirov, şair Səməd Vurğun, Süleyman Rüstəm, Süleyman Rəhimov, SSRİ Ali Sovetinin deputatı Mütəllimov, podpolkovnik Bryukov, SSRİ daxili işlər nazirinin müavini Lukşt və digər yoldaşlar açılış üçün hazırlanmış kürsüyə yaxınlaşırlar. Dövlət himni səslənir. T.Yaqubov Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi və Nazirlər Soveti adından təbrik söyləyir. Ardınca şair Süleyman Rüstəm çıxış edir və şeir oxuyur".

Reportajda daha sonra oxuyuruq: "Azərbaycanın adlı-sanlı pambıqçısı Qüdrət Səmədov xitabət kürsüsünə qalxaraq bu möhtəşəm körpünün tikintisində iştirak edənlərə minnətdarlığını bildirdi: – Biz salyanlılar bu böyük hədiyyə əvəzində bütün dövlət tapşırıqlarını qat-qat artıq yerinə yetirəcəyik, – dedi"...

Salyanlı müəllim Səfurə Quliyeva və başqaları da açılış mərasimində çıxış ediblər. Rus inşaatçı Pyotr Tarskinin çıxışında körpüsalanlar haqqında daha ətraflı məlumat var: "– Keçən ilin mart ayını yaxşı xatırlayıram. İnsanlar burada işə cəlb olunanda geniş çayın sahillərində kol-kos, ot və palçıqdan keçmək olmurdu. Güclü külək boş çöllərin torpağını göylərə sovururdu. Biz işə başlayan gündən qarşılaşdığımız böyük qayğı nəticəsində bütün çətinlikləri aradan qaldıra bildik. Bakıdan "Leytenant Şmidt", "Oktyabr" zavodları, Dəniz Tkinti Tresti, Metal Kombinatı, Azərbaycan Tikinti Təchizat İdarəsi, Dəmir Yol İdarəsi, Kür çayı gəmiçiliyinin işçiləri, Salyan rayonunun bütün əmək kollektivləri körpünün çəkilməsinə çox böyük kömək etdilər. Bu gün böyük başucalığı ilə üzümü Azərbayca xalqına və onun rəhbərinə tutub deyirəm: Qarşımıza qoyduğunuz vəzifə yerinə yetirilmişdir. Kürün bu sahilindən o sahilinə yol acıqdır".

Reportajda o da bildirilir ki, sonra ordenli şair Süleyman Rüstəm çıxış edib və şeir söyləyib. T.Yaqubov tərəfindən körpü çəkilişində fərqlənmiş ən yaxşı inşaatçılara fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunub. Bu məqsəd üçün 75 min manat pul ayrıldığı elan edilib. Rayon icraiyyə komitəsinin sədri Qədirov 12 nəfərə mükafat təqdim edir.

Başqa bir mənbədə – əslən salyanlı olan yazıçı-publisist Zaman Əsgərlinin "Nağı dayı" povestində isə yuxarıda adı çəkilən Nağı Axundovun dilindən deyilir ki, ordenli şair Səməd Vurğun yalnız körpünün açılışı münasibətilə təşkil olunan ziyafətdə şairanə bir sağlıq deyib və şeir söyləyib. Belə bir fikir də var ki, tikintinin möhkəmliyinə tam əminlik yaransın deyə, açılışı zamanı körpünün altında alman əsirləri saxlanılıb və onların başları üzərindən ilk maşın karvanı - ağır texnika körpünü alqış sədaları altında keçib.

Beləcə, Salyan körpüsü 50 ilə yaxın insanlara xidmət göstərib və ötən əsrin 90-cı illərindən istismarı dayandırılıb. Hələ də bu barədə yaddaşlarda müəyyən əfsanələr dolaşmaqdadır.

Salyanın tanınmış ziyalısı – 96 yaşlı həkim Əlisəftər Axundov Kür çayı üzərindəki körpünün açılışını böyük bayram təntənəsi kimi xatırlayaraq deyir ki, uşaqdan böyüyə qədər hər kəs körpünün açılışını səbirsizliklə gözləyirdi. "Xatırlayıram ki, may ayı idi. Şəhər 2 saylı məktəbdə oxuyurduq. 9-cu sinifi başa vurmağa hazırlaşırdıq. Xəbər gəldi ki, körpü açılır. Müəllimlərimizlə birlikdə çayın sahilinə, bu möhtəşəm hadisənin təntənəsini yaşamağa tələsdik. Həmin gün Kür çayını yeni körpü vasitəsilə keçmək taleyimizdə əbədi xatirə kimi qaldı və 80 il əvvəl baş vermiş hadisənin xatırlayanda qəlbimiz yenidən fərəhlə döyünür".

Digər salyanlı – uzun illər Azərbaycan polisinin sıralarında qüsursuz xidmət keçmiş 88 yaşlı Avtandil Məlikovun da xatirələri maraqlıdır: "Təzə körpünün açılışında minlərlə adam iştirak edirdi. Yaşımız az olduğuna görə, biz acılışı ancaq uzaqdan izləyə bildik. Musiqi səsini, alqışları aydın eşidirdik. Gözümüzün qabağında körpüdən keçən maşınlar yanımızdan ötərək rayon mərkəzinə, Cənub rayonlarına yol alıb gedirdi. Hamı sevinirdi. Yolun körpüyə yaxın hissəsində Kür çayı sahilində Tut bağı deyilən ərazidə isə Azərbaycanın dövlət nümayəndələri, SSRİ məkanından gəlmiş generallar, respublikanın tanınmış əmək qəhrəmanlatı, şair və yazıçılar, musiqi xadimləri, körpü tikintisində fərqlənənlər və rayonun qabaqcıl zəhmətkeşləri üçün xüsusi ziyafət təşkil edilmişdi.

Bəli, köhnə Salyan körpüsü ötən əsrin ilk mühəndislik abidələrindən biridir.

*Rüstəm MƏLİKOV,*
*"Ana Kürüm" qəzetinin təsisçisi və redaktoru,*
*Əli DOSTƏLİ*
*Əməkdar jurnalist*

## HAVA

## Aranda yağmursuz, dağlarda yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək, səhər şimal-qərb küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturunun gecə 15-18, gündüz 24-29 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 755 millimetr civə sütunundan 751 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 60-65, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi gözlənilir. Səhər və axşam bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 13-17, gündüz 26-31, dağlarda gecə 8-13, gündüz 17-22, bəzi yerlərdə 26 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

***✓ Astara rayonunun Sərək kənd sakini Həsənov Rizvan Gülməmməd oğluna məxsus nəqliyyat vasitəsinin BD seriyalı, 586769 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.***

***✓ 2024-cü ildə Mərkəzi Seçki Komissiyasının 13 saylı dairəsi tərəfindən aparıcı məsləhətçisi İlahə Mirsalayevanın adına verilmiş 13/12 nömrəli iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

***✓ Quba rayonu Alekseyevka kəndində yaşayan Azərbaycan Resbublikası FHN-in Quba Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin sürücüsü Salmanov Elxan İlham oğlunun adına Azərbaycan Resbubilkası FHN tərəfindən 11.12.2025-ci il tarixdə verilmiş 1041525 A nömrəli daxili xidmət baş çavuşu vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Mətbuat Şurasının sədri Rəşad Məcid mədəniyyət naziri Adil Kərimliyə dayısı

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi hüquq kafedrasının müdiri, professor İsaxan Vəliyevə əzizi

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3215**
**SİFARİŞ 630**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Mehparə ƏLİYEVA**
**Çapa imzalanmışdır 00:00**